Xalqın qəzeti!
# Xalq qəzeti
№ 92 (30496) 5 may 2024-cü il, bazar
Gündəlik ictimai-siyasi qəzeti
1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti xalqqazeti.az

## “Yaşıl” iqtisadiyyata keçid təhlükəsiz gələcəyə töhfədir



**Bu ilin noyabr ayında Azərbaycanda dünyanın ən irimiqyaslı tədbirlərindən biri – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 keçiriləcək. İki həftə davam edəcək tədbir zamanı Bakı dünyanın mərkəzinə çevriləcək və 70-80 minə yaxın xarici qonağı qəbul edəcək. Bununla da respublikamız həm COP29-a evsahibliyi etməsi, həm də enerji siyasətindəki uğurları və proseslərə diplomatik yanaşması ilə bir daha böhrandan hələ gedən yolda mühüm rol oynayan dövlət adını alması faktını təsdiqləyəcək.**

Ümumiyyətlə, ölkəmizin COP29-a evsahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzu baxımından mühüm önəm daşıyır, baş verən proseslərə müşahidəçi yox, iştirakçı kimi qoşulduğumuzu dünyaya bir daha nümayiş etdirir. Əlbəttə, bununla bağlı məsuliyyətli məsələləri də Azərbaycan uğurla həll etməyə qadirdir.

Yerli və beynəlxalq ekspertlər tərəfindən ölkəmizin COP29-a evsahibliyi bu ilin ən mühüm tarixi hadisəsi və respublikamızın “yaşıl iqtisadiyyat”a keçid strategiyasının məntiqi davamı kimi, eyni zamanda, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi bu missiyaya verilən dəyərin təsdiqi olaraq qiymətləndirilir.

*(ardı 3-cü səhifədə)*

## Fransa yeni müstəmləkəçilik bataqlığında




Səh – 4

## Ermənilərin birgəyaşayış fobiyası əsassızdır



Səh – 4

## Türk dövlətləri dünya iqtisadi məkanında




Səh – 9

## Xəzər niyə geri çəkilir?



Səh – 9

## İran xalqı müharibə xülyasına uymur



Səh – 11

## Bakı Marafonu: “Qarabağ üçün qalib ol!”




Səh – 2




## Orta Dəhliz: regional layihənin qlobal hüdudları

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev şəxsi “X” hesabında Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında Transxəzər Nəqliyyat Dəhlizinin (Orta Dəhliz) inkişafı məsələlərinin müzakirə edildiyini paylaşım edib. Ölkəmizdə səfərdə olan Avropa Komissiyasının qonşuluq və genişlənmə danışıqları üzrə baş direktoru Gert Yan Kupmanla görüşdüyünü bildirən nazir paylaşımında, həmçinin Aİ ilə respublikamız arasında nəqliyyat sahəsində əməkdaşlıq, xüsusilə Orta Dəhlizin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, bununla bağlı gələcəkdə icrası nəzərdə tutulan layihələr barədə danışıldığını da vurğulayıb.**

Qeyd edək ki, Azərbaycan Orta Dəhlizin inkişafına daim önəm verib, bu istiqamətdə reallaşdırılan layihələrin gerçəkləşdirilməsini diqqət mərkəzində saxlayıb. Prezident İlham Əliyev “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” mövzusunda aprelin 23-də keçirilən beynəlxalq forumda bu gün Orta Dəhlizə heç vaxt olmadığı qədər ehtiyac yarandığını, Çindən gələn və Azərbaycandan keçən yüklərin ildən-ilə artdığını vurğulayıb. Ölkə rəhbəri daha sonra deyib: “Ötən ay Qazaxıstan Prezidentinin Azərbaycana dövlət səfəri zamanı biz Siandan çıxmış və Bakıya çatmış konteyner qatarının birgə qarşılanma mərasimini keçirdik. Beləliklə, bu, ölkələrimiz arasında əməkdaşlığımızın birgə nümayişi idi. Sözsüz ki, Qazaxıstanla Çin də fəal əməkdaşlıq edir. Lakin Azərbaycanla Çin də əməkdaşlıqlarını çox ümidverici və çox nəticəyönümlü şəkildə inkişaf etdirir”.

*(ardı 7-ci səhifədə)*

## Gürcüstan Qərbə sərt üzünü göstərdi



**Gürcüstan hökuməti milli maraqlarına uyğun qanun layihəsini qəbul etmək istəyir. Ötən nömrələrimizdə qeyd etdiyimiz kimi, söhbət “Xarici təsirin şəffaflığı haqqında” qanundan gedir və rəsmi Tbilisinin fikrincə, bu qanun layihəsi siyasi azlığın zorakı hərəkətlərinin qarşısının alınmasına mühüm töhfə verəcək. Qanun layihəsində illik gəliri 20 faizi xaricdən gələn qeyri-hökumət təşkilatlarının və KİV-in qeydiyyata alınması, illik bəyannamənin doldurulması tələb olunur. Layihəyə əsasən, onların fəaliyyətinə heç bir məhdudiyyət qoyulmur. Lakin müxalifət tam fərqli mövqe sərgiləyir.**

Qanun layihəsinə etiraz edən müxalifət tərəfdaşları bir neçə gündür ki, Tbilisidə küçələrdən çəkilmirlər. İqtidar-müxalifət qarşıdurmasına Qərb də qarışır. Tərəfləri mübahisəni danışıq yolu ilə həll etmək əvəzinə Qərb rəsmi Tbilisini qanun layihəsini qəbul etməməyə çağırır və bununla da küçədəki qarşıdurmanın hərarətini artırır. Mübahisədə neytrallığı itirən Qərb Gürcüstan iqtidarını sanksiyalarla hədələyir və müdaxilələrilə gürcü cəmiyyətinin qütbləşməsinə təkan verir. Son illərdə qrant QHT-ləri, xüsusən də postsovet məkanı ölkələrində ABŞ və ümumilikdə, Qərb siyasətinin sevimli aləti olmasından hamının xəbəri var. Belə nəzarətsiz QHT-lərlə işləmək asan və xoşdur, çünki zəruri əmrləri yerinə yetirməyə canla-başla hazır olurlar. İndi belə qeyri-kommersiya fəaliyyətini tənzimləməyə çalışan Gürcüstan hökumətinə təzyiq göstərirlər.

Əlbəttə, Qərbin belə kobud müdaxiləsinə rəsmi Tbilisi müvafiq reaksiya göstərməyə bilməzdi. İlk növbədə baş nazir İrakli Kobaxidze ABŞ-a getmək dəvətini geri çevirməklə Qərbə ilk ciddi narazılıq siqnalını ünvanladı. Bununla Gürcüstan hakimiyyəti nümayiş etdirdi ki, Qərb tərəfdaşlarının təzyiqinə boyun əymək niyyətində deyil.

*(ardı 11-ci səhifədə)*

# Xankəndi Şəhər Prokurorluğunun yaradılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Xankəndi Şəhər Prokurorluğu yaradılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Xankəndi Şəhər Prokurorluğunun yaradılması ilə əlaqədar həmin qurumun bina, avadanlıq, rabitə, nəqliyyat vasitələri ilə təmin edilməsi və digər maddi-texniki təminatı məsələlərinin həlli üçün zəruri tədbirlər görsün;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 may 2024-cü il**

# Xarici işlər nazirinin Qambiya görüşləri

**Mayın 4-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Qambiyaya işgüzar səfəri çərçivəsində Türkiyənin xarici işlər naziri Hakan Fidan ilə görüşüb.**



Görüş zamanı Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin hazırkı yüksək səviyyəsindən məmnunluq ifadə olunub, Şuşa Bəyannaməsinin əməkdaşlığımızın hərtərəfli inkişafı üçün yol xəritəsi rolunu oynadığı vurğulanıb.

Əlaqələrimizin davamlı, sabit və uzunmüddətli inkişafının təmin edilməsində Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası, Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr, İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiya kimi çərçivə mexanizmlərinin əhəmiyyətli rol oynadığına dair həmfikirlik ifadə olunub.



Mövcud geosiyasi reallıqlar fonunda, Şərqlə Qərb arasında yükdaşımalarında Orta Dəhlizin əhəmiyyətindən bəhs olunub.

Azərbaycan-Türkiyə müttəfiqlik münasibətlərinin BMT, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı kimi çoxtərəfli platformalarda da özünü büruzə verdiyi, qardaş ölkələrimiz arasında koordinasiyalı fəaliyyətin və qarşılıqlı dəstəyin davam etdirilməsi və gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.



***

**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Mərakeş Krallığının xarici işlər, Afrika ilə əməkdaşlıq və xaricdəki mərakeşlilər naziri Nasser Bourita ilə də görüşüb.**



Görüş zamanı Azərbaycan və Mərakeş arasında ikitərəfli münasibətlərin müxtəlif aspektləri ətrafında fikir mübadiləsi aparılıb.

İki ölkə arasında mövcud əməkdaşlıq gündəliyindən bəhs edən C.Bayramov Azərbaycan və Mərakeş arasında ticarət, enerji, təhsil, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlığın geniş inkişaf potensialının mövcudluğunu qeyd edib.

O, həmçinin BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Qoşulmama Hərəkatı (QH) kimi çoxtərəfli platformalarda həyata keçirilən təmasların və bu platformalarda ölkələrin bir-birinin mövqeyinə göstərdiyi qarşılıqlı dəstəyin ikitərəfli münasibətlər üçün mühüm rol oynadığını qeyd edib.

***

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Somali Federativ Respublikasının Baş nazirinin müavini Salah Ahmed Jama ilə görüşüb.**

Ceyhun Bayramov Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə Afrika ölkələrinin maraqlarının beynəlxalq platformalarda təbliği və Afrika ölkələri ilə əlaqələrinin inkişafı üçün səylərini əsirgəmədiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ölkələri üçün müəyyən edilmiş təqaüd proqramında Somalidən tələbələrin iştirakının təqdirəlayiq olduğu bildirilib.

***

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Qambiya Respublikasında baş tutan 15-ci İslam Sammitində 2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsi təsdiqlənib. Bu bu barədə Azərbaycan XİN məlumat yayıb.**

Sammitin sonunda Banjul Sammitinin yekunlarına dair qəbul olunmuş Yekun Kommunikedə həmçinin bu istiqamətdə Bakıda təşkil olunacaq sammitin həyata keçirilməsində əməkdaşlığa çağırış olunub.

Kommunike, eyni zamanda "Bakı prosesi" çərçivəsində təşkil olunmuş VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini alqışlayıb, habelə BMT sistemində, xüsusilə Təhlükəsizlik Şurasının strukturunda coğrafi təmsilçiliyin daha ədalətli bölgüsünə çağırış edib.

**XQ**

# Bakı Marafonu: "Qarabağ üçün qalib ol!"

**Bu gün Heydər Əliyev Fondunun təşkilatçılığı ilə keçirilən Bakı Marafonunda klubun 2 nəfər xarici vətəndaş olmaqla 21 üzvü "Qarabağ üçün qalib ol!" şüarı altında mübarizə aparır.**




Qarabağ Dirçəliş Fondu ilə Bakı Marafon Klubu arasında əldə olunmuş razılığa əsasən, Qarabağın dirçəlişi ideyasını ölkə daxilində və xaricdə təbliğ etmək məqsədilə bu şüar altında müxtəlif təşəbbüslərin həyata keçirilməsi nəzərdə tutulur.

Bakı Marafon Klubunun komandasının QDF-in adından Bakı Marafonunda iştirak etmək təklifini yüksək qiymətləndirən Rəhman Hacıyev komandaya uğurlar arzulayıb.

Qeyd edək ki, ötən il olduğu kimi, "Bakı Marafonu 2024"-də tərəfdaş kimi çıxış edən Qarabağ Dirçəliş Fondu Marafonun fan zonasında yaşıllaşdırma sahəsində böyük təcrübəyə malik olan "Tutto Bello" şirkətinin dəstəyi ilə hazırlanan "Marafon bağı" adlı xüsusi yaşıl pavilyonla iştirak edəcək.

**XQ**

# XİN-in NATO ilə əməkdaşlığa dair paylaşımı

**"30 il əvvəl bu gün Azərbaycan NATO-nun Sülh Naminə Tərəfdaşlıq proqramına qoşulub".**




Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi "X" hesabında yazıb.

"Bu əlamətdar hadisə həm Cənubi Qafqazda, həm də bütün dünyada əməkdaşlığa, təhlükəsizliyin möhkəmləndirilməsinə və sülhün təşviqinə davamlı sadiqliyimizi vurğulayır", – XİN qeyd edib.

**XQ**

# Enerji keçidi və özəl bölmə

**Bu gün Azərbaycan enerji keçidi üzərində fəal işləyir, o, ev sahibliyi edəcəyi COP29-a hazırlaşır, bununla yanaşı ölkənin öz enerji keçid proqramı var.**



Bunu maliyyə naziri Samir Şərifov Gürcüstanın paytaxtında Asiya İnkişaf Bankının 57-ci illik toplantısı çərçivəsində keçirilən "Transformasiya üçün iqlim dəyişikliyinə qarşı mübarizə sahəsində nəticələrin əldə edilməsi" adlı seminarda bildirib.

Onun sözlərinə görə, bu proqram 2030-cu ilə qədər istehlak olunan enerjinin 30 %-ni bərpa olunan enerji mənbələrindən istehsal etmək məqsədi daşıyır.

"Buna nail olmaq üçün biz özəl şirkətlər və beynəlxalq investorlarla bir sıra investisiya müqavilələri bağlamışıq. Bu məqsədlə birbaşa xarici investisiyaları cəlb edirik. Amma bu gün dediyi kimi, dövlətlərdən dəstək olmasa, biz özəl sektoru cəlb edə bilmərik, onun maliyyələşdirilməsini səfərbər edə bilmərik".

# Aİ və Orta Dəhlizin inkişafı



**Azərbaycan və Avropa İttifaqı arasında Orta Dəhlizin inkişafı məsələləri müzakirə edilib.**

Bu barədə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev şəxsi "X" hesabında paylaşım edib.

Ölkəmizdə səfərdə olan Avropa Komissiyasının qonşuluq və genişlənmə danışıqları üzrə baş direktoru Gert Yan Kupmanla görüşdüyünü bildirən nazir qeyd edib ki, Avropa İttifaqı və Azərbaycan arasında nəqliyyat sahəsində əməkdaşlıq, xüsusilə Orta Dəhlizin inkişafı məsələləri müzakirə olunub.

# Milli Kitabxananın həssas qrupa töhfəsi

**Milli Kitabxanada "5 May – Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü" adlı virtual və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**




Xatırladaq ki, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının qərarı ilə 1992-ci ildən etibarən hər il 5 may bütün dünyada "Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü" kimi qeyd olunur. Bu günün qeyd olunmasında məqsəd əlillərin və sağlamlıq imkanları məhdud şəxslərin hüquqlarının qorunmasını beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq, bu kateqoriyadan olan insanların cəmiyyətə inteqrasiyasını gücləndirməkdir.

Əlilliyi olan şəxslərin hüquqlarının qorunması ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. 1998-ci il iyunun 18-də "İnsan hüquqlarının müdafiəsinə dair dövlət proqramı"nın təsdiq edilməsi ölkəmizdə insan hüquqlarının qorunmasına göstərilən yüksək diqqətin ifadəsi olmaqla yanaşı, əlillərə dövlət qayğısını da yeni səviyyəyə qaldırıb.

31 may 2018-ci ildə qəbul olunan "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanunu əlilliyi olan şəxslər barəsində dövlət siyasətinin əsaslarını və onların hüquqlarının müdafiəsi sahəsində dövlətin vəzifələrini müəyyən edir, əlilliyi olan şəxslərin hüquq və azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini, onların şərəf və ləyaqətinin müdafiəsi sahəsində yaranan münasibətləri tənzimləyir.

Milli Kitabxanada 5 May Əlillərin Hüquqlarının Beynəlxalq Müdafiəsi Günü münasibətilə hazırladığı virtual sərgidə müxtəlif fotolar, mövzu ilə əlaqəli nəşrlər və dövri mətbuat səhifələrində dərc olunan materiallar nümayiş olunur.

Ənənəvi kitab sərgisində isə mövzu ilə bağlı kitablar Azərbaycan və müxtəlif dillərdə nümayiş olunur. Sərgi 1 həftə davam edəcək.

**XQ**

# COP29 Təşkilat Komitəsinin üçüncü iclası

## *Beynəlxalq məclisə hazırlıq məsələləri geniş müzakirə olunub*






**Mayın 4-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin üçüncü iclası olub.**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, sonuncu iclasdan ötən müddət ərzində COP29-a hazırlıq prosesi çərçivəsində görülmüş işlər və bu xüsusda COP29 üzrə Tədbirlər Planının icrası barədə məlumat verib.

Samir Nuriyev COP29-un loqosunun və şüarının müəyyən edildiyini diqqətə çatdırıb. Bildirib ki, COP29-un şüarı "Yaşıl dünya naminə həmrəy olaq!" kimi seçilib.

COP29-un və Liderlər Sammitinin Bakı Olimpiya Stadionunda keçiriləcəyini bildirən Təşkilat Komitəsinin sədri hazırda stadionda və ətrafında layihələndirmə, yerində hazırlıq işlərinin aparıldığını vurğulayıb. Samir Nuriyev tədbirdə iştirakla bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf ölkələrin dövlət və hökumət başçılarına dəvət məktublarının göndərildiyini qeyd edib.

Samir Nuriyev dövlətimizin başçısının "COP29 və Azərbaycan üçün yaşıl baxış" adlı beynəlxalq forumda, Petersberq İqlim Dialoqunda və VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda COP29 və iqlim dəyişikliyi məsələləri ilə bağlı ölkəmizin mövqeyini əks etdirən əsas istiqamətlərə dair məlumat verdiyini bildirib.

Təşkilat Komitəsinin sədri ölkəmizin Dünya Bankının Vaşinqton yaz sessiyası və Petersberq İqlim Dialoqu da daxil olmaqla iqlim dəyişmələri sahəsində təşkil edilən mühüm beynəlxalq tədbirlərdə fəal surətdə iştirak etdiyini bildirib və iyun ayında keçiriləcək Bonn iqlim dəyişikliyi konfransına ciddi hazırlıq işlərinin aparılmasının vacibliyini vurğulayıb.

Azərbaycanın COP29 zamanı prioritetləri haqqında danışan Samir Nuriyev COP29 Sədrliyinin Fəaliyyət gündəliyinin hazırlanmasının son mərhələdə olduğunu diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri COP29-un rəsmi internet səhifəsinin fəaliyyətə başladığını, yerli mediada COP29 ilə bağlı prosesin geniş işıqlandırıldığını, xarici media ilə fəal iş aparıldığını vurğulayaraq, nüfuzlu beynəlxalq nəşrlərdə COP29 komandasının müsahibələrinin dərc olunduğunu qeyd edib.

Samir Nuriyev, həmçinin "Yaşıl dünya naminə həmrəylik ili" ilə əlaqədar ölkədə görülmüş işlər barədə məlumat verib.

Sonra ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev çıxış edərək, ölkəmizin COP29-a sədrliyi ilə bağlı hazırlıq prosesi, COP29 komandasının xarici ölkələrə səfərləri və keçirilmiş görüşlər barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov COP29-a hazırlıq çərçivəsində təşkilati-logistika sahəsində görülən işlər barədə məlumat verib.

Səhiyyə naziri Teymur Musayev COP29 zamanı tibbi xidmətin təminatçısı qismində cəlb olunacaq dövlət və özəl tibb müəssisələrinin ilkin siyahısının müəyyən edildiyini, tibb müəssisələrinin və təcili tibbi yardım xidmətinin Çağrı Mərkəzinin fəaliyyətinə səhiyyə könüllülərinin də cəlb olunacağını bildirib.

Milli Məclisin deputatı Sevinc Fətəliyeva COP29-la bağlı parlament səviyyəsində aparılan işlər, o cümlədən Milli Məclislə Parlamentlərarası İttifaq arasındakı fəal əməkdaşlıq barədə məlumat verib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini, COP29 Təşkilat Komitəsi Katibliyinin rəhbəri Həbib Mikayıllı Katibliyin fəaliyyəti, dövlət orqanlarının işinin əlaqələndirilməsi, COP29 prezidentinin komandasına institusional dəstəyin verilməsi və kommunikasiya məsələləri barədə çıxış edib.

Energetika nazirinin müavini, "COP29 Azərbaycan" üzrə baş icraçı direktor Elnur Soltanov Azərbaycanın Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələri, eləcə də özəl sektor və gənclərlə aparılan iş barədə danışıb.

"SmartNation" platformasının təsisçisi Şəbnəm Məmmədova iqlim dəyişmələrinə qarşı fəaliyyət zamanı innovasiya və smart texnologiyaların rolu barədə çıxış edib.

Xarici işlər nazirinin müavini, COP29-un baş danışıqçısı Yalçın Rəfiyev COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə daxil olan təşəbbüslər, müxtəlif ölkələr və danışıqlar qrupları ilə aparılan müzakirələr və danışıqlar prosesinə hazırlıq barədə məlumat verib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev COP29-da iştirak edəcək şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında çıxış edib.

"EkoSfera" Sosial Ekoloji Mərkəzinin İdarə Heyətinin sədri Firuzə Sultanzadə COP29-da vətəndaş cəmiyyətinin rolundan və ekologiya ilə bağlı QHT-lərin tədbirdə iştirakının təmin olunmasından danışıb.

İclasın sonunda COP29-un təşkili və keçirilməsi ilə bağlı Tədbirlər Planının icrası və digər aidiyyəti məsələlər üzrə tapşırıqlar verilib.

---

# "Yaşıl" iqtisadiyyata keçid təhlükəsiz gələcəyə töhfədir

**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq "yaşıl enerji" iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib.

Bəşəriyyətin qlobal iqlim dəyişikiliyi ilə mübarizənin yeni mərhələsinə qədəm qoyduğu indiki şəraitdə COP29-dan gözləntilər çoxdur. Belə ki, "yaşıl dünya" ilə bağlı bir sıra yeni prioritetlərin məhz Azərbaycan paytaxtında müəyyənləşdiriləcəyi gözlənilir ki, bu da qlobal iqlim dəyişikliyinə əhəmiyyətli töhfə sayılacaq. Eyni zamanda uzun illərdir ki, dünya ölkələri qlobal istiləşmənin, karbon emissiyalarının təsirlərinin azaldılması, uyğunlaşma və iqlimin möhkəmləndirilməsi kimi müxtəlif sahələrin maliyyələşdirilməsi ilə bağlı yekdil rəyə gələ bilmirlər. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bu problemin həlli üçün 100 milyard dollarlıq fond yaradacaqlarını bildirsələr də, məsələnin həlli düyünə düşüb. Ekspertlərin fikrincə, COP29 bu düyünün açılmasına, iştirakçı ölkələrin maliyyə məsələsində razılığa gələ biləcəyinə böyük ümid bəsləyirlər.

Yeri gəlmişkən, burada ekspertlərin bir məsələyə münasibətini də xatırlatmaq istərdik. Bu, tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlıdır. BMT-nin qaz və alternativ enerji üzrə ekspertlər qrupunun üzvü Ayaz Salmanovun fikrincə, istər neft-qaz, istərsə də digər sahələrdə "0" tullantı prinsipinin təmin olunması iqlim dəyişikliyinə təsir edən amillərdən biridir: "Hazırda biz istehsalat prosesində formalaşan hər hansı bir növ tullantını emal və yaxud utilizasiya etmiriksə və birbaşa təbiətə atırıqsa, bu, birbaşa ətraf mühitin çirklənməsinə və iqlim dəyişməsinə səbəb olur.

Unutmayaq ki, iqlim dəyişikliyi antopegen təsirlərdən qaynaqlanır. Bu gün emal sənayesi qurularkən tullantıların düzgün idarə olunması iqlim dəyişikliyinə çox müsbət təsir edir. Əgər biz tullantıların doğru çeşidlənməsini təmin ediriksə və daha sonra bunu doğru istiqamətdə utilizasiya və emal prosesindən keçiriksə, deməli, iqlim dəyişikliyinə qarşı mübarizədə böyük ölçüdə müsbət töhfə vermiş oluruq".

A.Salmanov qeyd edir ki, bu gün tullantıların emalının iqlim dəyişikliyinə təsiri ilə bağlı trendlər də dəyişib. Hazırda bir sahədə tullantı sayılan məhsul digər sahə üçün unikal xammaldır. Bu, o deməkdir ki, tullantılar emal edilməklə əlavə əmtəə yaradılır. Məsələn, SOCAR uzun illərdir ki, çox gözəl və anoloqsuz bir layihə həyata keçirir. Bu da ondan ibarətdir ki, neft gölməçələrindən toplanan tullantılar əmtəə nefti səviyyəsində bərpa olunur. Bu layihənin daha bir uğuru ondan ibarətdir ki, özü özünü maliyyələşdirir. Yəni bu işə heç bir əlavə vəsait xərclənmir. Beləliklə, bu tip layihələr həm iqtisadi dəyər yaradır, həm də ekoloji tarazlığın bərpasına xüsusi töhfə verilir.

Yeri gəlmişkən, dünya mediası da COP29 ərəfəsində Azərbaycanın bu mötəbər tədbirə ciddi hazırlaşdığını, eyni zamanda ölkəmizin "yaşıl enerji"dən uzunmüddətli faydalar əldə etməyə çalışdığını bildirir. Bolqarıstanın "Standard" milli informasiya qəzetinin saytında yer alan məqalədə bununla bağlı deyilir: "Ötən il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflərin 29-cu Konfransına evsahibliyi etmək hüququ əldə edən Azərbaycan növbəti onillikdə "yaşıl enerji"yə doğru irəliləməyi qarşısına məqsəd qoyub. Bu ölkə zəngin neft və qaz ehtiyatlarına




malik olmasına baxmayaraq "yaşıl enerji"dən də uzunmüddətli faydalar əldə etməyə çalışır".

Məqalədə, həmçinin vurğulanıb ki, Azərbaycan öz vətəndaşları üçün sağlam həyat şəraitinin, eləcə də regionda və bütövlükdə dünyada insanlar üçün təhlükəsiz yaşayış mühitinin yaradılmasına yardım etmək istiqamətində "yaşıl enerji" siyasətini prioritetə çevirmək arzusunu ifadə edib.

"Standard" qəzeti məqalədə daha sonra bildirib ki, Azərbaycan 2021-ci ildə Qlazqoda keçirilən COP26 sammitində istixana qazları emissiyalarını 40 faiz azaltmaq və Ermənistanın işğalından azad etdiyi ərazilərdə "xalis sıfır emissiya" zonası yaratmaq hədəflərini bir daha təsdiqləyib. Ölkə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını, eləcə də Naxçıvan Muxtar Respublikasını "yaşıl enerji" zonaları kimi elan edib. Bu amili isə həmin regionların müxtəlif bərpaolunan enerji mənbələrindən, o cümlədən su, günəş, külək və geotermal enerjidən istifadə üçün əhəmiyyətli potensiala malik olması şərtləndirib.

Onu da bildirək ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "yaşıl enerji" zonasının yaradılması üzrə qarşıya qoyulmuş hədəflərə uyğun olaraq həmin ərazilərdə dağ-mədən və alternativ enerji sahələrində olan layihələrə artıq başlanılıb. Ağdam rayonunda Şahbulaq daş karxanası layihəsinə investisiya qoyuluşu məqsədilə Azərbaycan İnvestisiya Şirkəti (AİŞ) və "Star Mining" MMC arasında birgə "Shahbulag Mining" şirkəti təsis olunub və hazırda layihəyə 160-dan çox işçi cəlb edilib. AİŞ və Türkiyənin "Demirören Yatırım Holding A.Ş." şirkəti arasında Kəlbəcər və Laçın rayonlarında Həkəri və Tərtər çayları üzərində yerləşən 5 kiçik su elektrik stansiyasının bərpası və yenidən qurulması, uzun müddətə istismar və fəaliyyətinin təşkil edilməsinə dair birgə iştirak müqaviləsi imzalanıb. Qeyd edilən stansiyalar fəaliyyətə başladıqdan sonra ən azı 60 nəfərin daimi iş yeri ilə təmin edilməsi nəzərdə tutulub.

Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin "yaşıl enerji" zonasına çevrilməsi və ölkəmizin bərpaolunan enerji potensialının inkişafı məqsədi ilə AİŞ, SOCAR və bp şirkətləri ilə Cəbrayıl rayonunda 240 MVt gücündə günəş paneli stansiyasının tikintisini nəzərdə tutan, AİŞ-in "Şəfəq" ("Sunrise") layihəsinə daxil olmaq niyyətini əks etdirən qoşulma sazişi imzalanıb. Layihədə "Səngəçal" terminalında qazdan alınan enerjini günəş enerjisi ilə əvəz etmək qarşıya əsas vəzifə kimi qoyulub.

"Yaşıl enerji" zonası elen edilən Naxçıvan Muxtar Respublikası da əlverişli günəş radiasiyasına və yüksək bərpaolunan enerji potensialına malikdir. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Bərpaolunan enerji mənbələri ərazilərinin inkişafı şöbəsinin müdiri Fəqan Abdurəhmanovun sözlərinə görə, Naxçıvanda ümumi gücü 39 MVt olan günəş elektrik stansiyaları fəaliyyət göstərir: "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nına əsasən, burada "Yaşıl Enerji Zonası"nın yaradılması, konsepsiya və tədbirlər planının hazırlanması nəzərdə tutulur. Naxçıvanda külək və günəş enerjisi üzrə 1500 MVt-lıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 MVt-nın Türkiyə və Avropa istiqamətində ixracı əsas hədəflərdəndir".

Mütəxəssis deyir ki, hazırda Fransanın "TotalEnergies" şirkəti ilə 250 MVt gücündə və "Nobel Energy" şirkəti ilə 400 MVt gücündə günəş elektrik stansiyalarının inşası və istehsal ediləcək elektrik enerjisinin Türkiyəyə ixracı üzrə əməkdaşlıq edilir. Eyni zamanda Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi və "A-Z Czech Engineering" MMC arasında imzalanan "Azərbaycan Respublikası ərazisində bərpaolunan enerji mənbələri üzrə layihələrin icrası, həmçinin Naxçıvan Muxtar Respublikasında gücü 500 MVt-a qədər olan günəş elektrik stansiyasının tikintisi, eləcə də elektrik enerjisinin Türkiyəyə ixracı üçün ötürücü şəbəkənin qurulması imkanlarının araşdırılması üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu" çərçivəsində əməkdaşlıq həyata keçirilir.

Rəsmi məlumatlara görə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, eləcə də Naxçıvan Muxtar Respublikasının bərpaolunan enerji mənbələri üzrə ümumi texniki potensialı 15 GVt təşkil edir. Eyni zamanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində artıq 53,6 MVt gücündə 11 külək elektrik stansiyası (SES) istifadəyə verilib, 70,5 MVt gücündə 7 su elektrik stansiyasının tikintisi davam etdirilir və bu il ümumi gücü 76,8 MVt olan daha 9 stansiyanın tikintisinə başlanılması nəzərdə tutulur.

Sonda qeyd edək ki, Azərbaycan hökuməti elektrik enerjisi istehsalı üçün təbii qazdan istifadəni azaltmaq üçün dayanıqlı elektrik keçidinin yaradılması yolu ilə 2030-cu ilə qədər ölkənin ümumi enerji kompleksində quraşdırılmış bərpaolunan enerji potensialının payını hazırkı 17 faizdən 30 faizə çatdırmağı qarşısına əsas məqsəd qoyub. Ölkəmiz, həmçinin qlobal enerji bazarlarına enerji ixracının diversifikasiyası və tərəfdaşlar üçün enerji təhlükəsizliyi sahəsində dəstəyin artırılmasını nəzərdə tutub.

Azərbaycanda qlobal istiləşmə ilə mübarizədə respublikamızın etibarlı enerji tərəfdaşı və beynəlxalq birliyin məsul üzvü kimi rolunu nümayiş etdirən "yaşıl enerji" layihələri uğurla həyata keçirilir. 2024-cü ilin noyabrında Bakıda keçiriləcək BMT-nin İqlim Sammitinə sədrlik edəcək ölkəmiz bu nüfuzlu tədbiri iqlim dəyişikliyinə qarşı birgə mübarizədə beynəlxalq əməkdaşlığın reallaşdırılması üçün mühüm platforma olaraq dəyərləndirir.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Fikrət YUSİFOV,**
**iqtisad elmləri doktoru,**
**professor**

Son onillikdə ölkəmizin paytaxtında keçirilmiş beynəlxalq tədbirlərin sırasına nəzər salsaq, maraqlı bir mənzərənin şahidi olarıq. Belə tədbirlərin ölkəmizdə, onun paytaxtı Bakı şəhərində keçirilməsi bizə nə verir? Azərbaycan bu platformalardan məharətlə yararlanaraq, ilk növbədə, öz həqiqətlərini bütün dünyaya çatdıra bilir. Bu tədbirlər vasitəsilə apardığımız təbliğatla bizə düşmən mövqedə olan qüvvələrin dünyanın ayrı-ayrı yerlərində ölkəmiz, xalqımız barəsində yaratmaq istədikləri neqativ fikirlər alt-üst edilir. Respublikamıza gələn insanlar Azərbaycanı və azərbaycanlıları daha yaxından tanıdıqdan sonra yanlış təbliğatlar vasitəsilə onlara aşılanmış neqativ baxışlar pozitiv baxışlarla əvəzlənir.

Belə tədbirlərin keçirilməsindən sonra geriyə qayıdan insanlar öz ölkələrində əhatələrində olanlara Azərbaycan və azərbaycanlılar barəsində gerçəkləri çatdıraraq, ölkəmiz və xalqımız haqqında müsbət fikirlər formalaşdırırlar.

Son 20 ildə bu platformalardan istifadə edərək, Azərbaycan Qarabağ həqiqətlərini bütün dünyaya yönəltdi. Erməni vəhşiliyinin bütün dünyaya çılpaqlığı ilə çatdırılmasında ölkəmizdə keçirilən tədbirlərin rolu da az olmadı. Bu illər ərzində keçirilən beynəlxalq tədbirlərin xətti ilə bura gələn hər kəs bu münaqişədə kimin haqlı, kimin haqsız və işğalçı olduğuna inanıb geri dönürdü. Biz bu gün də dünyanın ən nüfuzlu tədbirlərini ölkəmizdə məmuniyyətlə keçiririk.

Bu ilin sonunda COP29 kimi böyük bir tədbirin respublikamızda keçirilməsi o deməkdir ki, həmin günlərdə bütün dünyanın gözü Azərbaycanda və onun paytaxtı Bakıda olacaq. Torpaqlarımızın işğaldan tam azad edildiyi indiki dönəmdə belə bir nəhəng tədbirin Azərbaycanda keçirilməsinin siyasi dvidendləri yetərincə böyükdür. Bu forumun respublikamızda keçirilməsi, eyni zamanda Azərbaycanda "yaşıl enerji" istehsalına xarici sərmayələrin axınına geniş imkanlar açacaq.

# Fransa yeni müstəmləkəçilik bataqlığında

**Regional və qlobal miqyasda önəmi günü-gündən artan, fəal xarici siyasət yürüdən Azərbaycan 13 il öncə daha bir mühüm beynəlxalq platforma əldə etdi. Özünün xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq xəttini seçmiş ölkəmiz 2011-ci il mayın 26-da İndoneziyanın Bali adasında Qoşulmama Hərəkatına (QH) üzv olan dövlətlərin yekdil dəstəyini əldə edərək, təşkilata tamhüquqlu üzv qəbul olundu. Azərbaycan qısa müddət ərzində uğurlu xarici siyasəti sayəsində bu təsisat daxilində böyük nüfuz və etimad qazandı.**




Ölkəmiz üzvlərinin sayına görə, dünyada BMT-dən sonra ikinci təşkilata (QH-nin 120 üzvü, 19 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı var – S.H.) üzv olandan sonra onun fəaliyyətinə önəmli töhfələr verməyə başladı. Buna görə də 2016-cı ilin sentyabrında hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının Venesuelanın Marqarita adasında keçirilən XVII Zirvə görüşündə növbəti sammitin Bakıda keçirilməsi və 2019–2022-ci illərdə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olundu. Ölkəmizin sədrliyi 2019-cu il oktyabrın 25-26-da Bakıda keçirilən XVIII Zirvə toplantısı ilə başladı. Daha sonra üzv dövlətlərin yekdil qərarı ilə sədrliyimiz daha bir il uzadıldı.

İş elə gətirdi ki, Azərbaycanın sədrliyinin başlanmasından bir neçə ay sonra – 2020-ci ilin əvvəlindən dünya böyük bir bəlaya – COVID-19 pandemiyasına, necə deyərlər, ürcah oldu. Pandemiyaya qarşı qlobal mübarizə məqsədilə QH-nın sədri qismində Prezident İlham Əliyevin bir sıra önəmli təşəbbüsləri oldu. Belə ki, Azərbaycanın hərəkata sədrliyi dövründə 2020-ci ilin mayında QH-nın liderlər səviyyəsində onlayn sammiti, 2020-ci ilin dekabrında isə BMT Baş Assambleyasının xüsusi sessiyası keçirildi. Həmçinin bu dövrdə Azərbaycanın təşəbbüsü ilə bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələri qəbul edildi. Bundan əlavə, ölkəmiz əksəriyyəti QH-yə üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstək göstərdi. QH-nın bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi hərəkatın koronavirusla mübarizədə liderliyinə dəlalət edirdi.

Ölkəmizin QH-nin sədri kimi hər zaman xüsusi diqqət yetirdiyi məsələlərdən biri də yeni müstəmləkəçilik (neokolonializm) tendensiyalarına qarşı mübarizənin aparılması idi. Azərbaycan neokolonializm meyillərinin artmasından ciddi narahatlığını dəfələrlə bəyan edib. Bakı hesab edir ki, dekolonizasiya prosesi nəticəsində yaranmış QH keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Hazırda 13 ərazini öz müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Eyni zamanda, buna səsini çıxarmayan Avropa təsisatlarının "qoca qitə"də yerləşməyən ölkələrin daxili işlərinə müdaxiləsi cəhdləri hiddət doğurur. Həmçinin, digər ölkələrin daxili işlərinə qarışmağı adətə çevirmiş Avropa Parlamenti və AŞPA-nın bununla bağlı susqunluğu diqqəti cəlb edir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev neokolonializm meyilləri ilə bağlı məsələyə tez-tez etirazını bildirir. Dövlətimizin başçısı QH-nın sədri kimi bir neçə dəfə Fransanın işğal etdiyi ölkələrdə həyata keçirdiyi insanlıq əleyhinə çoxsaylı cinayətləri, törətdiyi vəhşilikləri faktlarla yüksək tribunalardan sadalayıb. Sonuncu dəfə mayın 1-də "Sülh və qlobal təhlükəsizlik naminə dialoq" mövzusunda VI Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində cənab İlham Əliyev bildirdi ki, Azərbaycan QH-nın sədri kimi hər zaman yeni müstəmləkəçilik tendensiyalarına qarşı mübarizəni təşviq edib: "Artıq söylədiyim kimi, həmin hərəkatın üzvlərinin əksər hissəsinin çox ağır, qaranlıq müstəmləkə tarixçəsi olub və buna qarşı mübarizənin aparılması o deməkdir ki, biz buna inanırıq. Çünki biz ədalət naminə danışırıq, çünki biz beynəlxalq hüquq naminə danışırıq. Yəni, biz belə bir məsələyə imkan verə bilmərik ki, indi – XXI əsrdə bəzi Avropa ölkələri digər xalqlara müstəmləkə kimi yanaşsın. Təbii ki, biz öz səsimizi ucaltdıqda, hərəkatda sədrliyimiz zamanı bu məsələni qaldırdıqda, bu, onunla bağlı deyildi ki, biz hansısa ölkələrə qarşı idik. Biz, sadəcə, ədalətə, beynəlxalq hüquqa bağlı idik. Bu, yaddan çıxmalı deyil. Dünya məcburi assimilyasiyaya aparan belə bir iyrənc neokolonializm təcrübəsinə göz yummamalıdır. Ondan çox fransız dənizaşırı ərazisində həyata keçirilən məcburi assimilyasiya əslə qəbuledilməzdir və buna son qoyulmalıdır. Bu səbəbdən Avropa təsisatları bəzən çalışırlar Avropada olmayan ölkələrin daxili işlərinə müdaxilə etsinlər. Amma Avropa Parlamenti və AŞPA bununla bağlı səsini çıxarmır. Çünki yeni müstəmləkə tendensiyaları yenə də davam edir. Onda siz nəyə görə tənqid etmirsiniz? Nəyə görə siz sanksiyalar tətbiq etmirsiniz? Nəyə görə susursunuz? Bəli, biz sədr olaraq, hərəkat daxilində bu işi gördük. Bu, bizim vəzifəmiz idi. İndi görürük ki, digər ölkələrə, imperiyada yaşayan xalqlara gəldikdə, biz bilirik ki, azad və müstəqil olmaq nə deməkdir. Biz bunu bilirik və həmin insanlara kömək etmək istəyirik..."

**Mövzu üzrə fikirlərini öyrəndiyimiz politoloq İlyas Hüseynov** qəzetimizə açıqlamasında bildirdi ki, Azərbaycan QH-yə 4 il sədrlik edən dövlət kimi bir sıra qlobal təşəbbüslərə imza atıb. Qeyd etdi ki, hərəkatda cəmləşən dövlətlər qrupu dünyada bir-biri ilə qarşıdurma şəraitində olan



güc mərkəzlərinə qarşı öz mövqelərini bildirir, problemlərindən danışır və birliyi, həmrəyliyi təşviq edirlər. Hərəkatın əsas mahiyyəti də bundan ibarətdir: "Əslində, Qoşulmama Hərəkatının fəlsəfəsi ilə Azərbaycanın xarici siyasəti üst-üstə düşdüyü üçün sədrliyimiz çox uğurlu nəticələr verib. Eyni zamanda Azərbaycan sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafına xüsusi diqqət yetirib. Azərbaycanın təşəbbüsü ilə 2021-ci ildə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsi, 2022-ci ildə Gənclər Təşkilatı yaradılıb, 2023-cü ildə Qadınlar Platformasının yaradılması ideyası üzv dövlətlər tərəfindən dəstəklənib. Azərbaycanın QH-yə sədrliyi dövründə hərəkatın beynəlxalq nüfuzu və çəkisi artıb. 2024-cü ilin yanvarından QH-da sədrlik Uqandaya keçib. Ancaq ölkəmiz bu mötəbər təsisatın sədrlik "üçlüyü"nün üzvü kimi onun fəaliyyətində və uğurlarında yaxından iştirak etməyə davam edir. Digər tərəfdən 2023-cü il iyulun 6-da QH-nın Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə beynəlxalq miqyasda qeyri-hökumət təşkilatı kimi Bakı Təşəbbüs Qrupu yaradılıb. Qrup məhz Fransa müstəmləkəçiliyinin və digər müstəmləkəçiliklərin qarşısının alınması, xalqların azadlığı və müstəqilliyinə nail olunması uğrunda müxtəlif tədbirlər keçirir. Eyni zamanda, biz ayrı-seçkiliyə, etnik və dini dözümsüzlüyə qarşı çıxırıq".

İ.Hüseynovun sözlərinə görə, dünyada elə güc mərkəzləri, elə dövlətlər qrupu var ki, onlar məhz müəyyən kriteriyalar hesabına özlərinin hegemon və imperialist mövqelərini genişləndirirlər. Dövlətləri, necə deyərlər, özünkülərə və özgəninkilərə bölürlər: "Bu isə çox təhlükəli tendensiyalara yol açır. Eyni zamanda, bu dövlətlər əllərinə düşən fürsətdən istifadə edərək tarixi keçmişlərini, əhalisini, ərazisini, müxtəlif beynəlxalq təşkilatlardakı rolunu işə salaraq, dövlətləri məzəmmət edir, onları təsir altına salmaq istəyir, hədələyir, şantaj və təhdid dili ilə danışırlar. Nəticədə dövlətləri özlərindən asılı vəziyyətə salmaq istəyirlər. Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası da onların bu məqsədinə xidmət edən qurumlara çevrilib".

Müsahibimiz qeyd etdi ki, əslində, tamamilə başqa yanaşma olmalıdır. Bu təşkilatlar müxtəlif regionlarda yaşayan xalqların hüquqlarını qorumalı, onların azadlıqlarını təşviq etmək istiqamətində fəaliyyət göstərməlidirlər. Təəssüf ki, onlar yalnız siyasi sifarişləri yerinə yetirirlər. Ona görə də bu qeyri-bərabərlik və qərəzli, məkrli yanaşmalar, əlbəttə, dünyada bölücülüyə xidmət edir. Bu gün biz əslində, yeni pandemiyadan, yeni kütləvi xəstəliklərdən, qarşılaşa biləcəyimiz müxtəlif çağırışlardan sığortalanmamışıq: "Hazırda dünya kəskin qütbləşmiş, son dərəcə parçalanmış vəziyyətdədir. Dünya ölkələri bu bölücü xətləri aradan qaldırmaq üçün fəaliyyət göstərməli olduqları halda, təəssüf ki, fərqli ayrı-seçkilik yaradan, fərqli yanaşma sərgiləyən dövlətlər hələ də var. Əksər ölkələr hələ də necə deyərlər, birqütblü dünya ilə hesablaşmalı olduqlarını düşünürlər. Bizim müşahidə etdiyimiz və Prezident İlham Əliyevin son dövrlərdə öz nitqlərində və müsahibələrində bildirdiyi fikir bundan ibarətdir ki, Qlobal Cənub adlanan bir fenomen formalaşıb. Bu dövlətlərin əhalisi, təbii ehtiyatları, nəqliyyat imkanları, iqtisadiyyatları, gənclərin əhalinin ümumi sayında çoxluq təşkil etməsi də diqqəti xüsusi cəlb edir".

Məşhur amerikalı sosioloq və politoloq Samuel Hantinqtonun vaxtilə dediyi kimi, biz bu gün təkcə sivilizasiyaların toqquşmasını yox, şimalla cənub arasında mübarizənin getməsini də müşahidə edirik. Azərbaycan yeni dünya nizamının formalaşması prosesində özünə güclü tərəfdaşlar, dostlar qazana bilib. Biz müxtəlif təhdidlərə qarşı da birgə fəaliyyət göstərməyə hazırıq. Əslində, bizim kimi ölkələrə başqa çıxış yolu da qoymurlar. Azərbaycan öz dövlət və milli maraqlarını hər bir situasiyada qorumağa qadirdir.

*Səxavət HƏMİD*
*XQ*

---

**Günün araşdırması**

**Heç nə daimi deyil, düşmənçilik də, həmçinin. Dünən qan düşmənçiliyinə qədər münasibətləri pozulmuş qonşuların, bütöv tayfanın bu gün can bir qəlbdə yaşaması əfsanə deyil, reallıqdır. Tarixdən məlumdur ki, "qoca qitə"nin, eləcə də dünyanın ən sivil xalqları sayılan fransız, alman və ingilislər öz aralarında on illər boyu, hətta, yüz il müharibə aparıblar. Amma indi qonşular kimi dinc yanaşı, mehriban yaşayırlar, Avropa İttifaqı kimi beynəlxalq birlik yaradıblar.**

# Ermənilərin birgəyaşayış fobiyası əsassızdır



Doğrudur, hazırda onları daha çox iqtisadi maraqlar birləşdirsə də, keçmiş düşmənçiliklərini tarixin arxivinə göndərməyi bacarıblar. Bu nümunəyə istinadla belə qənaətə gəlmək olar ki, əgər ermənilər Qafqazda, o cümlədən Azərbaycanda yaşamaq istəyirsə, gərək qonşularına qarşı yersiz iddialarından əl çəksinlər, "nifrət patologiyası"ndan, başqa xalqlara düşmən baxmaq azarından qurtulsunlar.

Ermənilərin qeyd etdiyimiz azardan hələ qurtula bimədiklərini "MPG/Gallup" Beynəlxalq Assosiasiyasının 1.100 erməni respondent arasında apardığı sorğunun nəticələri sübuta yetirib. Təşkilatın "Sülh və təhlükəsizliyə beynəlxalq təminat verilərsə azərbaycanlılarla birgə yaşamağa hazırsınızmı?" – sualına respondentlərin 6,2 faizi mütləq şəkildə "bəli", 9,6 faizi tərəddüdə "bəli" cavabını verib. Sorğuda iştirak edənlərdən suala yumşaq "yox" cavabını verənlər 6,1 faiz, mütləq "yox" deyənlər isə 75,7 faiz təşkil edib. Min yüz nəfərin cəmi 2,4 faizi suala cavab verməkdə çətinlik çəkib.

* * *

Proqnozlaşdırıla bilən olsa da, yenə də sorğunun nəticələri maraq doğurur, üstəlik, bizə müəyyən qənaətə gəlməyə əsas verir. Əslində, biz azərbaycanlılar bu nəticələrə təəccüblənməli deyilik. Yalnız "MPG/Gallup"un sualın qoyuluşunda "sülh və təhlükəsizliyə beynəlxalq təminat verilərsə" ifadəsinin yer alması-nın özü haqlı sual doğurur. Beynəlxalq təşkilat və ya qurum ermənilərin təhlükəsizliyinə harada və hansı formada təminat verməyə hazırlaşır? Ümumiyyətlə, belə bir təminata Azərbaycanın ehtiyacı varmı? Azərbaycan tərəfi dəfələrlə ən yüksək tribunadan bildirib ki, bizim Azərbaycanla Ermənistan arasında vasitəçilərə ehtiyacımız yoxdur və biz onların təsirini minimuma endirmək üçün əlimizdən gələni edəcəyik.

Tutaq ki, Ermənistanın başbilənləri və onların avropalı, okeanın o tayındakı tərəfdaşları tərəflərin sülhə nailolma səylərinin qarşısını illərlə aldılar. Onlar bununla son nəticədə nəyə nail olacaqlar? Faktiki olaraq heç nəyə. Bəs, erməni cəmiyyətinin, xalqının qazancı nə olacaq? Münasibətlərin normallaşdırılması, qarşılıqlı əməkdaşlıq üçün yaranmış fürsətin qaçırılması və itirilmiş vaxt. Bu gün Azərbaycan hakimiyyəti nə edirsə düzgün edir. Həyatın və dialektik materializmin qanunudur: bəzilərinin üstünlükləri və ya imtiyazları başqalarının hədsiz səlahiyyət və iddialarının məhdudlaşdırılması hesabına əldə olunur. Bu kontekstdən yanaşanda qonşular qətiyyən incimməlidirlər. Axı, onların qəbul etməyə çətinlik çəkdikləri bu acı reallığı özləri ərsəyə gətiriblər.

Alman dramaturqu Bertolt Brextin "Qafqaz təbaşir dairəsi" pyesinin qəhrəmanı maraqlı və ibrətamiz bir kəlam işlədir: "Dünyada yaxşı hər şey ən faydalı olana məxsus olmalıdır". Motivi və qayəsi Qafqaz xalqlarının dostluğa və qardaşlığa dəvət emək ideyasına köklənmiş əsərin ermənilərdə hansı assosiasiyanı doğurduğunu söyləmək çətindir. Bəlkə də məşhur şair–dramaturq əsərində ermənilər deyil, etnik mozaikası zəngin olan Qafqazın başqa xalqlarını nəzərdə tutub. Güman edə bilərik ki, "miatsum" tiryəkindən beyinləri dumanlanmış hayların Türkiyəyə, Suriyaya, İraqa, Gürcüstana və Azərbaycana qarşı ərazi iddialarından alman sənətkar da xəbərsiz olmayıb.

* * *

Sosial sorğunun nəticələri ermənilərin yuxarıda sadaladığımız mərəzlərdən nə vaxtsa xilas olacaqlarına ümidlərimizi heçə endirdi. Bu minvalla "batmanla gələn misqalla çıxar" məsələndə deyildiyi kimi, onların "şovinistlik komasından" ayılmaları üçün daha iki yüz ilə ehtiyacları var.

İki yüz əvvəli demirik, son 35 ildə azğınlaşmış daşnak-separatçı haylardan xalqımız o qədər pislik, yamanlıq görüb ki, bizə qarşı etdikləri cinayətləri, yaşatdıqları faciələri, iztirabları unuda bilmirik və unutmamalıyıq. Hətta, bütün bunlardan sonra da onlara xoşməramlı qonşuluq əlimizi uzadırıq. Azərbaycanın bu jestini qəbul edənə "salam", etməyənə isə "yaxşı yol" deməkdən başqa seçimi qalmayıb.

Xalqımız neçə əsrdir çoxsaylı millətlərin nümayəndələri ilə sülh və tolerantlıq mühitində birgə yaşayışın nümunəsini ortaya qoyub. Separatizmə başlayana, torpaqlarımızı işğal edənə qədər ermənilərlə nəinki Qarabağda, o cümlədən Bakıda, Sumqayıtda, Gəncədə mehriban və problemsiz şəraitdə yaşayırdıq. Bu sülhü, mehribançılığı pozan ermənilər oldu. Bütün olub-keçənlərə baxmayaraq, ərazimizdəki digər xalqların nümayəndələri kimi, ermənilərə də birgə yaşayış təklif edilib. Amma onlar buna hazırdırmı? Xeyr! Milli natamamlıq kompleksindən əziyyət çəkən bu xalqın hamıya və hər şeyə nifrəti Ermənistanı monoetnik dövlətə çevirib. Nə gizlədək, dünyanın müxtəlif bölgələrində azərbaycanlılarla ermənilərin nəinki yanaşı, hətta birgə yaşayışına dair xeyli nümunə var. Təkcə Azərbaycanda yox, Türkiyədə, İranda. Rusiyada da belə beynəlmiləl ailələr az deyil.

Burada bir məqamı qeyd etməyi vacib sayırıq. Biz Azərbaycan və Ermənistan arasındakı hərbi-siyasi qarşıdurmaya ərazi münaqişəsi kimi baxmışıq. Amma 35 il əvvəl erməni daşnakları başladıqları bu davaya milli, dini, hətta tarixi rəng verdilər. Əslində, Cənubi Qafqazda bu qarşıdurmanın bitməsini istəməyənlərin, bundan öz xeyirlərinə bəhrələnənlərin bunu məhz milli münaqişə kimi təqdim etmələri də təsadüfi deyildi. Artıq gün kimi aydındır ki, ərazi iddialarını milli münaqişə zəmininə keçirənlərin niyyətini anlamayan, yaxud anlamaq istəməyənlər birgə yaşayışın mümkünsüzlüyünü deyən haylar və onların qərbi, şərqli "züytutan"larıdır. Bu, mütləq nəzərə alınmalı olduqca ciddi amildir.

* * *

Mövzu ilə bağlı fikir mübadiləsi etdiyimiz ekspertlərin bir qisminin iki qonşu xalqın bütün umu-küsüləri unudub, yanaşı yaşaması üçün vaxta ehtiyac olduğu barədə dedikləri ilə razılaşmamaq olmur. Həqiqətən də, zaman çox müşkülərin çarəsi sayıldığı kimi, bizim hekayətimizdə də ona ehtiyac duyulur. İlkin mərhələdə "birgə yaşayış" terminini "yanaşı yaşamaq" termini ilə əvəz etməyi daha məqsədəuyğun sayan ekspertlər haləlik hər kəsin öz evində rahat və təhlükəsiz şəkildə yaşaması modelinə üstünlük verirlər.

Hər kəs əkdiyinin bəhərini dərir, qazanına tökdüyü isə qaşığına çıxır. Ermənilərin günahsız soydaşlarımıza qarşı yol verdikləri başkəsmə, diri-diri yandırma olayları, kütləvi və məhkəməsiz edamlar, zorlamalar, yağmalama və talanlar bizim gözüdönmüş canilərə soyuqqanlı yanaşmağımıza mane olan çox ciddi səbəblərdir. Bu cür "psixoloji sədləri" aşaraq, keçmiş cəllada əl uzatmaq o qədər də asan deyil. Ermənilərin yenidən yanaşı yaşamağın mümkünsüzlüyünü iddia etməsi onlarda qorxunun yaratdığı reaksiyadır. Həmin qorxunun mənbəyi isə yuxarıda sadaladığımız və insanlıqla bir araya sığmayan əməllərdir. Əgər bu iki xalqın birgəyaşayışı, doğrudan da, mümkün deyilsə, ortada iki yüz ilə yaxın sürən, arada hərdən alovlanan düşmənçilik, Qarabağ ermənisi Robert Koçaryanın iddia etdiyi kimi, "ermənilərlə azərbaycanlıların genetik uyğunsuzluğu" problemi varsa, bu halda hərə öz yolu ilə getməkdə davam eləsin. Atalar məsəlində necə deyilir: ...gedərlər yola salarıq. Bu, iki vur iki qədər sadədir...

*İmran BƏDİRXANLI*
*XQ*

# Ulu öndərin enerji siyasəti və milli təhlükəsizlik

**XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan ulu öndər Heydər Əliyevin siyasi portreti Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış müdrik idarəçilik məktəbinin canlı təcəssümüdür. Müstəqil Azərbaycanımızın memarı və qurucusu olan Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətinin əsas istiqamətlərindən biri də respublikamızın mükəmməl enerji siyasəti və təhlükəsizlik sisteminin formalaşdırılmasıdır.**



Ulu öndərin Azərbaycanın qüdrətli dövlətə çevrilməsi istiqamətində müəyyənləşdirdiyi siyasətinin əsas bazasının ilk olaraq iqtisadi prioritetlər istiqamətində təmin etdi. Xüsusilə enerji siyasətində əhəmiyyətli qərarların verilməsi güclü ölkə reallığını yaratdı. Əgər bu siyasət neftlə başlamışdırsa sonrakı illərdə enerji siyasətinin yüksək inkişafı ilə təşəkkül tapdı. Ulu öndər hələ XX əsrin 70-ci illərindən dünyanın ümumi inkişaf kontekstində ölkəmizin yerini və inkişaf istiqamətlərini dəqiq müəyyənləşdirmiş, qloballaşma müstəvisində layiqli yer tutması üçün əzmlə çalışmış və böyük fədakarlığı sayəsində bunlara nail olmuşdur. Ulu öndər hələ SSRİ dövründən respublikamızda təhlükəsizliklə bağlı işlərin bünövrəsini qoymuşdur. Yüksək idarəetmə qabiliyyətinə, geniş dünyagörüşə, siyasi təfəkkürə sahib olan tarixi liderin böyük səyləri sayəsində Azərbaycan qısa bir vaxtda aqrar respublikadan sənaye ölkəsinə çevrilmişdir.

Təəssüf ki, 1990-1993-cü illərdə Azərbaycanın nəinki bəyan olunmuş müstəqilliyi, hətta bütövlükdə bir dövlət kimi mövcudluğu sual altında idi. Artıq dövləti idarə edə bilməyən AXC-Müsavat cütlüyü də siyasət meydanından getmək məcburiyyətində qalmışdı. Xalqımızın istək və arzusu ilə 1993-cü ildə siyasi hakimiyyətə gələn zaman Heydər Əliyevin qarşısında çətin və mürəkkəb vəzifələrin, xüsusilə də, ölkənin təhlükəsizlik məsələlərinin həlli dururdu. Ulu öndər çıxışlarının birində Azərbaycanın həmin dövrünü belə xarakterizə edirdi: "Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlayanda çox çətin və ağır vəziyyətdə idi. Biz artıq təhlükəsizliyimizi özümüz təmin etməli idik. O illərdə Azərbaycanda rəhbərlikdə olan insanların səriştəsizliyi nəticəsində ölkədə proseslər çox mənfi istiqamətdə gedirdi - xaos, anarxiya, hərc-mərclik, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz, torpaqlarımızın itirilməsi, vətəndaş müharibəsi. Bütün o illər bizim üçün çox ağır, çətin keçirdi və Azərbaycanın müstəqil dövlət ölkə kimi yaşaması sual altında idi".

Beləliklə, Azərbaycanın müstəqillik dönəmində məhz Ulu öndərin xalqımızın istək və tələbi ilə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan dövlətinin və vətəndaşlarının bütün təhdidlərdən etibarlı şəkildə müdafiəsinə xidmət edən effektiv təhlükəsizlik siyasətinin həyata keçirilməsinə başlanıldı. Ötən əsrin 90-cı illərinin ortalarına doğru bütün daxili problemlərin tədricən aradan qaldırılması, hakimiyyətin zorla dəyişdirilməsi cəhdlərinin qarşısının alınması və bu qeyri-konstitusion ənənəyə son qoyulması, ictimai-siyasi sabitliyin bərpa olunması, iqtisadi təhlükəsizliyimizin təmin edilməsi, ordu quruculuğu istiqamətində mühüm tədbirlərin həyata keçirilməsinə başlanılması, "Əsrin müqaviləsi"nin imzalanması, Azərbaycanın beynəlxalq münasibətlər sistemində öz mövqeyini möhkəmləndirməyə başlaması enerji və milli təhlükəsizlik siyasətinin həyata keçirilməsindən xəbər verirdi.

1994-cü ilin sentyabr ayında dünyanın tanınmış neft şirkətləri ilə Azərbaycan arasında "Əsrin müqaviləsi"nin imzalanması yalnız ölkəmizin neft strategiyasının uğurla reallaşması və gələcək iqtisadi inkişaf, enerji siyasətində təməllərin formalaşdırılması deyildi, həm də Azərbaycanın təhlükəsizlik konsepsiyasına dahi lider Heydər Əliyev tərəfindən böyük müdrikliklə əlavə edilən olduqca mühüm, həm də qlobal məzmun daşıyan siyasi və tarixi bir hadisə idi. Tarixdə ilk dəfə olaraq, Heydər Əliyevin sayəsində Xəzər neftinin alternativ marşrutla dünya bazarlarına çıxarılması ilə bağlı razılaşmaların əldə olunması, Bakı-Tbilisi-Ceyhan neft xəttinin təməlinin qoyulması, respublikamızın qlobal enerji müzakirələrindəki yerinin möhkəmlənməsi Azərbaycanın regional və beynəlxalq təhlükəsizliyini gücləndirən, onu qlobal səviyyədə söz sahibinə, mühüm tərəfdaşa çevirən siyasi-iqtisadi faktorlar idi.

ABŞ, Böyük Britaniya, Fransa, Türkiyə, Rusiya və digər ölkələrin ən iri neft şirkətlərinin cəlb olunduğu "Əsrin müqaviləsi" Azərbaycanın regional və qlobal əhəmiyyət daşıyan enerji siyasətinin strateji təməlini təşkil edir. Birinci növbədə 1995-ci ildə ilkin neft hasilatı layihəsi çərçivəsində "Çıraq-1" özülü Qərb standartlarına uyğun olaraq bərpa olundu. 1997-ci ildə isə "Çıraq" yatağından neft hasilatına başlandı. Bundan iki il sonra Azərbaycan "Əsrin müqaviləsi" çərçivəsində neftin hasilatından gəlir əldə etməyə başladı. Belə ki, 1999-cu ilin dekabrında Azərbaycanın "mənfəət nefti" ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarıldı. Bakı-Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inşa edildi və ilk dəfə Azərbaycan nefti Novorossiysk limanına nəql olundu. Bakı-Supsa boru kəməri inşa edilərək, 1999-cu ildə işə salındı. ATƏT-in Türkiyənin İstanbul şəhərində keçirilən Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalandı. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyularaq tikintisinə başlandı. 2006-cı ildə isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. Beləliklə, Azərbaycanın fəal neft siyasəti qlobal əhəmiyyətli regional layihələrin reallaşmasına imkan verdi.

Ulu öndərimiz Heydər Əliyevin əsasını qoyduğu "Əsrin müqaviləsi" və Azərbaycanın enerji strategiyası onun layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə həyata keçirilməklə bərabər, həm də yeni layihələr və müqavilələrlə inkişaf etdirildi. TAP, TANAP, Cənub Qaz Dəhlizi kimi qlobal layihələrə imzasını atan ölkə başçısı sözü də imzası qədər etibarlı lider olaraq Azərbaycanı etibarlı tərəfdaş və Avropanın enerji təhlükəsizliyində mühüm rola malik dövlətə çevirdi.

Bu gün Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji layihələrinin geostrateji, siyasi və iqtisadi əhəmiyyəti beynəlxalq səviyyədə yüksək qiymətləndirilir. Çünki Azərbaycanın bu sahədə yürütdüyü strateji kurs həm də enerji təhlükəsizliyinin təmin edilməsi və bu ölkə ilə əməkdaşlıq edən ölkələrin milli maraqları baxımından son dərəcə əhəmiyyətlidir. Ümumiyyətlə, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfə verən Azərbaycanla enerji tərəfdaşlığı çoxşaxəli tərəfdaşlıq baxımından yüksək qiymətləndirilir. Çünki Azərbaycanın praqmatik enerji siyasəti regional və qlobal miqyasda enerji təhlükəsizliyinə xüsusi önəm verən aparıcı dövlətlər üçün böyük əhəmiyyət kəsb edir. Digər tərəfdən, Azərbaycanın balanslaşdırılmış xarici siyasət strategiyası regionun siyasi, iqtisadi və enerji təhlükəsizliyinin təmin olunmasına birbaşa töhfə verir. Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı dövlətləri və təşkilatları Azərbaycanı Cənubi Qafqazın təhlükəsizliyinin təminatçısı və inkişaf mənbəyi adlandırırlar.

Azərbaycan özünün zəngin enerji ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca sahələrdən birinə çevrilib. Təsadüfi deyil ki, Azərbaycanın iştirakı olmadan bu gün regionda heç bir layihə reallaşmır. Ölkəmizin enerji siyasəti regionda təhlükəsizliyin möhkəmlənməsində əsas amil kimi çıxış edir. Təbii ki, bu reallıqların həyata keçirilməsinin daha bir mühüm amili Prezident İlham Əliyevin Ulu öndərin siyasətini uğurla davam etdirməsidir. Bu gün Azərbaycan regionda nəinki söz sahibidir, ölkəmiz həm də bir sıra qlobal məsələlərdə təşəbbüskar roluna malikdir. Ən əsası budur ki, həyata keçirilən çoxşaxəli enerji siyasəti sayəsində Azərbaycan regional güc mərkəzindən qlobal strateji tərəfdaşa çevrilməkdədir. Bunun nəticəsidir ki, digər dövlətlər regional və beynəlxalq təhlükəsizliyin təmin və mühafizə olunması, eləcə də, səmərəli tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsində Azərbaycanla çoxşaxəli əməkdaşlığa müstəsna önəm verirlər.

Qlobal əhəmiyyətli regional layihələrin reallaşmasının əsas iştirakçısı olan Azərbaycan beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi qəbul olunur. Eyni zamanda, düzgün neft siyasəti sayəsində iqtisadiyyatı sürətlə inkişaf edən Azərbaycan Cənubi Qafqaz regionunda lider dövlətə, real güc amilinə çevrilib. Bu isə ölkəmizin bütün məsələlərdə öz sözünü deməsinə, bölgədə təhlükəsiz ölkə statusuna malik olmasına gətirib çıxarıb. Azərbaycan, eyni zamanda, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən geostrateji nəqliyyat qovşağına çevrilmişdir. Bu istiqamətlərdə ən səmərəli nəqliyyat dəhlizləri bu gün Azərbaycandan keçir və beynəlxalq yollar həm də respublikamızda kəsişir. Azərbaycandan keçən tranzit yüklərin həcminin ildən-ilə artması bu istiqamətdə marşrutların səmərəli olması ilə yanaşı, həm də təhlükəsizlikdən xəbər verir ki, bu da dövlətimizin böyük uğurudur.

Son dövrlərədək Azərbaycanın milli təhlükəsizliyinin əsas problemi və hərbi-geostrateji vəzifəsi artıq keçmişdə qalmış Ermənistan – Azərbaycan münaqişəsinin həllinə nail olmaq, respublikamızın pozulmuş ərazi bütövlüyünü və suveren hüquqlarını bərpa etmək və bu fonda regionda sülhü və dinc əməkdaşlıq mühitini təmin etməkdən ibarət olmuşdur. Bunun üçün ölkə rəhbərliyi bütün istiqamətlərdə fəal iş aparmış və torpaqlarımızın işğaldan azad edilməsi dövlət siyasətinin mərkəzində dayanmışdır.

2020-ci il sentyabrın 27-də Ermənistanın cəbhə xəttində törətdiyi növbəti hərbi təxribatından sonra Azərbaycan Silahlı Qüvvələrinin başladığı hərbi əməliyyatlar cənab İlham Əliyevin qətiyyətli siyasətinin, ordumuzun qüdrətinin, xalqımızın milli həmrəyliyinin göstəricisi olmaqla bərabər, həm də respublikamızın mükəmməl təhlükəsizlik konsepsiyasının təntənəsinə çevrildi. Bu konsepsiyanın əsasında həyata keçirilmiş tədbirlər 44 günlük müharibə zamanı Azərbaycanın həm hərb meydanında, həm də siyasi-diplomatik sahədəki qələbələrinin təməlində dayandı. Vətən müharibəsindən ötən 3 il ərzində etibarlı təhlükəsizlik sistemi formalaşdıran Prezident İlham Əliyev hərbi-siyasi uzaqgörənliklə və böyük təmkinlə əzəli torpaqlarımız olan Qarabağda milli suverenliyimizi tam bərpa etdi. Qarabağda həyata keçirilmiş Fərrux, Sarıbaba-Qırxqız və "Qisas" əməliyyatları, Laçın yolunda dövlət sərhəd-buraxılış məntəqəsinin yaradılması bizi addım-addım bu məqsədə yaxınlaşdırdı.

Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü il sentyabrın 19-20-də keçirdikləri lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Qarabağdakı erməni separatizminə birdəfəlik son qoyuldu. Bu baxımdan Prezident İlham Əliyev tərəfindən oktyabr ayının 15-də Xankəndi başda olmaqla, Xocalıda, Əsgəranda, Ağdərədə, Xocavənddə, Sərsəng su anbarı ərazisində Azərbaycan bayrağının ucaldılması, Zəfər Günündə Xankəndidə hərbi paradın keçirilməsi, sülhməramlıların Qarbağdan çıxarılması, bir güllə atılmadan dörd qeyri-anklav kəndin qaytarılması yalnız yaşadığımız dövrün deyil, xalqımızın son bir neçə əsr daxil olmaqla dövlətçilik tarixinin ən böyük hadisələrindəndir.

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşən və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi respublikamızın milli təhlükəsizlik strategiyasının əsasını torpaqlarımızın işğaldan azad olunması təşkil etmişdir. Beləliklə, ərazi bütövlüyümüzün bərpa olunması, Qarabağda erməni separatizminə son qoyulması Azərbaycanın təhlükəsizlik siyasətinin ən böyük uğuru və ulu öndər Heydər Əliyev siyasi yolunun təntənəsidir.

Ölkəmizin son illərdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə qurmağa başladığı yaşıl enerji sistemi Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası elan olunması, 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetdən birinin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilməsi, COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi qərarı ölkəmizin iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə əhəmiyyətli töhfəsidir. Bərpa olunan enerji növlərinin yaradılması, "ağıllı" kəndlər və şəhərlər qurulur. Azərbaycanın yaşıl enerji siyasəti qlobal siyasi arenada və beynəlxalq iqtisadi münasibətlər sistemində mövqeyini daha da gücləndirmək imkanı yaradır.

Prezident İlham Əliyevin şəxsi nüfuzu, siyasi liderlik qabiliyyəti sayəsində Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində atdığı addımlar dövlətin beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə töhfə verib, etibarlı tərəfdaş imicini formalaşdırıb və Azərbaycanı qlobal problemlərin həll olunduğu platformaya çevirib. Azərbaycanda hazırda nəhəng enerji infrastrukturu yaradılıb və bununla da, Avrasiyanın enerji xəritəsi dəyişdirilib.

Bu gün dünya birliyi tərəfindən Azərbaycanın ən təhlükəsiz dövlət hesab olunmasının nəticəsidir ki, ölkəmiz humanizm, multikulturalizm, tolerantlıq, iqtisadi çətinliklərin həlli, dünya miqyaslı problemlərin dialoq formasında müzakirəsi ilə bağlı mötəbər tədbirlərə evsahibliyi edir.

***Ar[illegible] ABDULLAYEV,***
***Naxçıvan Dövlət Universitetinin prorektoru, dosent***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 236**

**Bakı şəhəri 1 may 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 17 sentyabr tarixli 141 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 745 (Cild I); 2024, № 1, maddə 111) ilə təsdiq edilmiş "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1** 1.2.12-ci yarımbənddən ", sərnişinlərə xidmət göstərilməsini, habelə sərnişinlərdən gediş haqqının və baqajın (əl yükünün) daşınması haqqının yığılmasını təmin edən" sözləri çıxarılsın.

**2.** 2.10-cu bənd ləğv edilsin.

**3** 4.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"4.3. Müntəzəm marşrutların açılmasına yalnız onların keçəcəyi yolların vəziyyəti, hərəkətin təhlükəsizliyinin, habelə bu marşrutlarda istismar ediləcək avtonəqliyyat vasitələrinin daşımalara yararlığının təmin olunması baxımından Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi və BDYPİ tərəfindən birgə yoxlanıldıqdan sonra icazə verilir. Yoxlamanın nəticələri aktla rəsmiləşdirilir və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə isə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi tərəfindən zəruri məlumatlar göstərilməklə marşrutun pasportu hazırlanaraq təsdiq edilir.".

**4.** 4.10-cu bənddən "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri çıxarılsın və həmin bənddə "Nazirliyi" sözü "Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin.

**5.** 4.12-ci bənddə "10 gün" sözləri "15 iş günü" sözləri ilə əvəz edilsin.

**6** 4.13-cü bənddə "3 gün" sözləri "7 iş günü" sözləri ilə əvəz edilsin.

**7** 4.15-ci bənddə "sərnişin və" sözləri "müntəzəm sərnişin, eləcə də" sözləri ilə əvəz edilsin.

**8** 4.27-ci bəndin ikinci cümləsində və 6.34-cü bəndin birinci cümləsində "Cədvəldə" sözü "Hərəkət cədvəlində" sözləri ilə əvəz edilsin.

**9** 6.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"6.3. Şəhərdaxili (rayondaxili) müntəzəm marşrutlar üzrə sərnişin daşınması üçün gediş biletlərinin və ödəniş alətinin satışı, o cümlədən ödəniş alətinə vəsaitin yüklənilməsi satış məntəqələrində, bilet kassalarında və elektron qaydada "AYNA" informasiya sistemi üzərindən həyata keçirilir.".

**10.** 6.4-cü bəndin ikinci cümləsi çıxarılsın.

**11.** 6.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.5. Şəhərlərarası (rayonlararası) və beynəlxalq müntəzəm marşrutlar üzrə biletlərin satışı avtovağzalların (avtostansiyaların) kassaları tərəfindən, eləcə də elektron qaydada "AYNA" informasiya sistemi üzərindən həyata keçirilir. Biletlər yalnız qeyd olunmuş günə və avtobus reysinə etibarlı sayılır.

Sərnişinlərdə biletlərin və ya digər gediş sənədlərinin olması sürücü, yaxud konduktor tərəfindən sərnişinlər avtobusun salonuna daxil olduqda yoxlanılır.".

**12.** 6.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"6.6. Daşıyıcı bilet satışını avtovağzalın (avtostansiyanın) kassaları vasitəsilə, eləcə də elektron qaydada "AYNA" informasiya sistemi üzərindən həyata keçirdikdə, bilet satışından əldə olunan gəlirin müqavilə ilə müəyyən olunmuş müvafiq faizini, avtovağzalın (avtostansiyanın) sərnişin daşınma-sının təşkili ilə bağlı xərclərinin qarşılanması üçün avtovağzalın (avtostansiyanın) hesabına köçürür. Müqavilə üzrə faiz məbləği I kateqoriya avtovağzallar üzrə 22%-dək, II kateqoriya avtovağzallar üzrə 18%-dək I kateqoriya avtostansiyalar üzrə 15%-dək, II və III kateqoriya avtostansiyalar üzrə isə 10%-dək olmaqla müəyyən edilə bilər.".

**13** 6.9-cu bəndin ikinci abzası çıxarılsın.

**14.** 6.10.3-cü yarımbənddə "qiyməti" sözü "gediş haqqı" sözləri ilə əvəz edilsin.

**15.** 6.12-ci bəndə "biletin" sözündən sonra "("AYNA" informasiya sistemi üzərindən elektron qaydada alınmış biletlər istisna olmaqla) sözləri əlavə edilsin.

**16** 6.17-ci bəndin birinci cümləsi çıxarılsın və ikinci cümləsinə "biletləri" sözündən sonra "kassalarda və ya satış məntəqələrində" sözləri əlavə edilsin.

**17** 6.19-cu bənd ləğv edilsin.

**18** 6.20-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.20. Müntəzəm şəhərlərarası (rayonlararası) və beynəlxalq sərnişin daşımalarında biletlərin əvvəlcədən satışı təşkil edilə bilər.".

19. 6.22-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.22. Beynəlxalq və şəhərlərarası (rayonlararası) müntəzəm daşımalarda biletlərin kassalarda satışından aşağıdakı hallarda imtina edilə bilər:".

**20.** 6.24-cü bənd aşağıdakı redaksiyada verilsin:

"6.24. Beynəlxalq və şəhərlərarası (rayonlararası) müntəzəm avtobus marşrutları üzrə gediş sənədinin aralıq dayanacaq məntəqələri üzrə satışı avtobusda boş yerlərin olması barədə məlumatın alındığı vaxtdan kassalarda və ya "AYNA" informasiya sistemi üzərindən həyata keçirilir.".

**21** 6.25-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.25. Gediş sənədinin (biletlərin) əvvəlcədən satışı avtobusun yola düşməsinə 30 gün qalmış başlayır və 2 saat qalmışadək davam edir. Avtobusun yola düşməsinə 30 dəqiqə qalmış biletlərin kassalarda, satış məntəqələrində və ya "AYNA" informasiya sistemi üzərindən satışı dayandırılır.".

**22.** 6.26-cı bənd ləğv edilsin.

**23** 6.32-ci bənd aşağıdakı redaksiyada verilsin:

"6.32. Bilet müntəzəm beynəlxalq marşrutlarda işləyən avtobusların yola düşməsinə ən azı 24 saat qalmış qaytarıldıqda onun dəyərinin 25 faizi və əvvəlcədən satışa görə komisyon muzd çıxılmaqla ödənilmiş gediş haqqı sərnişinə qaytarılır. Bilet bu müddətdən gec, lakin avtobusun yola düşməsinə 5 saatdan çox olmayan vaxt ərzində qaytarıldıqda, onun dəyərinin 50 faizi və əvvəlcədən satışa görə komisyon muzd çıxılmaqla ödənilmiş gediş haqqı sərnişinə qaytarılır.".

**24.** 6.35-ci bəndin birinci cümləsində "1 gün" sözləri "3 iş günü" sözləri ilə əvəz edilsin və həmin bəndin üçüncü cümləsinə "daşınması haqqı" sözlərindən sonra "3 iş günü ərzində" sözləri əlavə edilsin.

**25.** 6.36-cı bənddə "qət edilməmiş məsafəyə görə ödənilmiş məbləğ" sözləri "gediş haqqı" sözləri ilə "ucbatından" sözü "səbəbindən" sözü ilə əvəz edilsin, həmin bənddən "və sərnişində gecikdiyi reysə olan bilet gələn reys üçün yenidən rəsmiləşdirilmir" sözləri çıxarılsın.

**26** 8.2.2-ci yarımbəndə "yoxlanılmasını" sözündən sonra "və həmin şəraitə uyğun istismar olunacaq avtobusun təqdim edilməsini" sözləri əlavə edilsin.

**27** 8.2.3-cü yarımbənd ləğv edilsin.

**28** 8.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.17. Növbələrarası istirahəti 12 saatdan az olan sürücülərin avtonəqliyyat vasitələri ilə uşaq qruplarının daşınması üçün reysə çıxmasına yol verilmir.".

**29** 11.3.3-cü yarımbənddə "cədvələ" sözü "hərəkət cədvəlinə" sözləri ilə əvəz edilsin.

**30.** 11.3.7-ci yarımbənddən ", habelə bilavasitə sərnişin avtonəqliyyat vasitəsində satışını" sözləri çıxarılsın.

**31** 12.1.1-ci yarımbənddən "bilet kassaları olmadıqda gediş sənədlərinin (biletlərin) və" sözləri çıxarılsın.

**32.** 13.2-ci bənddən "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri çıxarılsın və həmin bənddə "səlahiyyətli qurumu" sözləri "tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri ilə əvəz edilsin.

**33** 13.2.5-ci yarımbənddən "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumların, Azərbaycan Respublikasının digər ərazilərində isə" sözləri çıxarılsın və həmin bənddə "səlahiyyətli qurumunun" sözləri "tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi, Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin" sözləri ilə əvəz edilsin.

**34.** 16.1-ci bənddən "Bakı, Sumqayıt və Gəncə şəhərlərinin inzibati ərazilərində müvafiq qurumlar, Azərbaycan Respublikasının digər ərazilərində" sözləri çıxarılsın və həmin bəndə "Nəqliyyat Nazirliyi" sözlərindən sonra ", Şuşa şəhərinin ərazisində müntəzəm şəhərdaxili sərnişindaşımaya münasibətdə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi" sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 237** **Bakı şəhəri, 1 may 2024-cü il**

***"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 21 fevral tarixli 15 nömrəli Sərəncamının 2.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 fevral tarixli 104 nömrəli Qərarı) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsinin 19-cu bəndinin "Abidənin adı" sütununda "Ordubad Tarix-Mədəniyyət Qoruğu" sözləri "Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu" sözləri ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsinin "Ordubad Tarix-Memarlıq Qoruğu" hissəsinin adı aşağıdakı redaksiyada verilsin:

"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu".

**3.** Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsinin "Ordubad Dövlət Tarix Memarlıq Qoruğu" hissəsinin adı aşağıdakı redaksiyada verilsin:

"Ordubad" Dövlət Tarix-Mədəniyyət Qoruğu".

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 238** **Bakı şəhəri, 2 may 2024-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 447 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 447 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1551 (Cild I) ilə təsdiq edilmiş "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nın 2.5.2-ci yarımbəndinin 21-ci abzasında "istehsalat təcrübəsi" sözləri "ixtisas üzrə təcrübə" sözləri ilə əvəz edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 239** **Bakı şəhəri, 2 may 2024-cü il**

***Naxçıvan Dövlət Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında***

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Naxçıvan Dövlət Universiteti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Naxçıvan Dövlət Universitetinə çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Naxçıvan Dövlət Universitetinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Naxçıvan Dövlət Universitetinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 240** **Bakı şəhəri 2 may 2024-cü il**

***"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"-də dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 mart tarixli 14 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 28 avqust tarixli 359 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1810 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** "15" rəqəmləri "14" rəqəmləri ilə əvəz edilsin.

**2.** "Kollegiyanın üzvləri" bölməsinin onuncu abzasının sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və on birinci abzas ləğv edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Pakistanla qardaşlıq münasibətləri genişlənir

**Baş nazir Məhəmməd Şahbaz Şərif ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadovu qəbul edib.**



Səfir Xəzər Fərhadovu salamlayan Baş nazir Pakistanın Azərbaycana böyük önəm verdiyini və iki ölkə arasında qardaşlıq münasibətlərinin olduğunu vurğulayıb. Baş nazir Ramazan bayramı münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevlə telefon danışığını, həmçinin 2023-cü ilin iyununda Bakıya səfəri zamanı Azərbaycan rəhbərliyi ilə görüşünü xatırladıb və Prezident İlham Əliyevi Pakistana rəsmi səfərə dəvət etdiyini bildirib.

Məhəmməd Şahbaz Şərif 2024-cü ilin noyabrında keçiriləcək COP-29 tədbirinə evsahibliyinə görə Azərbaycanı təbrik edib, ölkələrimiz arasında ticarət, investisiya, enerji, müdafiə, təhsil, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın inkişafı üçün hər iki tərəfin birgə fəaliyyətinin əhəmiyyətini vurğulayıb.

Baş nazir ikitərəfli əməkdaşlığı genişləndirmək məqsədilə yüksək səviyyəli nazirlər heyətini Bakıya göndərmək niyyətində olduğunu bəyan edib. O, həmçinin müxtəlif sahələrdə əməkdaşlıqla bağlı Pakistan-Azərbaycan Hökümətlərarası Birgə Əməkdaşlıq Komissiyasının iclasını tezliklə təşkil etməyə hazır olduqlarını bildirib.

Səfir Baş nazirə ikitərəfli münasibətlərin hazırkı vəziyyəti barədə məlumat verib və bu yaxınlarda Bakı ilə Kəraçi arasında reyslərin açılacağını, həmçinin Bakı ilə İslamabad, eləcə də Bakı və Lahor arasında reyslərin uğurla həyata keçirildiyini vurğulayıb, Azərbaycandan Pakistana rəsmi səfərlərin gözlənildiyini bildirib.

Baş nazir Bakı şəhərinin gözəlliyinə heyran olduğunu, bu nümunəni İslamabadda da təkrarlamaq istədiyini və hər iki şəhərin birgə əməkdaşlıq imkanlarının qurulmasının əhəmiyyətini qeyd edib.

Məhəmməd Şahbaz Şərif sonda bir daha Pakistanın Azərbaycanla qardaşlıq münasibətlərini genişləndirmək istədiyini, həmçinin yüksək səviyyədə səfərlərin əhəmiyyətini vurğulayıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

# MUSLİM İnstitutunun direktoru DQİDK-da



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Ramin Məmmədov mayın 4-də Pakistan İslam Respublikasının MUSLİM İnstitutunun direktoru, Cunaqad Ştatının Baş naziri Sahibzadə Sultan Əhməd Əli ilə görüşüb.**

Dövlət Komitəsindən bildiriblər ki, Ramin Məmmədov Azərbaycanla Pakistan arasındakı səmimi dostluq və qardaşlıq münasibətlərinə toxunaraq ölkələrimizin müxtəlif sahələrdə uğurlu əməkdaşlığının əhəmiyyətini vurğulayıb.

Komitə sədri ulu öndər Heydər Əliyevin dost ölkəyə səfəri ilə başlayan bu səmərəli əlaqələrin Prezident İlham Əliyev tərəfindən inkişaf etdirildiyini, həm iki xalq arasında, həm də dövlətlər səviyyəsində biri-birinə dəstəyin yüksələn xətlə irəlilədiyini diqqətə çatdırıb.

Bütün sahələrdə olduğu kimi, dini sahədə də əlaqələrin mövcudluğundan məmnunluğunu ifadə edən Sahibzadə Sultan Əhməd Əli bundan sonra da münasibətlərin möhkəmləndirilməsində birgə səylərin vacibliyini qeyd edib.

Səmimi keçən görüş müzakirələrlə yekunlaşıb.

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 241** **Bakı şəhəri, 2 may 2024-cü il**

***"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1063-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 25 avqust tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 532 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Məzuniyyət vaxtı üçün orta əmək haqqının hesablanması zamanı nəzərə alınan və alınmayan ödənişlərin geniş siyahısı"nın "Nəzərə alınan ödənişlər:" hissəsinin dördüncü abzasında ", çoxnövbəli rejimli işə" sözləri "yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 15 iyul tarixli 126 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 573 (Cild I) ilə təsdiq edilmiş "Orta əmək haqqı hesablanarkən nəzərə alınan və alınmayan ödənclərin Siyahısı"nın "Nəzərə alınan ödənclər:" hissəsinin dördüncü abzasında ", çoxnövbəli rejimli işə" sözləri "yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə" sözləri ilə əvəz edilsin.

**3.** "Gecə vaxtı yerinə yetirilən iş, habelə çoxnövbəli iş rejiminə görə əmək haqqı həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 74 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 283 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2-ci hissəyə "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri və "bu qərarla müəyyən edilmiş həddə" sözlərindən sonra "(Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən daha yüksək həddin müəyyən edildiyi hallar istisna olmaqla)" sözləri əlavə edilsin;

3.2. 3-cü hissəyə "vaxtı" sözündən sonra "yerinə yetirilən işə" sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 629 (Cild I) ilə təsdiq edilmiş "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası"nın "Qeyd" hissəsində "və çoxnövbəli işə" sözləri "yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə" sözləri ilə əvəz edilsin.

**5.** "Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AzərTAc-ın) işçilərinin əməyinin ödənilməsi şərtlərinin və ştat sayının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 1 fevral tarixli 15 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 2, maddə 130 (Cild I) 5-ci hissəsinin üçüncü abzası aşağıdakı redaksiyada verilsin:

"gecə vaxtı yerinə yetirilən işin hər saatına görə işçiyə onun saatlıq tarif (vəzifə) maaşının 30 faizi, çoxnövbəli iş rejiminin axşam növbəsində işin hər saatına görə işçinin saatlıq tarif (vəzifə) maaşının 30 faizi, gecə növbəsində isə 60 faizi həddində əlavə haqq müəyyən edilsin.".

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 9 yanvar tarixli 2 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 50 (Cild I) ilə təsdiq edilmiş "Büdcədən maliyyələşdirilən səhiyyə işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"ndə aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.3.5-ci yarımbəndə "gecə vaxtı" sözlərindən sonra "yerinə yetirilən işin" sözləri əlavə edilsin;

6.2. 2.2.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.2.6. Gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə görə əlavə

2.2.6.1. Tibb müəssisələrinin işçilərinə gecə vaxtı yerinə yetirilən işə (2.2.6.2-ci abzasda nəzərdə tutulan işçilər istisna olmaqla) və çoxnövbəli iş rejiminə görə əlavə haqq "Gecə vaxtı yerinə yetirilən iş, habelə çoxnövbəli iş rejiminə görə əmək haqqı həddinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 5 aprel tarixli 74 nömrəli Qərarına əsasən ödənilir.

2.2.6.2. Tibb müəssisələrinin bilavasitə cərrahlıq, reanimasiya, mamalıq, ginekologiya və təcili yardım sahələrində (bölmə, şöbə, stansiya, kabinet və s.) gecə vaxtı yerinə yetirilən işin hər saatına görə əlavə haqq aşağıdakı qaydada ödənilir:

a) həkim, orta və kiçik tibb heyəti işçilərinə, eləcə də sanitar avtomobillərinin sürücülərinə (o cümlədən avtonəqliyyat müəssisələrinin və başqa təşkilatların ştatında olan) - saatlıq vəzifə (tarif) maaşının 50 faizi miqdarında;

b) digər işçilərinə - vəzifə (tarif) maaşının 35 faizi miqdarında.".

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

**7.**1. "XXX. Nəqliyyat" bölməsi üzrə:

7.1.1. "Tunellərdə yalnız gecə vaxtı daimi işlər" hissəsinin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin;

7.1.2. "Gecə də daxil olmaqla gündüz vaxtı və növbələrdə işlər" hissəsinin adı aşağıdakı redaksiyada verilsin:

"Gecə vaxtı və çoxnövbəli iş rejimində yerinə yetirilən işlər";

7.1.3. "Metropoliten xətlərinin yerüstü istismarı üzrə gecə vaxtı daimi iş" hissəsinin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin;

7.2. "XXXV. Mənzil-kommunal təsərrüfatı və əhaliyə məişət xidməti" bölməsinin "Şəhər elektrik nəqliyyatının istismar müəssisələri" hissəsinin 41-ci bəndinə "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli Qərarı) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununun "XXVI. NƏQLİYYAT" bölməsinin "Metropoliten tunellərində və digər yeraltı tunellərdə yalnız gecə vaxtı daimi işlər" hissəsinin adına "vaxtı" sözündən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

**9.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 24 iyun tarixli 121 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 557 (Cild I) ilə təsdiq edilmiş "Qəza-xilasetmə və digər təxirəsalınmaz işlərin yerinə yetirilməsi və təmin edilməsi üçün səfərbər olunmuş şəxslərə əməyə görə ödəniş verilməsi Qaydaları"nın 2-ci hissəsində ", gecə vaxtı və çoxnövbəli iş rejimində görülən işə" sözləri "görülən işə, gecə vaxtı yerinə yetirilən işə və çoxnövbəli iş rejiminə" sözləri ilə əvəz edilsin.

**10.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 8 fevral tarixli 77 nömrəli və 9 fevral tarixli 81 nömrəli qərarları) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın 21.5.1-ci və 21.5.2-ci yarımbəndlərinin birinci abzasları aşağıdakı redaksiyada verilsin:

"21.5.1. tunellərdə və yeraltı qurğularda yalnız gecə vaxtı yerinə yetirilən daimi işlərdə çalışan fəhlələr:

21.5.2. tunellərdə və yeraltı qurğularda yalnız gecə vaxtı yerinə yetirilən daimi işlərdə çalışan rəhbərlər, mütəxəssislər, texniki icraçılar:".

**11.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 16 avqust tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1011 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcədən maliyyələşdirilən meliorasiya və su təsərrüfatı işçilərinin əməyinin ödənilməsi sistemi, növləri və məbləği"nin 2.2-ci bəndinə "gecə vaxtı" sözlərindən sonra "yerinə yetirilən" sözləri əlavə edilsin.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 242** **Bakı şəhəri 2 may 2024-cü il**

***"Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı"nın təsdiq edilməsi haqqında***

"Elektroenergetika haqqında" Azərbaycan Respublikasının 2023-cü il 11 aprel tarixli 858-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 may tarixli 2143 nömrəli Fərmanının 2.2.4-cü yarımbəndinin 3-cü abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Elektrik gücü çatmadıqda, sistemin dayanıqlılığını təmin etmək üçün elektrik enerjisinin təminatına məhdudiyyətlər tətbiq edilməyən istehlakçıların siyahısı" təsdiq edilsin (əlavə olunur).

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının**
**Baş naziri**

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Orta Dəhliz: regional layihənin qlobal hüdudları

(əvvəli 1-ci səhifədə)

Yeri gəlmişkən, Azərbaycanda ölkəmizlə bağlı olan bütün nəqliyyat marşrutlarının, o cümlədən Orta Dəhlizin inkişafına xüsusi diqqət yetirilib. Bununla əlaqədar bir sıra mühüm layihələr və proqramlar reallaşdırılıb. Belə ki, dövlət başçısının rəhbərliyi ilə "Azərbaycanda avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair 2006–2015-ci illər üzrə Dövlət Proqramı", "Azərbaycan Respublikasında nəqliyyat sisteminin inkişafına dair (2006–2015-ci illər) Dövlət Proqramı", "Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008-2013-cü illər üçün əlavə Tədbirlər Planı", "Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsi və inkişafına dair Dövlət Proqramı (2006–2015-ci illər)", "Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010–2014-cü illərdə inkişafına dair Dövlət Proqramı" və s. müxtəlif istiqamətləri əhatə edən çoxsaylı proqramlar uğurla həyata keçirilib.




Azərbaycanın nəqliyyat dəhlizlərində rolunun artırılması baxımında ötən il noyabrın 23-də Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün" Fəaliyyət Planının əhəmiyyətini də vurğulamaq lazımdır.

Məhz yuxarıda sadalananların nəticəsidir ki, 2023-cü ildə respublikamızın nəqliyyat vasitələri ilə ölkə ərazisindən tranzit daşımalarının həcmi 3,8 dəfə artaraq 36 min 387 ədəd təşkil edib. 2021-ci ildə bu nəqliyyat vasitələri ilə ölkə ərazisindən cəmi 9 min 551 ədəd tranzit daşımalar həyata keçirilmişdisə, 2022-ci ildə bu rəqəm 23 min 366-a çatıb.

Qeyd edək ki, son 3 ildə Azərbaycan ərazisindən istifadə etməklə avtomobil nəqliyyatı ilə tranzit yük daşımalarını həyata keçirən xarici ölkə, eləcə də Azərbaycan yük avtonəqliyyat vasitələrinin sayında ciddi artım müşahidə edilib. Belə ki, xarici ölkə nəqliyyat vasitələri ilə respublikamızın ərazisindən 2021-ci ildə 85 min 293 ədəd tranzit daşıma reallaşdırılmışdısa, 2022-ci ildə 176 min 789, 2023-cü ildə isə 229 min 756 ədəd tranzit daşıma həyata keçirilib. Beləliklə, son üç ildə avtomobil nəqliyyatı ilə Azərbaycandan üzərindən həyata keçirilən tranzit yük daşımalarının cəmi sayı 2021-ci ildə 94 min 844, 2022-ci ildə 200 min 155, 2023-cü ildə isə 26 min 6143 olub. Ümumilikdə, avtomobil nəqliyyatı ilə tranzit yük daşımaları son 3 ildə 2,8 dəfə çoxalıb.

Əlbəttə, bütün bunlar deməyə əsas verir ki, son illərdə Azərbaycan Orta Dəhlizin ən yüksək səviyyədə reallaşdırılması üçün öz üzərinə düşən işləri tam yerinə yetirib. Bakı–Tbilisi–Qars dəmiryolu xəttinin istifadəyə verilməsi və Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücünün artırılması, eləcə də respublikada nəqliyyat və logistika infrastrukturunun yaxşılaşdırılması ilə bağlı genişmiqyaslı layihələr həyata keçirib.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi

**Emin BAĞIROV,**
**iqtisadi şərhçi**



Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu məsələdə Orta Dəhlizin inkişaf potensialı daha çox diqqət çəkir. Bununla əlaqədar mühüm bir məqama toxunmaq istərdim. Beynəlxalq Valyuta Fondu sözügedən marşrutun səmərəliliyini yüksətmək üçün bir sıra layihələrin reallaşdırılmasına zəruri ehtiyac görür. Məsələn, adıçəkilən beynəlxalq maliyyə qurumu infrastrukturda gecikmələri azaltmaq məqsədilə sərhəd-keçid prosedurlarının optimallaşdırılması, nəqliyyat sənədlərinin rəqəmsallaşdırılması və bu dəhlizin əhatə etdiyi ölkələr üzrə tənzimləmə, icazə və tariflərin uyğunlaşdırılması üçün avtomatlaşdırmanı qarşıya təxirəsalınmaz vəzifə kimi qoyur. Eyni zamanda Azərbaycanın bu istiqamətdə gerçəkləşdirdiyi layihələri də yüksək qiymətləndirir.

Ölkəmizin Orta Dəhlizin inkişafı istiqamətində reallaşdırdığı tədbirlərdən danışarkən isə, ilk növbədə, 2022-ci ildə Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkiyənin sözügedən marşrutun potensialının tam hərəkətə gətirilməsi məqsədilə imzalanan və 2022–2027-ci illəri əhatə edən Yol Xəritəsinin önəmi qeyd edilməlidir.

Azərbaycan Orta Dəhlizin inkişafı istiqamətində hazırda dəniz, dəmir, avtomobil yolları, hava nəqliyyatı ilə bağlı genişmiqyaslı layihələr həyata keçirir. Bu isə həmin Yol Xəritəsinə, eləcə də özünün müəyyənləşdirdiyi uzunmüddətli strategiyaya sadiqliyinin ifadəsi olaraq respublikamızın nəqliyyat və logistika dəhlizinə çevrilməsi yolunda atdığı inamlı addımların təsdiqidir.

Xatırladaq ki, əvvəllər Çindən Orta Dəhliz vasitəsilə yüklərin Qara dəniz limanlarına çatdırılması təxminən 53 gün çəkirdisə, hazırda bu müddət 18 gün təşkil edir. Bakının Abşeron stansiyasına konteyner qatarının gəlişi mərasimini izləyən dövlətimizin başçısı bununla bağlı deyib: "Bu gün Qazaxıstan və Azərbaycan bütün istiqamətlər, o cümlədən tranzit nəqliyyat sahəsində – konnektivliklə bağlı sahədə qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərirlər. Bizim ikitərəfli əməkdaşlığımız həm TransXəzər nəqliyyat marşrutu, həm də Orta Dəhliz layihələrinin həyata keçirilməsi çərçivəsində çoxtərəfli əməkdaşlığımızın bir hissəsidir. Bu gün müzakirə edilən planlar ölkələrimizin dəmir yollarının boş qalmaması, belə konteyner qatarlarının isə gündəlik həyatımızın bir parçası olmasına imkan verir".

Prezident İlham Əliyev daha sonra ölkələrimiz arasında müxtəlif istiqamətlərdə yükdaşınmanın əməkdaşlığımızın inkişafı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb və Qazaxıstanla Azərbaycanın gələcəkdə beynəlxalq nəqliyyat daşımalarında daha böyük rol oynayacaqlarını əminliklə diqqətə çatdırıb.

Qeyd edək ki, Asiya ilə Avropanı birləşdirən Orta Dəhliz ideyası dünyada baş verən gərgin geosiyasi proseslər fonunda irəli sürülüb. 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə bu layihə həyata vəsiqə alıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda Çin–Qazaxıstan sərhədindən başlayan marşrut Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Orta Dəhliz təkcə Azərbaycanın deyil, regiondakı digər dövlətlərin də iqtisadi maraqlarını əks etdirən irihəcmli beynəlxalq nəqliyyat layihəsidir. Onun iqtisadi baxımdan səmərəli olması ilə yanaşı, siyasi əhəmiyyəti də az deyil. İndi dünyanın ən iddialı iqtisadi proqramı hesab olunan, Çin və Avropanı inkişaf etmiş yollar, yüksək sürətli dəmir yolu xətləri, elektrik xətləri, limanlar, boru kəmərləri və digər mühüm infrastruktur vasitələri ilə birləşdirməyi hədəfləyən bu layihə 65 ölkəni və dünya üzrə ümumi daxili məhsulun 40 faizini əhatə edir. Dünya Bankının məlumatına görə, hazırda dəhliz boyunca yerləşən 70 ölkədə (Çin istisna olmaqla) "Bir kəmər–bir yol" təşəbbüsü çərçivəsində investisiyalar 575 milyard ABŞ dolları təşkil edir.

# Özəl bölməyə 470 milyon manat zəmanətli kredit

**İpoteka və Kredit Zəmanət Fondu tərəfindən sahibkarlıq kreditlərinə zəmanət və faiz subsidiyalarının verilməsi mexanizmi çərçivəsində çoxsaylı sahibkarların maliyyə mənbələrinə çıxış imkanları təmin edilib. Bu barədə İpoteka və Kredit Zəmanət Fondunun kredit zəmanət departamentinin direktoru Elşən Kərimov məlumat verib.**



O deyib ki, bu il mayın 1-nə İpoteka və Kredit Zəmanət Fondu tərəfindən sahibkarlara ayrılan zəmanətli kreditlərin həcmi 470 milyon manata çatıb. "Fond üzərinə 50 milyon manatdan çox subsidiya öhdəliyi götürüb. Bu öhdəliklərin artıq 40 milyon manatı sahibkarlarların müvəkkil banklardan götürdükləri kredit faizlərinin ödənilməsinə yönəldilib", – deyə E. Kərimov əlavə edib.

Fond rəsmisinin sözlərinə görə, zəmanət verilmiş kreditlərin maliyyələşdirildiyi layihələrdə əvvəllər 33,5 min nəfərdən artıq insan çalışsa da, sonradan əlavə olaraq daha 5,9 mindən çox yeni iş yeri açılıb.

***XQ***

# Enerji şəbəkələrinə asan qoşulma

**Son zamanlar istehlakçıların elektrik və qazpaylayıcı şəbəkələrə qoşulması ilə bağlı müəyyən çətinliklər, qeyri-müəyyənliklər müşahidə olunurdu. Xüsusən də yerlərdə podratçıların sifarişçilərə münasibətində fərqli yanaşmalara, qiymət diktəsinə və sui-istifadə hallarına yol verilir, bu sahədə qeyri-şəffaflıq hökm sürürdü. Əksər hallarda isə əhali istehlakçıları bu sahədə qiymətlərin yüksək olmasından narazılıqlarını bildirirdilər. Bu səbəbdən də istər elektrik, istərsə də qazpaylayıcı şəbəkələrə qoşulma ilə bağlı neqativ təsirlərin aradan qaldırılması üçün yeni mexanizmin tətbiqinə ehtiyac var idi.**



Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası Katibliyininin verdiyi məlumata görə, ölkədə istehlakçıların elektrik və qazpaylayıcı şəbəkələrə qoşulması üçün daha keyfiyyətli xidmətlərdən istifadəsinə, vaxt və xərclərin optimallaşdırılmasına istiqamətlənmiş tədbirlər həyata keçirilir. Bununla belə, şəbəkələrə qoşulma ilə bağlı xərclərin qarşılanmasında vahid yanaşmanın, istehlakçı xərclərinin əvvəlcədən proqnozlaşdırılmasının zəruriliyi və digər səbəblər bu sahədə yeni tənzimləməni zəruri edirdi. Bununla əlaqədar olaraq, Tarif Şurasının 2024-cü il mayın 3-də keçirilmiş iclasında elektrik və qazpaylayıcı şəbəkəyə qoşulma xidmətləri üzrə ödənişlərin məbləğləri müəyyənləşdirilib. Bu qərar Energetika və İqtisadiyyat nazirliklərinin, Dövlət Neft Şirkəti və "Azərişıq" ASC-nin təklifləri əsasında qəbul edilib.

Tarif Şurasının qərarına əsasən, Azərbaycanda elektrik şəbəkəsinə qoşulma üzrə ödəniş məbləğləri 1 fazlı təchizat üzrə 10 kilovatadək 40 manat, 1 fazlı təchizat üzrə 10 kilovatdan yuxarı 60 manat, 3 fazlı təchizat və aşağı gərginlik üzrə 293 manat, orta gərginlik üzrə 170 manat olacaq. Qərarda qeyd olunur ki, 3 faizlı və yuxarı güc qoşulmalarında şəbəkənin gücləndirilməsi ilə əlaqədar əlavə tələblər aradan qaldırıldığı üçün sahibkarlıq subyektləri yalnız tarifə uyğun ödənişlər edəcək. Bu da şəbəkənin gücləndirilməsi ilə bağlı sahibkarların xərclərini aradan qaldırmaqla ümumi xərclərinin azalmasına səbəb olacaq.

Qazpaylayıcı şəbəkəyə qoşulma üzrə ödəniş məbləğləri isə ərazi planlaşdırılması sənədləri təsdiq edilmiş ərazilərdə layihə-smeta sənədlərinin hazırlanması da daxil olmaqla məişət qaz qurğularının (ümumi qaz sərfiyyatı 10 kubmetr-saat olan) düz xətt üzrə 100 metr məsafədə yerləşən şəbəkəyə texnoloji və fiziki qoşulma xidməti üzrə birlikdə 271 manat, ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə tikinti obyektlərinin şəbəkəyə fiziki qoşulma xidməti üzrə isə 160 manat təşkil edəcək.

Tarif Şurasının məlumatına görə, yeni tənzimləmələrə qədər qazpaylayıcı şəbəkəyə qoşulma işləri istehlakçılarla podratçılar arasında razılaşmaya uyğun qiymətlə həyata keçirilirdi. Yeni tənzimləmədən əvvəl istehlakçılara şəbəkəyə qoşulmaq üçün müxtəlif podratçılar tərəfindən fərqli qiymətlər təklif olunurdusa, artıq tənzimləmədən sonra vahid və optimal qiymətlər müəyyənləşib. Yeri gəlmişkən, hazırda ölkə üzrə illik qoşulmaların 99 faizi məişət qaz qurğuları təşkil edir ki, bunun da 96 faizi əhali abonentlərinə aiddir. Beləliklə, mütləq çoxluqda istehlakçıların qazpaylayıcı şəbəkəyə qoşulması prosesi optimallaşdırılıb və bu sahədə xərclərin azalmasına imkan yaranıb. Lakin ərazi planlaşdırılması sənədləri təsdiq edilməyən ərazilərdə və sənaye qaz qurğularının qazpaylayıcı şəbəkəyə qoşulması ilə bağlı tikinti obyektləri tənzimlənmiş tariflərlə yalnız fiziki qoşulmaya görə ödəniş edəcəklər.

Bütövlükdə isə, elektrik və təbii qaza qoşulmaqla bağlı həyata keçirilən yeni tənzimləmələr bu sahədə şəffaflığı artıracaq, istehlakçıların keyfiyyətli xidmətlərdən faydalanmaqla vaxt və xərclərinin optimallaşdırılmasına imkan yaradacaq, enerji təchizatı müəssisələrinin dayanıqlı və keyfiyyətli xidmət göstərməsinə töhfə verəcək.

Qeyd edək ki, yeni qərar iyunun 3-də qüvvəyə minəcək.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi

**Eldəniz ƏMİROV,**
**iqtisadçı ekspert**



Məlum olduğu kimi, ölkəmizdə Tarif Şurasının qərarı ilə elektrik və qazpaylayıcı şəbəkələrə qoşulma xidmətləri üzrə qiymətlər müəyyənləşdirilib. Hər şeydən əvvəl qeyd etmək istəyirəm ki, elektrik və qazpaylayıcı şəbəkələrə qoşulma qiymətlərinin müəyyənləşdirilməsi aşağı təbəqədən olan daha həssas qrupların xərclərinin azalmasına xidmət edəcək. Bu səbəbdən də qazpaylayıcı və elektrik şəbəkələrinə qoşulma ilə bağlı ödənişlərin məbləğində edilən mövcud dəyişikliyi təqdirəlayiq hesab edirəm. Yeni mexanizm proseslərin diferensial formada, individual olaraq tənzimlənməsinə imkan verir. Əvvəlki məqamlarda bir çox istiqamətlər üzrə podratçı təşkilatlarla istehlakçılar arasında tam fərqli yanaşmalar müşahidə edilirdi və müəyyən hallarda podratçılar daha yuxarı qiymətləri tələb şəklində qoyurdular. Hazırkı vəziyyətdə isə bir növ tənzimləmə həyata keçirmək mümkün olacaq.

Bu qərarla ərazi planlaşdırmasına dair sənədləri təsdiq edilmiş ərazilərə görə 271 manat, sənədsiz ərazilərə görə 160 manat məbləğ müəyyən edilib. Yeni qərar qazpaylayıcı şəbəkəyə qoşulma üzrə ödəniş məbləğləri podratçıların qiymət diktə etməsi məsələsinin qarşısını alacaq. Eyni zamanda elektrik şəbəkəsinə qoşulma üzrə ödəniş məbləğlərinin təyin olunması da mühüm qərardır. Çünki əksər evlərdə 1 fazlı təchizat üzrə 10 kilovat elektrik enerjisi istifadə olunur və bunun üçün artıq 40 manat ödəniş müəyyən edilib. Təsadüfi hallar olur ki, 1 fazlı təchizat üzrə 10 kilovatdan yuxarı istifadə olunur və bunun üçün təyin edilən 60 manat məbləğ də çox deyil. Statistika da göstərir ki, əhali isteklakçılarında 1 fazlı təchizat sxemi üzrə 5 kilovatadək qoşulmalar 97,4 faiz təşkil edir. Bu da böyük əksəriyyətin məhz 40 manatlıq göstəriciyə düşdüyünü sübut edir. Bütün bunlar sifarişçi qismində iştirak edən istehlakçıları podratçı təşkilatlar tərəfindən qiymət basqısından azad edir.

Burada müəyyən istiqamətdə müşahidə olunan artımlar daha yuxarı səviyyədə olan 3 faizlı təchizat və aşağı gərginlik üzrə olan qoşulmalar üzrədir. Qeyd etməliyəm ki, Tarif Şurasının qərarı podratçılarla sifarişçilər arasında münasibətlərə protokol yanaşmasını ortaya qoyur. Qəbul edilmiş bu qaydaların yerlərdə tətbiqinə ciddi nəzarət və monitorinq mexanizmi formalaşdırılmalıdır. Düşünürəm ki, hələ uzun müddət yerlərdə bu proseslərin icrasına nəzarət edilməsinə ehtiyac var. Çünki sahibkar və digər kateqoriyadan olan insanlar bilsə də, ayrı-ayrı vətəndaşlar böyük ehtimal ki, Tarif Şurasının bu yeniliyindən xəbərdar olmayacaqlar. Buna görə də mütləq həm qazpaylayıcı, həm də elektrik paylayıcı şəbəkə üzrə nəzarət mexanizmini uzun müddət işlək formada saxlamaq lazımdır ki, sui-istifadə halları olmasın və bu sənəd tamlığı ilə icra edilsin.

# Azərbaycanda alimlik və elmi təcrübənin “fəlsəfi formulu”

## II məqalə

**Əlbəttə, alimlərin qarşısında duran vəzifələr çoxdur...Mənim əsas istəyim ondan ibarətdir ki, ilk növbədə Azərbaycan elmi inkişaf etsin, digər tərəfdən ölkəmizin ümumi inkişafına öz töhfəsini versin. Yəni, elmi araşdırmalar sadəcə olaraq araşdırmalar üçün deyil, ölkə iqtisadiyyatının, təhlükəsizlik potensialının güclənməsinə yönəlməlidir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***



Əvvəlki məqalədə qeyd etmişdik ki, Azərbaycanda müasir mərhələdə alimlik və elmi təcrübənin fəlsəfi araşdırılması zəruridir. Bu fəlsəfi-elmi problemə alimlikdə ünsiyyət və bilik paylaşımı təcrübəsi kontekstində yanaşmaq aspektini önə çəkmişik. Çünki məsələ çoxaspektlidir və mürəkkəb məzmuna malikdir. Biz yalnız müasir mərhələdə alimlik və elmi təcrübənin kommunikativ tərəfinə nəzər salacağıq. Öncə, bir məqama aydınlıq gətirək.

“Müasir mərhələ” dedikdə, XX əsrin ikinci yarısından bu yana olan dövrü nəzərdə tuturuq. Əlbəttə, problemin uzun dövr üçün götürülməməsi nəticəsində yanaşma qüsurlu ola bilər. Ancaq qəzet materialının imkan verdiyi sərhəd də vardır. Bundan başqa, şübhə yoxdur ki, alimlik və elmi təcrübənin fəlsəfi təhlili Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müəyyən edilmiş strateji inkişaf kursu və yeni tarixi mərhələdə milli ideyanın başlıca tezislərinin müəyyən edilməsi kontekstində əhəmiyyəti daha vacibdir. Xüsusilə ona görə ki, Azərbaycan Prezidenti və lideri cəmiyyəti, onun ziyalı kəsimini milli ideya kimi, strateji xarakterli məsələni müzakirə etməyə səsləmişdir. Dövlət başçısının bu dəvətinin mənasını adekvat anlamaq üçün alimlər də öz növbəsində “Biz kimik?”, “Alimin müasir cəmiyyətdə yeri və rolunu adekvat necə müəyyən etmək olar?”, “Alimliyin şəxsi məntiqi və psixoloji parametləri ilə onun sosial funksionallığı və məsuliyyəti arasına nisbət necə olmalıdır?” və s. kimi suallara cavab axtarılmalıdır. Bu aktual özəlliklər istər-istəməz “alim identikliyi” anlayışının Azərbaycan nümunəsində fəlsəfi anlamını aktuallaşdırır.

### Alim identikliyi: dünyada

Bu, özlüyündə çoxparametrli və mürəkkəb fenomendir. Xüsusilə, müasir tarixi mərhələdə hər bir anlayışın məzmununun dinamik dəyişdiyi bir dönəmdə, ümumiyyətlə, identikliyi, o cümlədən, az araşdırılan “alim identikliyi”ni fəlsəfi “ölçmək” asan iş deyildir. Bizim üçün məsələnin iki miqyası vardır. Birinci, dünya üçün alimlik identikliyi mövzusu. İkincisi, müasir şərtlər daxilində Azərbaycanda alimliyin identikliyi məsələsi.

Dünya miqyasında alimliyin identikliyi araşdırılır. Qərbdə bununla bağlı yeni anlayışlar da meydana gəlmişdir. Onların sırasında “incimiş intellektlər”, “prekarlar”, “frilanslar”, “nomadalar”, “rəqəmsal köçərilər” və digər terminlər işlədilir. “İncimiş intellektlər” termini Qərbdə informasiya mənbələrinə əlçatanlıqları məhdud olan alimləri əhatə edir. Digər terminlərin hər biri indiki cəmiyyətlərdə yaradıcı insanların mövcud sistemdənkənar elmi fəaliyyətdə olmasının müxtəlif aspektlərini ifadə edirlər. Onların hamısını “prekariat” termini altında birləşdirmək olar. Bu terminin fəlsəfi və sosial-kulturoloji mənası yaradıcı insanla mövcud elmi institutlaşma arasında meydana gəlmiş münasibətlərin ziddiyyətli olması ilə bağlıdır. İngiliscə “precarious”dur və mənası “etibarsız”, “inamsız” deməkdir. Bu termini keçən əsrin 80-ci illərində fransız sosioloqlar irəli sürmüşlər. Termin mövsümi işçilərə aid edilirdi və daimi iş yeri olmayan kateqoriyanı nəzərdə tuturdu. Sonra britaniyalı sosioloq Q.Stendinq yaradıcı insanları (rəssamları, jurnalistləri, dizaynerləri) də həmin kateqoriyaya aid etdi və təhlükəli bir sinfin yarandığı haqqında fikir irəli sürdü. Hesab edirdi ki, sistemə bağlı olmayan və azad fəaliyyət göstərən yaradıcı adam cəmiyyət üçün təhlükə törədə bilər.

Sonralar filosoflar bu anlayışı, bütövlükdə, alimlərə aid etdilər. Filosof İ.T. Kasavin prekarları müasir cəmiyyətdə alimlərin bir qrupu kimi təqdim edir. S.V. Şibarşina isə “prekarlar köçəri alimlərdir” fikrini yazır. “Prekarlar” termini çətiri altında “frilanserlər” (bu söz ilk olaraq “azad rəssamlar”ı ifadə edirdi) və “rəqəmsal köçərilər” (“dijital nomad”) terminləri də işlənməyə başlamışdır. Frilanser azad, daimi iş yeri olmayan, konkret proqramlar üzrə muzdla çalışan alimdir. “Rəqəmsal köçəri” isə mobil həyat tərzi keçirən, müasir rəqəmsal texnologiyalardan geniş istifadə edərək dünya miqyasında yer dəyişən araşdırmaçıdır. “Nomad” termini də həmin anlamda, ümumiyyətlə, “alim-köçəri”ni ifadə edir.

Məsələnin fəlsəfi-elmi təhlilinin dərinliklərinə baş vurmayaq. Aydındır ki, nümunə kimi gətirilən terminlər, bütövlükdə, alimliyin identikliyini daha da mürəkkəbləşdirmişdir. “Kim alimdir?” sualına cavab vermək elə də asan məsələ deyil. Sosial kontekstdə isə “Alim cəmiyyətə xidmət etməlidirmi?” sualını meydana gətirir. Azad frilanser “Hansı səbəbə görə vətəndaşı olduğu dövlətə xidmət etməlidir?” sualını da həmçinin. Etiraf etmək lazımdır ki, qloballaşmanın təsiri ilə alimliyin yeni identikliyi (məsələn, trans-identiklik) formalaşa bilər. Burada hələ M.Veberin vurğuladığı elmi fəaliyyətin institusional təşkili ilə yaradıcı insanın daxili “canatması” arasında köklü ziddiyyəti də inkar etmək olmaz. Ancaq K.Bernar XIX əsrdə yazırdı ki, “incəsənət məndir, elm bizik”. Bundan başqa, müasir tarixi mərhələdə elm başlıca olaraq institusional təşkilati formada kollektiv yaradıcılığın məhsulu kimi aparıcı rol oynayır.

Nəhayət, hər bir cəmiyyətin keçdiyi elmi yolu və qazandığı elmi təcrübəni mütləq nəzərə almaq gərəkdir. Bu, olmasa, kənar cəmiyyətlərdə özünü göstərən alimlik formalarının kor-koranə ölkəyə tətbiqi faciəvi nəticələr verə bilər. Bu baxımdan Azərbaycan alimliyinin identikliyi və elmi fəaliyyət təcrübəsinin öz məzmunu vardır. Buna görə də əgər “elm bizik” formulunu qəbul etsək, Azərbaycanda alimliyin və elmi təcrübənin öz dinamikası və xarakteristikası olduğuna inanarıq. Bu prizmada müasir mərhələdə Azərbaycan aliminin identikiliyinin mühüm bir cəhəti üzərində dayanmaq istərdik.

### ... və Azərbaycanda

İndiki mərhələdə Azərbaycanda alimlik identikliyini milli ideya ilə bağlılıqda nəzərdən keçirməyin faydası vardır. Azərbaycan Prezidentinin milli ideya ilə əlaqəli yuxarıda vurğuladığımız dəvəti həmin kontekstdə tam şəkildə istiqamətverici məqamdır. AMEA-nın 70 illiyinə həsr edilmiş yubiley tədbirində Prezident İlham Əliyev demişdi: “Mən çox istəyirəm ki, Azərbaycan alimləri gələcəkdə də ölkəmizin hərtərəfli inkişafında daha fəal rol oynasınlar. Çünki ölkəmizin gələcəyi elmi potensialın səviyyəsi ilə bilavasitə bağlıdır. Hər bir ölkədə, o cümlədən Azərbaycanda inkişaf elmin səviyyəsi ilə bağlıdır. Bu gün yeni texnologiyalar əsridir. O ölkələr ki, bu texnologiyaların sahibidir, əlbəttə, onlar dünya miqyasında öz maraqlarını daha böyük dərəcədə müdafiə edə bilirlər”.

Prezdentin bu fikirləri yeni tarixi mərhələdə Azərbaycan aliminin identikliyinin sosial-mədəni aspektinin əsas faktorlarını müəyyən edir. Azərbaycan alimi şəxsi fəaliyyəti və fərdi yaradıcılıq maraqlarını arxa plana atmadan ölkə və cəmiyyət üçün aktual olan məsələlərin öyrənilməsində və həll edilməsində fəal mövqe tutmalıdır. Bunun üçün kifayət qədər institusional baza da mövcuddur. AMEA bu baxımdan da yeni mərhələ üçün strateji vacib təşkilat kimi diqqət çəkir. Bunun konkret tarixi və sosial-mədəni səbəbləri mövcuddur.

### AMEA və alim identikliyi

AMEA-nın 70 illik yubileyində Prezident İlham Əliyev belə fikir ifadə etmişdir: “Bu 70 ildə akademiya böyük və uğurlu yol keçmişdir. Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin intellektual potensialının möhkəmlənməsinə çox dəyərli töhfələr vermişdir. Kadr hazırlığı işinə də dəyərli töhfələr vermişdir. Bu gün də Azərbaycan Milli Elmlər Akademiyası ölkəmizin ümumi inkişafında fəal rol oynayır, alimlər öz elmi araşdırmalarını apararaq, ölkəmizin gələcək inkişaf dinamikasını sürətləndirirlər”.

Əlbəttə, bu cür yüksək qiymət ulu öndər Heydər Əlliyevin AMEA-ya verdiyi dəyərdən qaynaqlanır. Çünki Heydər Əliyev Azərbaycanda alimlik və elmi təcrübənin cəmiyyətdəki yeri və rolunu dərindən müəyyən etməklə AMEA haqqında fikir söyləmişdir. Bu prizmada Azərbaycanda elmin və alimliyin müasir mərhələdə keçdiyi yola baxanda görürük ki, universitetlərlə və institutlarla yanaşı, AMEA-nın alimlik identikliyi və elmi təcrübə ənənəsinin formalaşmasında rolu ayrıcadır. Bunu heç kəs inkar edə bilməz.

Məsələn, sovet dönəmində hətta ali məktəblərdən AMEA-ya işə gələnlər ilk olaraq alimlik üçün daha əlverişli şəraitin və mühitin mövcudluğu ilə seçimlərini izah edirdilər. Sovet dövründən başlayaraq AMEA-da Azərbaycan aliminin konkret obrazı formalaşmışdır. Alimlik də buna uyğun qiymətləndirilmişdir. Onu vurğulayaq ki, həmin obrazın mərkəzində Azərbaycan cəmiyyətində ənənəvi olaraq formalaşmış, ümumiyyətlə, ziyalı obrazı dayanır. Azərbaycan ziyalısı elmi qabiliyyəti ilə mənəvi-əxlaqi dəyərlərini, mədəni özəlliklərini və maarifçilik xüsusiyyətlərini özündə ehtiva etməlidir.

İndiki BDU-nin 1982-ci il məzunu kimi, şəxsi təcrübəmi xatırlaya bilərəm.: O dövrdə biz AMEA-ya təyinatı prirotet sayırdıq! Tək-tək məzuna bu, qismət olurdu! Şəxsən mən ala bilmədim, lakin Kəlbəcər kimi gözəl bir guşədə müəllimlik etmək hüququ qazandım!

Bu təsəvvvür xüsusi tarixi və mədəni dinamikadan qaynaqlanır. Məsələ ondan ibarətdir ki, həm cəmiyyətin və dövlətin sakit, sabit fəaliyyət dönəmində, həm də həssas məqamlarda ön plana Azərbaycan ziyalılığı çıxmışdır. Ziyalılıq həm də ağsaqqallığın və müdirkliyin sinonimi kimi cəmiyyətə birləşdirici, münaqişələri yoluna qoyan və inkişafa yönəldən faktor olaraq özünü göstərmişdir. Azərbaycan ziyalısı bu anlamlarda həm də cəmiyyət üçün ağsaqqal kimi qəbul olunmuşdur.

Buna görədir ki, AMEA-nın rəhbərliyi daim dövlətin yuxarı məqamlarında belə yüksək mövqe tutmuşdur. Onların fikirləri çox önəmli sayılmışdır. İndiki mərhələ də əvvəlkilərdən bu aspektdə heç nə ilə fərqlənmir. Müasir mərhələdə də AMEA rəhbərliyi dövlət rəhbərliyi üçün çox önəmli statusa malikdir və bu da çox yaxşı haldır. Eyni zamanda, məsələnin AMEA-nın fəaliyyəti ilə bağlı mühüm bir cəhəti vardır.

AMEA indi dövlətin, ökənin və cəmiyyətin ən aktual məsələlərini ciddi nəzərə alaraq, Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası çərçivəsində fəaliyyət göstərmək nümunəsini yaratmaqdadır. Bu təşkilat həmin aspektdə indiki mərhələdə alimlik identikliyinin və elmi təcrübənin ötürülməsinin nümunəsini formalaşdırır. “Azərbaycan alimi necə olmalıdır?” sualının fəlsəfi və elmi cavablarını ortaya qoyur. Bu sırada hansı identiklik faktorlarını vurğulaya bilərik?

a) Dövlətə bağlılıq

Bu identiklik faktoru AMEA-da ön sıradadır. Təşkilatın rəhbərliyi həmin istiqamətdə fəaliyyətini dövlət başçısının qarşıya qoyduğu vəzifələr kontekstində ardıcıl həyata keçirməkdədir. Azərbaycan alimi dövlətə bağlı olmalıdır! Müasir dövrün ən aktual və vacib tələbi bununla əlaqəlidir. Deməli, yuxarıda vurğuladığımız və alimliyin yeni formaları ilə bağlı bir sıra məqamlar arxa plandadır. Azərbaycan üçün alimliyin və elmi tədqiqatın instutisional formasının inkişafı aparıcıdır. Başqa təcrübə də yoxdur.

Bu ölkədə sırf alimliyin və elmi təcrübənin əsas hissəsinin ötürülməsinin forması, məzmunu və mexanizmləri birbaşa AMEA ilə bağlıdır. Yenə təkrar etmək istərdik: ölkənin ali təhsil ocaqlarında ömrünü təhsilə və elmə həsr etmiş çox sayda alim və müəllimlərimiz qarşısında baş əyirəm. Onların zəhməti, mənəvi-əxlaqi və mədəni fəaliyyətləri çox önəmlidir!

Lakin etiraf etmək gərəkdir ki, institusional təşkilati aspektdə AMEA alimlik və elmi təcrübə istiqamətlərində aparıcıdır. Azərbaycan alimliyinin identikliyi və təcrübənin ötürülməsi mexanizminin formalaşması, konkret məzmun alması bir çox aspektlərdə AMEA ilə bağlıdır. O cümlədən, müasir alimliyin identikliyində dövlətə bağlılığın sistematik, ardıcıl, proqramlar çərçivəsində təmin edilməsində və kollektiv yaradıcılıq nümunələrində AMEA aparıcı rol oynamaqdadır.

Vurğuladığımız identiklik baxımından daha bir faktorun – alimin kollektiv komandanın üzvü kimi identikliyinin əhəmiyyəti xüsusən böyükdür.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***

# Azərbaycan – Özbəkistan İnvestisiya əməkdaşlığı

**Daşkənddə Üçüncü Beynəlxalq İnvestisiya Forumu keçirilib.**



Tədbirdə dünyanın 93 ölkəsindən gələn dövlət və hökumət başçıları, nazirlər, investorlar və ekspertlər, ümumiyyətlə 2500 nümayəndə iştirak edib.

Onların arasında Birləşmiş Millətlər Təşkilatı Baş katibinin müavini Tatyana Molçan, Türkiyənin vitse-prezidenti Cövdət Yılmaz, Sinqapur parlamentinin sədri Sia Kian Penq, Qırğızıstanın Baş naziri Akılbek Japarov, Səudiyyə Ərəbistanının energetika naziri Əbdüləziz bin Salman Əl-Səud, Avropa yenidənqurma və İnkişaf Bankının prezidenti Odil Reno-Basso və digər şəxslər iştirak edib.

Bu mühüm tədbirə ölkəmizdən iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərliyi ilə nümayəndə heyəti qatılıb.

Forumu Özbəkistan Prezidenti Şavkat Mirziyoyev açaraq forum iştirakçılarını salamlayıb, ölkədə sərmayə qoyuluşu sahəsindəki uğurlardan danışıb.

Forum çərçivəsində “Özbəkistan-Azərbaycan”: uğura doğru addım” adlı sessiya da baş tutub. Sessiyada Azərbaycan tərəfdən Mikayıl Cabbarov və İxracın və İnvestisiyaların Təşviqi Agentliyiniin icraçı direktoru Yusif Abdullayev, Özbəkistan tərəfdən isə investisiya, sənaye, ticarət nazirinin müavini Hürrəm Teşabayev və Yenidənqurma və İnkişaf Fondunun baş direktoru Şuxrat Bafoyev iştirak ediblər.

Tədbirdə bildirilib ki, iqtisadi münasibətlərin əsasında dərin tarixi və mədəni köklər, həmçinin iki xalq arasında əsrlərlə olan dostluq durur.

Sessiyada ticarət, investisiya, turizm sahələrində yeni əməkdaşlıq layihələri müzakirə edilib. Bildirilib ki, iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin gələcək inkişafı üçün böyük potensial var.

Mikayıl Cabbarov deyib: – Özbəkistan məhsulları ilə bağlı xüsusi ticarət siyasətinin tətbiq olunduğu son iki ildə tərəflər böyük uğur əldə ediblər. Ölkələrimiz arasında avtomobil və dəmiryol daşımalarının miqyası artıb, nəqliyyat əlaqəsi ticarət sahəsindəki əməkdaşlığı əhəmiyyətli dərəcədə asanlaşdırıb.

Bildirilib ki, bu sesssiya Özbəkistanla Azərbaycan arasında ticarət-iqtisadi münasibətlərin möhkəmlənməsi üzrə konstruktiv dialoq məkanına çevrilib və bu istiqamətdə işlər davam etdiriləcək.

İnvestisiya Forumu çərçivəsində 50-dən çox iclas, panel sessiya və diskussiya keçirilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**

# Naxçıvan – İğdır yubiley veloyürüşü

**Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi münasibəti ilə iğdırlı velosipedçilər qonşu diyara velosiped turu təşkil ediblər. Yürüşə naxçıvanlı idmançılar da qoşulublar.**



Tur iştirakçıları Sədərək Dilucu və Gürbulaq sərhəd məntəqələrindən keçərək İğdıra gəliblər. İğdır valisi ilə görüşdə qardaş ölkələrin 2 qonşu vilayətinin dostluq əlaqələri diqqət mərkəzində olub. Yürüş iştirakçıları İğdır gənclik və idman müdiri və “ArazDer” klubunun üzvləri ilə də görüşüblər. Sonra velosipedçilər Tuzluca istiqamətində hərəkət edərək buradakı duz mağaralarında olublar.

Naxçıvan idmançılar İğdırın şəhər mərkəzini, Millət parkını, Gənclik mərkəzini, Mələkli İrəm bağlarını, tarixi ünvanları ziyarət ediblər.

***XQ***

# Goranboyda Milli Qəhrəmanın xatirəsi anıldı



**Goranboyda Milli Qəhrəman Niyazi Aslanovun anım günündə şəhidin xatirəsi ehtiramla anılıb.**

Tap Qaraqoyunlu kənd Şəhidlər xatirə kompleksində keçirilən mərasimdə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, şəhid ailələri və müharibə iştirakçıları, kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Onlar Niyazi Aslanovun büstünü və Xatirə kompleksini ziyarət edərək, şəhidlərimizin ruhlarına dualar oxuyublar. Məktəblilər şəhidlərin hünərini canlandıran ədəbi-bədii kompozisiya nümayiş etdiriblər.

Qeyd edək ki, Niyazi Aslanov 25 dekabr 1960-cı ildə Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində dünyaya göz açıb, burada orta məktəbi bitirib. Hərbi xidmətini başa vurduqdan sonra orta aqronom təhsili alaraq ixtisası üzrə çalışıb. Respublikamızın erməni təcavüzünə məruz qaldığı zaman o da silaha sarılaraq Vətənin müdafiəsinə qalxıb.

O, Goranboy özünümüdafiə batalyonunun tərkibində Şəfəq, Gürzalılar, Todan, Sarısu, Tərtər və Ağdam bölgələrində gedən döyüşlərdə rəşadətlə vuruşub. Cəsur döyüşçü 4 may 1992-ci ildə Tap-Qaraqoyunlu kəndinin yaxınlığında qeyri-bərabər döyüşdə öz komandiri İsfəndiyar Əsədovu ölümdən xilas edərkən qəhrəmancasına həlak olub. Tap-Qaraqoyunlu kənd orta məktəbi və Naftalan şəhərindəki küçələrdən biri onun adını daşıyır.

***H. ZEYNALOĞLU,***
***XQ-nin bölgə müxbiri***

**Goranboy**

# Türk dövlətləri dünya iqtisadi məkanında

**Hazırda dünyanın bütün ölkələrində “qlobal siyasət” və “qlobal iqtisadiyyat” terminləri ən çox işlədilən ifadələrdir. Bu, heç də təsadüfi deyil. Keçən əsrin ortalarından başlayaraq getdikcə sürətlənən qloballaşma prosesləri siyasi-iqtisadi proseslərdə bir çox yeni trendlər yaratmaqla bərabər, həm də bu ifadələri beynəlxalq leksikaya gətirib. Bu gün istər milli dövlətlər səviyyəsində, istərsə də beynəlxalq səviyyədə hər hansı bir təhlil bu ifadələrsiz mümkün görünmür.**

Keçən əsrin ilk 90 ili ərzində “türk dövləti”, “türk iqtisadiyyatı”, “türk məhsulu” dedikdə bu ifadələr həmin dövrdə dünyanın siyasi xəritəsində yeganə müstəqil türk dövləti olan Türkiyə Cümhuriyyəti ilə asossiasiya olunurdu. Son 30 ildə isə daha 5 müstəqil türk dövləti (Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızstan və Türkmənistan) dünyanın siyasi – iqtisadi və mədəni həyatında öz rolunu oynamağa başlayıb. Sovet İttifaqının süqutundan keçən ilk 30 il yeni müstəqillik qazanmış türk dövlətləri üçün, əsasən, müstəqilliyin möhkəmləndirilməsi dövrü olub və hər bir türk dövləti bu istiqamətdə mühüm uğurlar əldə edib. Bu uğurların əldə olunması isə birbaşa iqtisadi dirçəlişlə, müasir iqtisadi modellərin tətbiqi ilə və nəhayət, qlobal iqtisadi-maliyyə sisteminə hansı şəkildə və hansı resurslarla inteqrasiya olunmaqla şərtlənib.



*Cavansir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*

Bu gün türk dövlətlərinin qlobal iqtisadiyyatda rolundan danışarkən hər bir türk dövlətinin ayrılıqda hansı resurslara malik olması ilkin şərtdir. Bu prizmadan baxdıqda hər bir türk dövlətinin dünya iqtisadiyyatına təklif etmək üçün kifayət qədər təbii resurslara malik olduğunu görə bilərik.

Türkiyə dünyanın siyasi xəritəsində müstəsna geostrateji əhəmiyyətə malik olan ölkələrindən biri və bəlkə də birincisidir. Dünyanın ən zəngin geotermal enerji qaynaqlarının olduğu 5 ölkədən biridir. Əsasən, daş kömür və duz yataqlarına və az miqdarda da neft və təbii qaz ehtiyatlarına malikdir. Ölkənin ümumi iqtisadi maliyyə arsenalında bank xidmətləri, turizm, ağır metallurgiya, neft-kimya, dağ-mədən sənayesi və yüngül sənaye üstünlük təşkil edir. ÜDM-da sənaye sektorunun və xidmətlərin ümumi payı 65 faizdir. Turizm cəlbediciliyinə görə, dünyanın ilk 10 ölkəsindən biridir. Türkiyə iqtisadi gücünə görə dünyada 19-cu ölkədir və ÜDM 1,1 trilyondan çoxdur. 1995-ci ildən etibarən Avropa İttifaqı ilə Gömrük Sazişinə qoşulub və əsas ticarət tərəfdaşı Avropadır.

Azərbaycan da təbii sərvətlərinə görə, dünyanın zəngin ölkələrindən biridir. Respublika ərazisinin 2/3 hissəsi neft və qaz yataqları ilə zəngindir. Rəsmi təsdiq olunmuş ümumi neft ehtiyatları 8 milyard barel, qaz ehtiyatları isə 2,2 trilyon kubmetrdən çoxdur. Qızıl, dəmir, alüminium, gümüş, xromit, mis və digər faydalı qazıntı yataqlarına malikdir.

Müstəqilliyin ilk illərində işğala məruz qalması səbəbindən 1995-ci ilə qədər ölkə iqtisadiyyatında tənəzzül davam edib. 1994-cü ildə “Əsrin müqaviləsi” adını almış neft-qaz yataqlarının istismarı ilə bağlı imzalanmış müqavilə Azərbaycanın bu gün də davam etdirilən neft strategiyasının əsasını qoyub. 1995-ci ildən başlayaraq makro-iqtisadi sabitlik əldə olunub və ölkə davamlı inkişaf dövrünə qədəm qoyub. Müstəqillik illərində Bakı–Supsa, Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum boru kəmərlərinin tikilməsi Azərbaycanın enerji ixracının şaxələndirilməsinə geniş imkanlar yaradıb. 2016-cı ildə uzunluğu 3500 kilometr olacaq Cənub Qaz Dəhlizi layihəsinə start verilib.

Bu layihə çərçivəsində Cənub Qafqaz Boru Kəmərlərinin (CQBK) genişləndirilməsi, Türkiyə ərazisindən keçən Trans Anadolu Boru Kəməri və Yunanıstandan keçərək İtaliyaya qədər uzanan Trans–Adriatik Boru Kəmərinin tikintisi nəzərdə tutulurdu. 2016-2020-ci illər ərzində tikinti işləri başa çatdırılıb və "Cənub Qaz Dəhlizi" (CQD) tam şəkildə istifadəyə verilib. Layihənin məqsədi “Şahdəniz” qaz-kondensat yatağından çıxarılacaq təbii qazın genişləndirilmiş Cənubi Qafqaz Qaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri vasitəsilə ilkin olaraq Türkiyəyə və daha sonra Cənubi Avropaya ixracını təmin etməkdir.

Hazırda təbii qaz Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Bolqarıstan, Albaniya ərazisindən və Adriatik dənizinin dibindən keçməklə İtaliyaya qədər 3500 kilometrdən artıq uzanan boru kəmərləri vasitəsilə Avropaya çatdırılır. 2022-ci ildə Avropa İttifaqı ilə “yaşıl enerji”nin istehsalı və ötürülməsi haqqında Anlaşma Memorandumu imzalanıb və bərpaolunan enerji istehsalı sahəsində də Azərbaycan iri həcmli və beynəlxalq əhəmiyyətli layihələr həyata keçirmək əzmindədir.

Azərbaycanın həyata keçirdiyi neft-qaz siyasəti ölkəni Avropa İttifaqı üçün alternativ enerji mənbəyinə və ən etibarlı enerji təminatçısına çevirib. Davamlı iqtisadi inkişafa nail olmaq üçün hazırda ölkədə qeyri-neft sektorunun inkişafını təmin etmək və bu sahəyə xarici sərmayə qoyuluşunu artırmaq məqsədilə çoxsaylı dövlət layihələri həyata keçirilir. Son 20 ildə ölkəyə 200 milyarddan artıq xarici sərmayə qoyulub. Keçən ilin nəticələrinə görə ölkədə ÜDM istehsalı 123 milrd manatdan çox olub ki, onun da 40 faizdən çoxu sənayenin payına düşür.

Qazaxıstan ərazisi də təbii sərvətlərlə zəngin olan türk ölkəsidir. Əsas təbii sərvətləri neft, qaz, daş kömür, mis və dəmir filizidir. Eyni zamanda Qazaxıstanda zəngin alüminium, qurğuşun, sink, gümüş, nikel, qızıl və digər nadir metal yataqları var. Qazaxıstan uran və sink ehtiyatlarına görə dünyada 2-ci yeri tutur. Neft və qaz ehtiyatlarının həcminə görə Qazaxıstan dünyanın 11-ci ölkəsidir. Dünya neft ehtiyatlarının 3,2 faizi Qazaxıstanda yerləşir. İqtisadi potensialəına görə Qazaxıstan türk dünyasında Türkiyədən sonra gələn 2-ci dövlətdir. 2011-ci ildə ÜDM həcmi 200 milyard dollara çatmışdı. Düzdür, hazırda bir az geriləmə var və 2020-ci ilin statistikasına görə, Qazaxıstanda ÜDM həcmi 163 milyard olmuşdu. Qlobal rəqabətə davamlılığına görə Qazaxıstan ilk 50 ölkə arasında yer alır. Ümumdünya Ticarət Təşkilatının üzvüdür və bu ona dünya iqtisadi-maliyyə sisteminə uğurlu şəkildə inteqrasiya etmək üçün geniş imkanlar qazandırır.




Özbəkistan da təbii sərvətlərlə zəngin bir türk ölkəsidir. Asiyanın ən böyük qızıl mədəni məhz Özbəkistanda yerləşir. Qızıl yataqlarının həcminə görə Özbəkistan dünyada 4-cü, gümüş ehtiyatlarına görə isə 10-cu ən böyük ölkədir. Zəngin təbii qaz ehtiyatlarına, sink, uran, və kömür yataqlarına malikdir. Dövlət 2030-cu ilədək ÜDM həcmini 160 milyard dollara çatdırmaq niyyətindədir. Son bir neçə ilədək birbaşa xarici investisiyaların həcmi digər post-sovet ölkələrinə və türk dövlətlərinə nisbətən aşağı səviyyədə idi. Lakin son illər Özbəkistanda xarici investisiya yatırımlarının sürətli artımı müşahidə olunur.

Qırğız Respublikasında əlvan metallar – mis, molibden, dəmir filizi, qızıl, civə, qurğuşun yataqları, dağ arası çökəkliklərdə isə neft və kömür ehtiyatları var. Kumtor qızıl yataqları dünyanın ən zəngin qızıl yataqlarından biridir. Qızıl və civə ölkənin əsas ixracat məhsullarıdır. ÜDM əhəmiyyətli hissəsini kənd təsərrüfatı və turizm təşkil edir. Ölkənin hidroenerji potensialı böyükdür və iri həcmli sərmayələrin yatırılmasına ciddi ehtiyac var.

Türkmənistan təbii qaz və neft yataqları ilə zəngindir. İndiyədək ölkə ərazisində 144 neft və qaz yatağı aşkar olunub, lakin onlardan yalnız 40-ı istismar olunur. Türkmənistan neft və qaz ehtiyatlarının ümumi həcminə görə dünyada 4-cü yeri tutur. ÜDM formalaşdıran əsas sahələr sənaye, kənd təsərrüfatı və xidmət sektorlarıdır. Enerji ixracının şaxələndirilməsi istiqamətində mühüm addımlar atılıb. Çinin təbii qazla təminatını həyat keçirmək üçün boru xəttinin inşası, Türkmənistan – Əfqanıstan – Pakistan – Hindistan boru xəttinin çəkilməsi və eləcə də enerji resurslarının Azərbaycan vasitəsilə Avropaya nəql edilməsi Türkmənistanın enerji siyasətinin tərkib hissəsidir.

Bu günkü qloballaşma şəraitində sadalan təbii qaynaqlardan səmərəli istifadə etmək, ayrı-ayrı güc mərkəzlərinin təsiri altına düşmədən öz təbii sərvətlərini xalqının rifahının yüksəldilməsinə sərf etmək üçün türk dövlətləri siyasi iqtisad məfhumundan çıxış etməlidir. Bütün iqtisadi potensialdan, iqtisadiyyatın bu və ya digər sahəsində malik olduqları üstünlüklərdən ölkələrin gələcəyinə hesablanmış praqmatik siyasətlə istifadə etməlidirlər. Dünyada yaranan yeni reallıqlar şəraitində türk dövlətləri üçün məqbul hesab oluna biləcək yeganə iqtisadi siyasət ilk növbədə iqtisadi münasibətlər səviyyəsində maksimum inteqrasiyadan ibarət olmalıdır. Bu ilk növbədə türk dövlətləri arasında nəqliyyat marşrutlarının genişləndirilməsi, ticarət əlaqələrinin və qarşılıqlı sərmayə yatırımlarının sürətlə artırılması ilə mümkündür. Belə bir inteqrasiya istiqamətində aparılan siyasət nəticə etibarilə türk geopolitik regionunda vahid iqtisadi bazarın formalaşmasına gətirib çıxara bilər.

Bütün türk ölkələrinin vahid iqtisadi bazara inteqrasiya etməsini şərtləndirən bir sıra amillər var. Tarix, mədəniyyət, dil və din birliyimizlə yanaşı qeyd edə biləcəyimiz ən mühüm amillərdən biri də Orta Dəhliz layihəsidir. Orta dəhliz konsepsiyası ən səmərəli tranzit nəqliyyat marşrutları ilə Şərqlə Qərbi bir-birinə bağlayan qlobal əhəmiyyətli layihədir. Bu layihə 2018-ci ildə yaradılmış Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin daha geniş konsepsiyasıdır. Rusiyanın Ukraynaya təcavüzü fonunda onun üzərinə qoyulmuş sanksiyalar Şərqlə Qərb arasında dayanıqlı logistikanın təşkili üçün Orta Dəhliz layihəsini ən optimal varianta çevirir.

Çinlə Avropa məkanı arasında nəqliyyat şaxələndirilməsini özündə ehtiva edən Orta Dəhliz türk dövlətlərinin ərazisindən keçməklə onların dünyanın ən dinamik iqtisadi-ticari münasibətlər şəbəkəsinə inteqrasiya olunması üçün həyati əhəmiyyət kəsb edir. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələrindən keçməklə Xəzər dənizinə və daha sonra isə Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçməklə Qərbi Avropaya qədər uzanır. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və ən optimal marşrutdur. Qlobal miqyasda Orta Dəhlizə marağın artmasında, heç şübhəsiz ki, Azərbaycan son 20 ildə həyata keçirdiki geniş həcmli infrastruktur layihələri ilə müstəsna rol oynayır. Bu layihənin uğurlu şəkildə həyata keçirilməsi türk dövlətlərinin iqtisadi inkişafına və bir-biri ilə artan əlaqələrinin dinamikasına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Qlobal məqsədlərə xidmət edən Orta Dəhliz həm də türk dövlətləri arasında ticari-iqtisadi münasibələrin daha da intensivləşməsinə və müvafiq siyasətin həyata keçirələcəyi halda türk geopolitik regionunu əhatə edən vahid iqtisadi zonanın təşəkkül tapmasına gətirib çıxaracaq. Vahid iqtisadi bazarın formalaşması isə öz növbəsində türk dövlətlərini vahid siyasi platforma ətrafında birləşdirməyə xidmət edəcək. Beynəlxalq siyasət meydanında vahid siyasi platformadan çıxış edən türk dövlətlərinin isə Avrasiya miqyasında vahid güc mərkəzinə çevrilmək imkanı böyükdür.

# Gəncədə ekoloji konfrans

**Gəncə Şəhər İcra Hakimiyyəti, Elm və Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasi (AMEA) Gəncə Bölməsi və Bioresurslar İnstitutunun birgə təşkilatçiliği ilə “Boyaq bitki xammalları və tullantılarının emalı” mövzusunda respublika konfransı keçirilib. Tədbiri giriş sözü ilə AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əlyev açaraq tədbirin “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında” ölkə Prezidentinin sərəncamına uyğun olaraq keçirildiyini vurğulayıb.**



Elm və Təhsil Nazirliyinin Bioresurslar İnstitutunun direktoru, kimya üzrə fəlsəfə doktoru İmran Qasımov çıxışında konfransın proqramının zəngin olduğunu, ekoloji problemlərin həlli üçün irəli sürülən təkliflərin həyata keçirilməsində alimlərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib. AMEA Şəki Regional Elmi Mərkəzin direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Yusif Şükürlü respublikamızda ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində köklü işlər aparıldığını vurğulayıb. Gəncə Şəhər İcra Hakimiyyətinin şöbə müdiri Yadigar Bədəlov isə çıxışında alimlərimizin ölkənin elmi, iqtisadi və mədəni potensialının artırılmasına verdikləri töhfələrin Azərbaycanın çiçəklənməsinə xidmət etdiyini bildirib.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

SOS!

**Xəzər dənizi sürətlə dayazlaşır. Son 25 ildə dənizin səviyyəsi 2 metr azalıb. Onun sahil xətti getdikcə uzaqlaşır və indi bəzi yerlərdə su 1 kilometr çəkilib. Bu, dənizin şimal hissəsində xüsusilə nəzərə çarpır. Qazaxıstan sahilində Kaydak körfəzi quruyur. Xəzərin sürətlə quruması Türkmənistanın sahilyanı ərazisində də nəzərə çarpır. İndi bəzi yerlərdə su 800 metr çəkilib.**

# Xəzər niyə geri çəkilir?

## *Dənizin canlı aləmi təhlükədədir*

Oxşar vəziyyət Azərbaycanda da nəzərə çarpır. Artıq Bakı buxtasındakı ada bunun bariz nümunəsidir. Dayazlaşma isə ekoloji təhlükə yaradır. Sahilboyu zonaların vəziyyətinə və iqtisadiyyatın dənizlə bağlı olan bir sıra sahələrinə – balıqçılıq, dəniz nəqliyyatı, limanların fəaliyyəti, tikinti kimi müxtəlif sektorlara, eləcə də sahil zonasında yaşayan əhaliyə təsir göstərir.

### Xəzərdə ciddi dəyişikliklər

Yuxarıda qeyd etdiyimiz kimi, iqlim dəyişiklikləri nəticəsində Xəzər dənizinin nəinki Azərbaycan sektorunda, ümumiyyətlə, bütün Xəzər dənizi akvatoriyasında ciddi dəyişikliklər gedir. Suyun temperaturu həm üst, həm də orta təbəqədə 4–5 dərəcə artıb. Temperaturun bu cür qalxması zooplanktonları yandırır. Bir tərəfdən də yayda günəşin şüalanması da artır. Onların azalması zooplanktonla qidalanan xırda balıqların populyasiyalarının, əsasən də kilkələrin sayının azalmasına səbəb olur. Çünki kilkələr Xəzər ixtiofaunasının təxminən 60 faizini təşkil edir. Xırda balıqlarla qidalanan nərə balığı, qızılbalıq, siyənəkkimilərin ehtiyatları dəfələrlə azalır.



Xəzər dənizində balıqların azalmasının digər səbəbi çaylarda suyun səviyyəsinin aşağı düşməsidir. Son illərdə Kürün axar həcmi 50–60 faiz azalıb. Volqa və Ural çaylarında da həmin proses müşahidə olunmaqdadır. Belə vəziyyətdə balıqlar çaya girib kürü tökə, çoxala bilmirlər. Bu, yaxın illərdə bəzi balıqların yox olmasına da səbəb ola bilər.

Xəzərsahili ölkələrin neft hasilatını artırması da dənizin ekosisteminə təsirsiz ötüşmür. Bunun nəticəsində dənizin ifrat çirklənməsi balıq sənayesinə ciddi ziyan vurur. Xəzər dənizi üçün ən təhlükəli çirklənmə isə tərkibində zərərli kimyəvi maddələr olan tullantılardır. Bunlardan neft karbohidrogenlərini, karbonukleidləri, xlor üzvi birləşmələri və ağır metalları göstərmək olar. Onlar suyun və qruntun tərkibini dəyişdirir. Zəhərli maddələr balıqlar üçün yem ehtiyyatını tükədir, oksigen aclığı yaradır. Bunlar genlərdə dəyişikliklərə səbəb olur ki, onlar da rüşeymləri məhv edir, irsiyyət və nəsil artma kimi bioloji funksiyaların pozulmasına şərait yaradır.

Çayların gətirdiyi çirkab sularını da nəzərə alsaq vəziyyətin ürəkaçıcı olmaması ortaya çıxar. Problemin əmələ gəlməsində bioloji çirklənmənin də payı var. Söhbət Volqa–Don kanalı vasitəsilə Azov–Qara dəniz hövzəsindən gələn yad orqanizmlərdən gedir. Belə ki, Türkmənistana aid sektorda meduzalar (aurella aurita, mneniopsis leudyi) aşkar edilib. Bu meduzalar Xəzərdə çoxalaraq vətəgə əhəmiyyətli iri balıqların qidasını yeyib tükəndirir. Məsələn, bu meduzalar kilkə ilə qidalanırlar. Kilkənin azalması paralel olaraq onlarla qidalanan müxtəlif su heyvanlarının sayca azalmasıyla nəticələnir.

Unutmayaq ki, Xəzər yeganə dənizdir ki, nərə balıqlarının böyük ehtiyatı (təxminən 95 faizi) burada cəmləşib. Məlumdur ki, nərə balığı dünya bazarında çox qiymətli sayılan qara kürünün "istehsalçısıdır". Dənizin dayazlaşması, çiriklənməsi və yem ehtiyyatının azalması isə bu balıqdan yan keçmir. Əgər bir vaxtlar Bakının balıq mağazalarında (Okean mağazaları) nərə balıqları sərbəst satılırdısa, bu gün onlara demək olar ki rast gəlinmir.

Ekoloji tarazılığın pozulması Xəzər suitisinədən də yan keçməyib. Qırmızı Kitaba daxil olan bu heyvanların cəsədləri hər il sahilə çıxır. Bu, Xəzər dənizinin biomüxtəlifliyinin vəziyyətini göstərir.

### Dəniz xilasını gözləyir

Aydındır ki, Xəzər dənizini taleyin hökmünə buraxmaq olmaz. Bu baxımdan bir sıra beynəlxalq konvensiyaların tələblərinə ciddi əməl olunmalıdır. Onlardan biri də “Xəzər dənizində dəniz mühitinin mühafizəsi haqqında” çərçivə konvensiyasıdır. Bu konvensiyaya görə hər bir tərəf, o cümlədən Azərbaycan dəniz mühitinin qorunması məqsədilə öhdəlik götürüb. Ölkəmiz bu öhdəliyi yerinə yetirir. İlk növbədə dənizə axıdılan çirkab sularınının, atmosferə buraxılan zəhərli qazların qarşısı alınır, neft və neft məhsulları ilə çiriklənmiş torpaqlar təmizlənir. Qeyd edək ki, qurudulması mümkün olmayan göllərin təmizlənməsi və əhali üçün istirahət zonasına çevrilməsi istiqamətində layihələr həyata keçirilir.

Xəzər dənizinnin ekologiyasını qorumaq üçün dəniz obyeklərindən atmosferə atılan səmt qazının miqdarının azaldılması istiqamətində də müəyyən işlər görülür. Vaxtilə atmosferə gün ərzində milyonlarla kub metr səmt qazı atıldığı halda, indi onlardan məqsədyönlü istifadə olunur. Bakı buxtası və Cilov adası ərazilərində batmış və yarımbatmış gəmilərin, istifadəsiz estakadaların, yanalma körpülərinin və atılıb qalmış dəmir beton konstruksiyaların dənizdən çıxarılıb. Bu işlərə isə külli miqdarda vəsait xərclənir. Halbuki, Abşeron yarımadasında Sovet dövründə 1,5 milyard ton neft çıxarılıb və ondan əldə olunan təqribən 400–500 milyard dollar pulun çox hissəs Moskva tərəfindən mənimsənilib və onun neqativ nəticələrini aradan qaldırmaq isə bizə düşüb.

Bundan başqa, su hövzəsinə balıq kürülərinin buraxılması da davam edir. Bu barədə Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev deyib: “2023-cü il ərzində Xəzər dənizinin və daxili su hövzələrinin balıq ehtiyatlarının artırılması məqsədilə 600 min ədəddən çox nərəcinsli, 15 min ədəddən çox qızıl balıq və 8 milyon ədəddən çox çəkikimi balıq körpələri su hövzələrinə buraxılıb”. Onun sözlərinə görə, son 5 il ərzində isə, ümumilikdə, 30 milyon müxtəlif növ balıq körpəsi su hövzələrinə buraxılıb.

Mühüm tədbirlərdən biri də balıqların kürütökmə dövrü ilə bağlı ovunun qadağan edilməsidir. Bununla əlaqədar may ayının 1-dən Azərbaycanda bütün su hövzələrində balıq ovuna moratorium qüvvəyə minib. Proses sentyabrın 1-dək davam edəcək.

Sənaye üsulu ilə balıq ovu ilə məşğul olan fiziki və hüquqi şəxslər bütün təbii su hövzələrindən balıq ovu alətlərinin kənarlaşdırılmasını may ayının 1-dək təmin etməli idi. Əks halda ov alətlərinin su hövzələrində saxlanılması qanun pozuntusu hesab edilir və həmin şəxslər barəsində qanunamüvafiq qaydada intizam tədbirləri tətbiq olunacaq. Yəqin ki, bu tədbirlər müsbət nəticələr verəcək.

Aydındır ki, Xəzər dənizinin ekoloji təhlükəsizliyini, təmizliyini yalnız Azərbaycan tərəfinin gördüyü işlərlə təmin etmək mümkün deyil. Xəzərə yalnız bir yox, 5 sahilyanı ölkənin qayğı göstərməsi vacibdir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Ekspert rəyi



***Professor Fəxrəddin YUSİBOV:***

Əksər çaylarda və hər şeydən əvvəl Kür çayında bəndlər salınıb. Bu səbəbdən də balıqlar kürütökmə yerlərinə gedə bilmirlər. Bunlar nərəcinslilər də daxil olmaqla balıqların ehtiyatlarının kəskin aşağı düşməsinə səbəb olur.

1970-ci illərin ortalarında Xəzərdə 27 min ton nərə balığı ovlanırdı. Son illərdə ovlanan nərə balığı min tonu keçmir. Bu, kürü istehsalına da mənfi təsir göstərir. Keçən ilin yanvar–noyabr aylarında Azərbaycan xarici ölkələrə 487,1 min dollar dəyərində 530 kiloqram nərə balıqlarının kürüsünü ixrac edib. Bu, 2022-ci il ilin yanvar–noyabr ayları ilə müqayisədə dəyər baxımından 1,7 dəfə, miqdar baxımından 2,2 dəfə çoxdur. Keçən il 1 kiloqram kürünün orta ixrac qiyməti 919 dollar (1562 manat), 2022-ci ildə isə 1172 dollar (1992 manat) təşkil edib. Bu, 2022-ci illə müqayisədə artım kimi görünsə də, ötən əsrin 70–80-ci illərindəki göstəricidən dəfələrlə kiçik rəqəmdir.

İqlim dəyişikliyi balıqların mutasiyasına səbəb olur. Bu günlərdə Salyan balıqçıları ziyad balığı tutmuşdular. Balıqdakı dəyişiklər diqqət çəkir. Üzərindəki ağ ləkələrə bu günədək Azərbaycanda rast gəlinməyib.

Xalq əmanəti

# Görkəmli rəssam Cahid Camalın irsi Vətənə qayıtdı



**Xalq Bank “Xalq Əmanəti” layihəsinin 24-cü nəşrini Görkəmli Azərbaycan rəssamı, Moskvada yaşayıb-yaratmış Cahid Camalın zəngin və parlaq irsinə həsr edib. Azərbaycan, ingilis və rus dillərində hazırlanmış bədii albom dünən Xalq Bankın mərkəzi ofisindəki Rəsm Qalereyasınada xalq əmanətinə qəbul edildi.**

Görkəmli rəssamların sənət bilicilərinin, yaradıcı ziyalıların iştirak etdiyi təqdimat mərasimində çıxış edən Xalq rəssamı, akademik Ömər Eldarov, Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Arif Hüseynov, Rəssamlıq Akademiyasının rektoru Natiq Əliyev, Xalq rəssamı, professor Səlhab Məmmədov, sənətşünas Qalib Qasımov kitabın rəsm həvəskarları üçün dəyərli mənbə, tələbələr üçün canlı dərslik olduğunu qeyd etdilər. Bildirildi ki, rəssamın ən yaxşı əsərlərinin toplandığı bu nəşr Azərbaycan təsviri sənətinin çağdaş dünyada tanınmasına növbəti töhfədir.

Natiqlər nəfis və yüksək keyfiyyətlə hazırlanmış albomun nəşri ilə, nəhayət, Cahid Camal irsinin qürbətdən Vətənə qaytarıldığını söylədilər. Narahatlıqla vurğulandı ki, görkəmli rəssamın Moskvada taleyin ümidinə qalmış əsərlərinin toplanıb, alınıb ölkəmizə gətirilməsi üçün əlaqədar qurumlar və sənət xeyriyyəçiləri təcili addımlar atmalıdırlar. Mərasimdə “Xalq Əmanəti” layihəsinin milli irsin qorunması sahəsində davamlı fəaliyyətindən dönə-dönə, minnətdarlıqla söz açıldı.

Rəssamın tədqiqatçısı və albomun mətn müəllifi Mariya Filatova Cahid Camalın həyat və yaradıcılığı barədə ətraflı məlumat verərək bildirdi ki, sənətkar 15 noyabr 1928-ci ildə Qarabağda, Ağdamın Gülablı kəndində anadan olub. Onun ata tərəfdən şəcərəsi Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın Sarıcalılar tayfasına qovuşur.

Cahid Camal 1945-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirən kimi, 1946-cı ildə V.İ.Surikov adına Moskva Dövlət Akademik Bədii İnstitutuna daxil olur, təhsilini “dekorçu-rəssam”



ixtisası üzrə dekorativ tətbiqi rəssamlıq sənəti bölməsində davam etdirir. Ali təhsilini başa çatdırandan sonra Camal “Bolşoy Teatr”a stajçı-rəssam kimi işə götürülür və orada 2 il ərzində (1952–1954) peşəkar təcrübə toplayır. Staj müddətini bitirən həmyerlimiz Mayakovski adına Teatrda dekorçu-rəssam kimi işə düzəlir.

1952-ci ildə rəssam Üzeyir Hacıbəylinin Azərbaycan Opera və Balet Teatrında səhnəyə qoyulan “Koroğlu” operası üçün dekorasiya eskizləri də çəkir. 1958–1961-ci illərdə isə Moskva yaxınlığındakı Elektrostal şəhərinin Xalq Opera Teatrında “Yevgeni Onegin”, “İolanta” tamaşaları üzərində çalışır. 1956-cı ildə Cahid Camal Moskvadakı VDNX-də (XTNS) Azərbaycan pavilyonunun baş rəssamı olaraq tədbirlərə qatılıb.

Cahid Camal kitab qrafikası sahəsində də özünü əla illüstrator-rəssam kimi göstərməyə nail olub. O, Bakıdakı “Azərnəşr” və bir neçə Moskva nəşriyyatı (“Raduqa”, “Proqress” və s.) üçün kitablara tərtibat verir. “Koroğlu” xalq dastanı (1956), “Molla Nəsrəddinin lətifələri” (1959), C.İkraminin “Od qızı” (1965), X.Qoytisolonun “Elə həmin sözlər” (1967), Namdağın “Həyəcanlı illər” (1969) kitablarının bədii tərtibatı məhz ona məxsusdur. Özünü plakatçı-rəssam kimi də sınayan gənc sənətkar bir neçə il “Soyuzmultfilm”də multiplikasiyaçı-rəssam kimi də çalışıb. Sənətkar soydaşımız 2011-ci il iyunun 17-də Moskvada vəfat edib.

Sənətşünas Mariya Filatova daha sonra söylədi ki, Cahid Camalın bədii üslubu və yaradıcılığının formalaşmasında coğrafiyanın müstəsna rolu var. O, Azərbaycanın yalnız şəhər mədəniyyətini deyil, kənd mühitini də göstərməyi bacarıb. Azərbaycanın dili, tarixi, əfsanə və rəvayətləri, təbiəti, musiqisi, memarlığı, xalq tətbiqi sənəti, xalı və tikmələri rəssamın ilham mənbəyinə çevrilib, əsərlərinin süjet və rəng həlli, parlaq boyalara və ornamentlərə sevgisində əks olunub.

Cahid Camal Rusiya Federasiyasının Əməkdar rəssamı, Moskva Rəssamlar İttifaqı, Azərbaycan Rəssamlar İttifaqı, Monqolustan Rəssamlar İttifaqı və Beynəlxalq Təsviri Sənət Fondunun üzvü olub. Rəssamın əsərləri Azərbaycan İncəsənət muzeyində (Bakı), Q.Zanabazar adına Təsviri İncəsənət Muzeyində, Monqol Milli-Tarixi Muzeyində (Ulan-Bator), Dövlət Rus Muzeyində (Sankt-Peterburq), Dövlət Şərq Muzeyində (Moskva), qalereya və şəxsi kolleksiyalarda saxlanılır. Sərgiləri hələ sağlığında Bakı, Moskva, Dubna, Minsk, Almatı, Kişinyov, Ulan-Bator və Gəncədə təşkil edilib.

Rəssamın yaradıcılığı zəngin mədəniyyəti olan 3 ölkə – Azərbaycan, Rusiya və Monqolustan ilə eyni dərəcədə bağlıdır. Onun adı bu ölkələrin XX əsrin ikinci yarısı və XXI əsrin birinci onilliyinin təsviri sənət tarixinə yazılıb. Bu vaxtadək Cahid Camalın rənglərin təbiətinin araşdırılmasına həsr edilmiş “Rəngin anatomiyası” və “Geyimdə rəng” əsərləri nəşr etdirilib.

Xatırladaq ki, Cahid Camal Xalq Bankın son 15 ildə Xalq əmanəti layihəsinin saxlancına daxil etdiyi 24-cü ustad rəssamdır.

***Tahir AYDINOĞLU***
***XQ***

Beynəlxalq Opera Festivalının əks-sədası



# Bakıda beynəlxalq musiqi bayramı

**Ötən bir həftə ərzində ölkəmizdə I Beynəlxalq Opera Festivalı keçirilib. Festivalın keçirilməsi təşəbbüsü Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, Azərbaycanın Xalq artisti, pedaqoq Fidan Hacıyevaya məxsusdur.**

Doğrudur, indiyədək ölkəmizdə 3 beynəlxalq vokal festivalı təşkil olunub, amma daha geniş əhatəli opera festivalının da keçirilməsi bir ilk kimi təqdirəlayiq idi. Bakı və Gəncənin müxtəlif



konsert məkanlarında gerçəkləşən opera bayramından əsas məqsəd Azərbaycanda klassik musiqinin təşviqi və inkişafı, opera mədəniyyəti sahəsində yeni istedadların kəşfi və onlara dəstək idi.

İlk sənət sınaqlarında yeniyetmə və gənc ifaçılar iştirak ediblər. Onların həyəcanı sovuşsun deyə, əvvəlcə Azərbaycan Dövlət Filarmoniyasının Kamera və Orqan Musiqisi zalında məşq təşkil olunub. Azərbaycan və xarici bəstəkarların əsərlərinin daxil edildiyi canlı proqramlar hazırlanaraq təqdim olunub. Vokal musiqi məktəblərinin, Sənət akademiyasının və şəhərin digər musiqi məktəblərinin şagirdləri, Azərbaycan Beynəlxalq Məktəbinin (TISA) uşaq xoru, “Big Ben Kids Academy” uşaq xoru həm xorun tərkibində, həm də solo ifaçısı kimi səhnəyə çıxıblar.

Festival çərçivəsində Fidan Hacıyeva Vokal Musiqi Məktəbində və Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrında “Mezzo” qadın kamera orkestrinin (konsertmeyster Kübra Rzayeva) müşayiəti ilə gənc istedadların konserti keçirilib.

– Bunlar çox bacarıqlı və istedadlı uşaqlardır, – deyə ünlü vokalçı Fidan Hacıyeva bildirib. – Aralarında musiqi ilə ciddi məşğul olmağı hədəfləyənlər də, musiqiyə hobbi kimi baxanlar da var. Biz yaxşıların ən yaxşısını seçdik.

Gənc vokalçılar festivalın iştirakçısı olmaqdan məmnun görünürdülər. Onlar bu qəbildən olan tədbirdə iştiraklarını ciddi və məsuliyyətli hadisə kimi dəyərləndiriblər. Xormeyster Fatimə Rəfəllinin sözlərinə görə, festival sayəsində uşaqlar akademik xanəndəlik dünyası ilə daha yaxından tanış ola biliblər:

– Xor kollektivini bu festivala cəlb etdiyinə görə Fidan Hacıyevaya minnətdarıq. Bu, uşaqlar üçün böyük fürsət idi və çox maraqlı oldu. İfa edəcəkləri əsərlər yaşlarına görə bir az çətin olsa da, bunun öhdəsindən gələ bildilər. Çünki çoxdan hazırlaşmağa başlamış və çox çalışmışdıq.

Festivalın rəsmi açılışında Jorc Bizenin “Karmen” operasının müasir janrda premyerası olub. Musiqi klassik olaraq qalıb, amma səhnə dekorasiyası və əlbisələr – ifaçıların geyim dəstləri müasir olub. Orijinal ideya məşhur opera müğənnisi, Dövlət Akademik Opera və Balet Teatrının direktoru, Xalq artisti Yusif Eyvazova, rejissura isə Elvin Mirzəyevə məxsus idi. Möhtəşəm tamaşada əsas partiyaları Fidan Hacıyeva və Fərid Əliyev ifa ediblər, uşaq xoru da tamaşada iştirak edib.

Festival çərçivəsində Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının səhnəsində “Gənc opera ulduzları” adlı konsert təşkil olunub. Tədbirdə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının və Azərbaycan Milli Konservatoriyasının tələbələri, eləcə də Fidan Hacıyeva Vokal Musiqi məktəbinin şagirdləri və dirijor Cavanşir Cəfərovun rəhbərliyi ilə “MEZZO” kamera orkestri çıxış edib. Azərbaycan və xarici ölkə bəstəkarlarının klassik əsərləri ifa olunub.

Beynəlxalq Muğam Mərkəzinin səhnəsində festivalının 4-cü günündə “İncəsənət varisləri” adlı konsert olub. Azərbaycan Respublikasının Əməkdar artisti, professor Hüseyn Əliyevin tələbələri – Xalq artisti Fidan Hacıyeva, Əməkdar artist Fərid Əliyev, vokalçılar Anton Ferştandt, Azər Zadə, Tural Ağasıyev, Araz Əsədli və başqaları iştirak ediblər. İfaçıları Günel Rəhimova, Səmra Həsənli, Anna Rasina, Daniil Kirilovun ifa etdikləri fortepiano musiqisi müşayiət edib.

“Landmark” kompleksinin “Rotunda” zalında keçirilən klassik musiqi axşamı da hər kəsə ecazkar təsir bağışlayıb. Konsertdə Azərbaycan, İtaliya, Rusiya və Gürcüstandan olan ifaçılar iştirak ediblər. Klassik musiqi əsərləri səsləndirilib və çıxışlar fortepiano ilə müşayiət olunub. Tədbirə məşhur müğənnilərlə bərabər, istedadlı gənclər də qatılıblar.

Növbəti proqram Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasında təqdim edilib. Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəstəyi ilə orada maraqlı konsert olub. Xalq artisti Rafael Bayramovun rəhbərlik etdiyi Gəncə Dövlət Kamera Orkestrinin müşayiəti ilə Xalq artistləri Fidan Hacıyeva, Sevinc İbrahimova, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Əməkdar artist Kəmalə Tağızadə, solistlər Taleh Yahyayev, Rüstəm Cəfərov, Samir Pişnamazzadə və digər vokal ifaçıları dünya və Azərbaycan bəstəkarlarının əsərlərini səsləndiriblər. Proqram həm də İtaliyadan gəlmiş tanınmış vokalçı Ripalta Bufonun ifası ilə yadda qalıb. Konsertdə dövlət və hökumət rəsmiləri, mədəniyyət və incəsənət xadimləri, şəhər ictimaiyyəti iştirak ediblər.

Azərbaycanın Əməkdar artisti, bakılı bariton Anton Ferştandt jurnalistlərə müsahibəsində festivalın əhəmiyyətini qeyd edib:

– Opera festivalları həmişə həm əyləncə, həm təhsil proqramı, həm də sənətçilər arasında təcrübə mübadiləsidir. Müxtəlif ölkələrdən olan iştirakçıların faydalı qarşılıqlı əlaqələri, bir çox yeni tanışlıqlar, gənc və təcrübəli sənətkarların birgə çıxışları ölkənin mədəni həyatında müsbət addımdır.

***Ə.DOSTƏLİ***
***XQ***

Milli Xalça Festivalı

# İlmələrin yazdığı sehirli nağıllar



**Dünən Azərbaycanda ilk dəfə olaraq Milli Xalça Festivalı başlanıb. Bu möhtəşəm bayram münasibətilə İçərişəhərin küçələri xalça ornamentli xüsusi dekorasiyalarla bəzədilib, rəngarəng və sehirli gözəlliyə malik müxtəlif naxışlı xalçalarla döşənib.**

Tədbir açılışında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri Şahin Seyidzadə, “Azərxalça” ASC İdarə Heyətinin sədri Əməkdar incəsənət xadimi Emin Məmmədov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun rəhbəri Yusif Abdullayev çıxış ediblər.

Festivalın təşkili yerli və əcnəbi qonaqların böyük marağına səbəb olub. Ziyarətçilər qədim və müasir xalça nümunələri ilə tanış olublar. Xalça toxuma sənəti ilə bağlı böyüklər və uşaqlar üçün ustad dərsləri, maarifləndirici seminarlar, yarmarkalar, muğam axşamı və konsert proqramı da təşkil olunmuşdu. Ustad dərslərində xalçatoxuma sənəti ilə maraqlananlar xalçanın ərsəyə gəlməsinin bütün mərhələləri – ipliklərin boyanması, çeşnilərin və naxışların vurulması, xalçanın toxunması, emalı, yandırılması, yuyulması prosesi ilə yaxından tanış oldular. “Azərxalça” ASC-nin Azərbaycanın 14 regionundan gəlmiş toxucu və emal komandası qonaqlara xalça dəzgahı üzərində dərslər təqdim etdilər. Şirvanşahlar Sarayı, Kiçik



Qala küçəsi, Qoşa Qala meydanı, Bakı Fotoqrafiya Evi, Azərxalça sərgi salonu, “Qgallery” və başqa məkanlarda da tədbirlər keçirildi.

Festivalda milli toxuma sənəti nümunələri, əl işləri sərgilənən stendlərə yaxınlaşıb iştirakçılardan müsahibələr aldıq.

“Zili” əl işləri markasının yaradıcısı Səidə Quliyeva:

– Əl işləri Azərbacana məxsus xalça naxışlarından ilhamlanaraq hazırlanıb. Burada, Azərbaycan metal irsini gündəlik həyatda canlandıran incəsənət nümunələri də sərgilənir. Məhsulların üzərində xalça miniatürləri təsvir olunub. Ölkə daxilində və ölkədən kənarda da satışlar həyata keçiririk.

“Qızıl əllər” brendinin satış təmsilçisi Asif Qasımov:

– Bədii oyma sənəti ilə məşğulam. Burada 100-dən çox əl işim sərgilənir. Mən onları hazırlayarkən milli dəyərlərimizə daha çox üstünlük verirəm. Çünki Azərbaycana əcnəbi turistlər çox gəlir. Əl işlərində mədəniyyətimizə xas olan milli elementləri görəndə çox xoşlarına gəlir. Bunlarla yanaşı, qədim milli musiqi alətləri, İçərişəhərdə yerləşən bir çox milli abidələin maketlərini və s. işləyib hazırlayıram.

Festivalda dekor əşyalar – telefon və stəkan altlıqları, divar saatları, qadınlar üçün zinət əşyaları, qurudulmuş meyvələr və güllərdən hazırlanmış sənət nümunələri, təbii materiallardan düzəldilmiş oyuncaqlar, kuklalar və s. nümayiş olunur. Burada, həmçinin, Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Azərxalça Açıq Səhmdar Cəmiyyətinin stendlərində xalça nümunələri sərgilənir.

Qeyd edək ki, UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil olan İçərişəhərin evsahibliyi etdiyi Milli Xalça Festivalı Prezident İlham Əliyevin 25 noyabr 2016-cı il tarixli sərəncamı ilə təsis edilmiş “Xalçaçı günü” peşə bayramına həsr edilir. UNESCO-nun Qeyri-maddi mədəni irs nümunələri siyahısına daxil edilmiş Azərbaycan xalçaçılıq sənətinin təşviqi və yaşadılması missiyasını daşıyır. Festival “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi və “Azərxalça” Açıq Səhmdar Cəmiyyətinin təşkilatçılığı, İqtisadiyyat Nazirliyi və AZPROMO-nun dəstəyi ilə keçirilir.

Festivala bu gün yekun vurulacaq.

***Fidan SALMANOVA, Elşən AĞALAROV (foto)***
***XQ***

# Gürcüstan Qərbə sərt üzünü göstərdi

## *Rəsmi Tbilisi milli maraqlarını qoruyacağını bildirir*

(əvvəli 1-ci səhifədə)

Dünya KİV-i cənab Kobaxidzenin okeanın o tayına getməkdən imtina etməsini ABŞ-Gürcüstan arasında indiyədək görünməyən diplomatik qalmaqal kimi qələmə verdi. Müstəqil Nation.ge resursunun analitiki David Avalişvilinin sözlərinə görə, ABŞ Gürcüstanın müstəqilliyini tanıdığı 1991-ci ilin dekabrından bu yana heç vaxt belə hal olmayıb. Gürcü politoloq deyib ki, cəmi bir neçə il əvvəl "həm iqtisadi, həm də siyasi baxımdan Vaşinqtondan böyük dərəcədə asılı olan" ölkə liderinin özünün ABŞ-a səfərindən imtina edəcəyini təsəvvür etmək mümkün deyildi.

D.Avalişvilinin fikrincə, hakim "Gürcü arzusu" partiyasının fəxri sədri Bidzina İvanişvilinin çıxışı fonunda Gürcüstanın xarici siyasət kursunun korreksiyası ilə bağlı müzakirələr "görünür, kifayət qədər doğrudur". Cənab İvanişvili aprelin 29-da keçirilən mitinqdə demişdi ki, Qərbdə "qlobal müharibə partiyası var" və "Gürcüstanı Rusiya ilə yeni müharibəyə sürükləməyə" çalışır. Ancaq Gürcüstan hakimiyyəti Avropaya inteqrasiya yolundan dönməyəcəklərini bildirir. Aprelin 29-da Macarıstanda keçirilən Mühafizəkar Siyasi Fəaliyyət Konfransının (CPAC) açılış mərasimində baş nazir İrakli Kobaxidze bir daha bildirmişdi ki, "Gürcüstan tezliklə Avropa İttifaqının üzvü olacaq" və "Avropa İttifaqının güclənməsinə, davamlı dəyərlərə əsaslanan Avropanın qurulmasına mühüm töhfə verə biləcək".

təsirin şəffaflığı haqqında" qanun layihəsi barədə danışıb. "Biz Gürcüstanın hazırkı inkişaf trayektoriyası ilə bağlı narahatlığımızı baş nazir Kobaxidzeyə bildirdik", - D.Çollet sosial media X səhifəsində eyni tonda davam edərək Tbilisiyə xəbərdarlıq etməyi də unutmayıb: "Hökumətin düşməncəsinə ritorikası və antidemokratik qanunvericiliyi dəstəkləməsi Gürcüstanın



Avro-Atlantik gələcəyini təhdid edir".

Baş nazir İrakli Kobaxidze bu ittihamı cavabsız qoymadı. O, özünün X sosial şəbəkəsində yazdı ki, amerikalı həmsöhbətinə son illər ABŞ-ın iki dəfə Gürcüstanda dövlət çevrilişi etməyə cəhd göstərdiyini bildirib (müxalifətin kütləvi aksiyaları nəzərdə tutulur-red.). Bu, hökumət başçısının qeyd etdiyi kimi, ABŞ-

ticədə uduzan Gürcüstan cəmiyyəti oldu. Birmənalı şəkildə deyə bilərik ki, 2004-cü ildə baş verənlər ABŞ başda olmaqla Qərbin gürcü xalqına qarşı təxribatı idi. İndi Qərb köhnə mahnını yeni tərzdə oxutdurmaq istəyir.

Qərbin məlum ssenarisinin Azərbaycanda da reallaşdırılması planlaşdırılmışdı. Lakin rəsmi Bakının qətiyyəli addımları sayəsində bu məkrli plan baş tutmadı. Belə ki, 2010-cu ildən başlayaraq ABŞ-ın Azərbaycandakı şəbəkəsinin fəaliyyəti məhdudlaşdırıldı, NED təşkilatının Bakı ofisinin rəhbəri olan Aleks Qriqorevs kimi təxribatçıların cəmiyyəti, gəncləri qiyama qaldırmaq cəhdləri iflasa uğradıldı, QHT-lərin maliyyə fəaliyyətini şəffaflaşdıran qanunlar qəbul olundu və xaricdən maliyyələşmə prosesi nəzarətə götürüldü. İndi Qərb Gürcüstan üzərindən Azərbaycandakı şəbəkəsinin qalıqlarını qoruyub saxlamağa can atır. Buna görə də, ciddi cəhdlə Abzas media, Toplum TV kimi layihələri müdafiə edir, qanunları pozduqlarına görə həbs olunmuş şəxslərin azadlığa buraxılmasına nail olmağa çalışır. ABŞ, Qərb anlayır ki, Azərbaycanın mövqeyi olmadan və maraqları nəzərə alınmadan regionda hər hansı uğura nail olmaq mümkün deyil. Azərbaycan istəməzsə, bu regionda ayaq açma bilməyəcək. Gürcüstan da məhz Azərbaycandan ruhlanaraq qəti mövqe nümayiş etdirməyə başlayıb.

Bütün bunların fonunda Gürcüstanda müxalifətin etiraz nümayişləri davam edir. Etirazçılar mayın 11-də qanun layihəsi-





Baxmayaraq ki, Avropa Parlamenti Gürcüstanla bağlı qətnamə qəbul edərək, "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsinin gündəmdə olduğu bir vaxtda Tbilisini Avropa İttifaqına daxil olması ilə bağlı danışıqlara başlamamağa çağırmışdı, hakim "Gürcü arzusu" partiyası strateji hədəfindən dönməyəcəyini bildirir. Rəsmi Tbilisi sözügedən qanun layihəsinin təkrar gündəmə gətirilməsini onunla əlaqələndirir ki, şəffaflıq vədlərinə baxmayaraq, xarici donorlar Gürcüstandakı radikal qruplar və partiyalar üçün gizli maliyyələşdirməni artırırlar. Xatırladaq ki, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə deyilirdi ki, "qanun layihəsi Aİ-nin dəyərlərinə və demokratik prinsiplərinə uyğun gəlmir, Gürcüstanın Aİ-yə daxil olmaq ambisiyalarına ziddir, Gürcüstanın beynəlxalq reputasiyasına xələl gətirir və ölkənin Avro-Atlantik inteqrasiyasını təhlükə altına qoyur".

Təbii ki, Tbilisinin demarşı Vaşinqtonun xoşuna gəlmədi. İndi ABŞ rəsmiləri və qanunvericiləri Gürcüstan hakimiyyətinin son addımlarından "ciddi narahatlıqlarını" bildirirlər. Məsələn, ABŞ dövlət katibinin müşaviri Derek Çollet deyib ki, o, baş nazir İrakli Kobaxidze ilə "Xarici

ın sabiq səfiri Kelli Deqnanın əli ilə və yerli QHT-lərin iştirakı ilə baş verib. Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda da xüsusilə vurğulanır ki, "Səfirin qeyd-şərtlə həyata keçirilməsi qarşılıqlı hörmət və etimada əsaslanmalı olan tərəfdaşlıq ruhuna uyğun gəlmir, bununla bağlı ABŞ səfirinə ətraflı izahat verilib". Gürcüstan hakimiyyəti Qərbin tənqidini anlaşılmaz adlandıraraq, ABŞ, İsrail və Avstraliyada artıq xaricdən maliyyələşmənin şəffafllığı ilə bağlı qanunların olduğunu və belə qanun layihələrinin Avropa İttifaqı və Fransada nəzərdən keçirildiyini vurğulayır.

Əslində, Gürcüstan hökuməti öz mövqeyində haqlıdır. Ona görə ki, bu gün Qərbin Gürcüstanda tətbiq etdiyi ssenari bu ölkəni Ukraynaya çevirmək niyyəti güdür. Eyni ssenari 2004-cü ildə Gürcüstanda artıq tətbiq olunmuşdu. "Məxməri inqilab" nəticəsində hakimiyyətə gətirilmiş Mixail Saakaşviliyə yalan vədlər verildi, Gürcüstan 2008-ci ildə Rusiya ilə qarşıdurmaya sürükləndi. Bu qarşıdurmanın nəticəsi hamıya məlumdur – Cənubi Osetiya və Abxaziya itirildi. Rusiya qoşunları isə Tbilisinin bir neçə kilometr yaxınlığına gəlib çatdılar. M. Saakaşvilini bu avantüraya sürükləyən Qərb isə vədini yerinə yetirmədi və nə-

nin üçüncü və son oxunuşda planlaşdırılan müzakirəsinə bir neçə gün qalmış "ümummilli itaətsizlik günü" keçirəcəklərini bildirirlər. Amma iqtidar ölkədə xaosun yaradılmasına imkan verməyəcəyini vurğulayır. "Gürcü arzusu" partiyasının deputatı Rati İonatamişvilinin sözlərinə görə, müxalifətin əsl məqsədi öz fikirlərini sülh yolu ilə ifadə etmək deyil, mümkün qədər çox insanın əziyyət çəkməsinə nail olmaqdır: "Bu insanlar Gürcüstanda sülh və sabitliyə düşməndirlər".

Gürcü deputat həqiqəti söyləyir. Ötən illər ərzində Qərb Gürcüstanda çox güclü şəbəkə qurub. Qonşu ölkədə fəaliyyət göstərən 25 minə yaxın QHT-nin böyük hissəsini maliyyələşdirir və öz iradəsinə uyğun idarə edir. Bunun nəticəsində Gürcüstan cəmiyyətində çox ciddi dəyişikliklər baş verib, narkomaniya, milli mənəvi dəyərlərin aşılanması güclənib, cinsi azlıqlar hərəkatı geniş vüsət alıb. Hadisələrin belə inkişaf etməsi nəticəsində ən pis halda Gürcüstan yeni Ukraynaya çevriləcək, yaxşı halda isə gürcü xalqı milli identikliyi olmayan topluma çevriləcək.

**S.ELAY**
**XQ**

**İranın İsrailə son hücumu bir çox siyasətçilər tərəfindən üçüncü dünya müharibəsinin başlanğıcı mesajı kimi qəbul edilmişdi. Ancaq vəziyyət heç də gözlənildiyi kimi olmadı. İsrail İranın yersiz hücumuna kəskin cavablar vermədi. Situasiyanı ən yüngül halda belə şərh etmək olar: İsrail hökuməti PUA-sı qonşu ölkənin elektrik məftilinə ilişib gülünc vəziyyətə düşən İranı ciddiyə almadı.**

# İran xalqı müharibə xülyasına uymur



Maraqlıdır, İsrailə qarşı illərdir, düşmənçilik siyasəti aparan İran rejimi bu məsələdə xalqdan nə qədər dəstək alır? Kiçik bir sosial araşdırma kifayətdir ki, İranın xarici siyasətdə yürütdüyü bu kursun yerli əhali tərəfindən dəstəklənmədiyini görəsən.

### "Molla rejimi xalqı təmsil etmir"

Ölkədə gedən proseslərdən bəllidir ki, İran əhalisi şəriət rejimindən və ölkəni iqtisadi-siyasi geriliyə, həmçinin beynəlxalq təcrid vəziyyətinə salan Xamneyi hakimiyyətindən cana doyub. Üstəlik, İsraillə arzu olunmayan bir zamanda, heç kimə fayda gətirməyəcək mənasız və yersiz müharibə təhlükəsi bu narazılığı daha da artırır.

Araşdırmalara görə, İranda bu il keçirilən seçkilərdə əhalinin iştirak qabiliyyəti ölkə tarixində ən aşağı göstərici olub. Son illərdə molla rejimi əleyhinə nümayişlərdə qətlə yetirilən, həbsə atılan, repressiya edilən yüzlərlə vətəndaşın faciəsi molla hökumətinin İran xalqını təmsil etmədiyini aydın şəkildə ortaya qoyur.

Sırf İsraillə münasibətlərə gəldikdə isə iranlılar – istər türklər, istərsə də farslar İsraillə heç də mənfi münasibət bəsləmirlər. Bu fikirləri xaricdə yaşayan iranlıların özləri etiraf edir.

ABŞ-ın Klemson universitetinin tarix və siyasi elmlər üzrə baş müəllimi, "İranlılar nə istəyir: azad qadın, həyat, azadlıq" kitabının müəllifi Araş Əzizinin sözlərinə görə İran xalqı bir çox məsələlərdə olduğu kimi, İsrail mövzusunda da ölkədəki rejimlə həmfikir deyil:

"Son bir neçə ayda bir çox ərəb ölkələrində İsrailə qarşı kütləvi nümayişlər keçirilib. Lakin İranda bu məsələ ilə bağlı aksiyalar baş tutmayıb. Əslində, İsrail və HƏMAS arasında 2023-cü ilin oktyabr ayında başlayan hərbi əməliyyatların ilkin mərhələlərində sadə iranlılar rejimin antiİsrail kampaniyasına açıq şəkildə etiraz edərək öz həyatlarını riskə atıblar".

### "Antiisrail mitinqi"nə maraq yoxdur

Digər tərəfdən, İran əhalisi vaxtilə müharibə dəhşətlərini yaşamış toplumdur. Təxminən səkkiz il davam edən 1980-1988-ci illər İran–İraq müharibəsi 2 milyona qədər insanın ölümü ilə nəticələnmişdi. Daha sonra paytaxt Tehran da daxil olmaqla bir çox İran şəhərləri bombalandı. Əlbəttə, o ağır illəri xatırlayan İran xalqı həmin ağrılı-acılı təcrübəni bir də heç vaxt təkrarlamaq istəməz.

Öz növbəsində molla rejimi İsrailə etdiyi hücuma ictimai dəstək nümayiş etdirməyə çalışsa da nəticələr rejim üçün ürəkaçan olmadı. Tehranda İsrail əleyhinə keçirilən mitinqin videosunda açıq-aydın görünür ki, İran tv-lərinin "kütləvi nümayiş", "çoxminlik izdiham" kimi təqdim etməyə çalışdığı meydanda 100-200 nəfərdən çox adam olmayıb. Həmçinin bu qəbildən olan digər tədbirlərə də demək olar, gedən yoxdur.

### İranda müharibə təlaşı

Analitiklərin fikrincə, İran xalqına aydındır ki, onların əsas düşməni İsrail deyil. Müharibə isə sadə iranlının həyatına yalnız və yalnız yeni repressiyalar, yeni məhrumiyyətlər gətirəcək. İnsanların müharibə qorxusunu təkcə bu fakt kifayət qədər aydın göstərir: əhali İsrailə hücum xəbərini eşidər-eşitməz, yanacaqdoldurma məntəqələrində və supermarketlərdə növbəyə düzülərək izdiham yaradıblar. Mağazalarda zəruri ərzaq malları, apteklərdə tibbi vasitələr saatlar içində satılıb qurtarıb.

Bir sözlə, İran əhalisi İsraillə qorxulu müharibənin gətirəcəyi fəlakətlərə görə molla rejiminin məsuliyyət daşıdığı fikrindədir. Ölkədəki həmkarlar ittifaqları artıq bu barədə açıq mövqe nümayiş etdirirlər:

"İsrailə yüzlərlə pilotsuz təyyarə və raket atmaqla, islam respublikası 90 milyonluq əhalini külə döndərəcək bir müharibəyə başlayır". "Molla rejimi İranı məhv etmək yönündəki son missiyasını tamamlayır" və s.

Sosial şəbəkələrdə "no-war" həştəqi ölkə daxilində və xaricdə minlərlə iranlının yazdığı postlarda istifadə olunur. İran əsilli amerikalı hüquqşünas və məşhur TikTok bloqçusu Elika Le Bon sosial şəbəkədə videomüraciətlə çıxış edərək, İran xalqının müharibə istəmədiyini, İran rejiminin öz vətəndaşlarına və İsrailə qarşı cinayətlərini sadalayıb:

"Biz İsraillə sülh istəyirik. İranda yaşayan insanlar dəfələrlə bunu deyiblər. Hələ 2012-ci ildə, nüvə proqramına görə İsrailin İrana hücum edəcəyi ilə bağlı söhbətlər yayılanda minlərlə sadə İran və İsrail vətəndaşı "İsrail İranı sevir", "İran İsraili sevir" başlıqlı səmimi mesajlar yazaraq internetdə dostluq statusları paylaşırdılar. Bu, iki dost xalqın biri-birini öldürməmək istəyidir. Bu, xalqların antimüharibə bəyanatıdır. Və bu fundamental reallıq o vaxtdan bəri öz qüvvəsindədir" – deyə ictimai fəal bildirib.

### Dostluq necə düşmənçiliyə çevrildi?

Əslində tarixə nəzər salsaq, görərik ki, İsraillə İran arasında münasibətlər İranda islam inqilabından sonra korlanmağa başlayıb. Hələ 1970-ci illərin əvvəllərində İsraillə ərəb ölkələri arasında münaqişənin genişlənməsinə baxmayaraq şah rejimi İsraillə yaxın münasibətlər qurmuşdu.

Yaranmasının birinci ildönümündə İsraili müstəqil dövlət kimi tanıyan ilk ölkə Türkiyə olub. Bundan sonra İran hökuməti xarici təsirlərdən narahat olmadan İsraillə rəsmi münasibətlər qura bildi. Həm də Türkiyə ilk addımı atandan sonra İran 1950-ci ildə İsraili de-fakto tanıdı.

Lakin İran şah dövründə İsraillə əlaqələrini açıq nümayiş etdirməkdən çəkinirdi. Səbəb sadə idi: ərəb dünyası ilə onsuz da pis olan münasibətləri daha da korlamaq İrana sərf etmirdi.

Məsələn, İran diplomatları İsrailə Türkiyədən keçərək gedirdilər və öz pasportlarında yəhudi dövlətində olduqlarını heç vaxt qeyd etdirmirdilər. İranın İsraildə fəaliyyət göstərən 6 diplomatı rəsmi olaraq İsveçrədə fəaliyyət göstərirmiş kimi qeydiyyatdan keçmişdi. Eyni zamanda, İsrail nümayəndələri də Tehrana gizli şəkildə gəlib - gedirdilər. 1971-ci ildə İran dövlətçiliyinin 2500 illiyi münasibəti ilə keçirilən tədbirə İsrail nümayəndələri dəvət edilmədi. Buna səbəb kimi tədbirin ərəbdilli ölkələr tərəfindən baykot ediləcəyi göstərildi. İsrail də öz növbəsində məsələni anlayışla qarşıladı.

İran-İsrail münasibətləri getdikcə dərin müstəvidə inkişaf edirdi. Belə ki, İranın xüsusi xidmət orqanı SAVAK ilə İsrailin MOSSAD təşkilatı sıx işbirliyində idilər. İsraillə İranın dostluğu hakim dairələrdə və xalq arasında dəstəklənirdi. Xomeyninin təsiri altında olan dini elita isə bu əməkdaşlığın əleyhinə idi. 1971-ci ildə Xomeyni xütbələrindən birində İsraili bütün müsəlmanların və İslam dünyasının düşməni elan etdi. Bununla da İranda antiisrail siyasət yenidən cücərdi. 1979-cu il İslam inqilabından başlamış ta indiyədək bu siyasət davam etməkdədir.

**Murad KÖHNƏQALA**

Həyatın içindən

# Ana haqqı



**Sahil Hüseynov adlı bir nəfər "TikTok"da təsadüfən şahidi olduğu çox təsirli, ibrətamiz bir hadisə barədə paylaşım edib. Sahil nəql edir ki, yolda bir ayağı zədəalmış, nimdaş paltarlı, orta yaşlı bir nəfərlə rastlaşıb. Bir ayağına ayaqqabı, o birinə çəkələk geyinmiş həmin şəxsə yaxınlaşıb və aralarında belə bir dialoq olub:**

– Nə üçün bir ayağınıza ayaqqabı, digərinə çəkələk geyinmisiniz?

– Mən fəhlə işləyirəm, bir neçə gün əvvəl ayağıma "kubik" düşüb, zədə almışam. Ayaqqabı ayağımı ağrıtdığı üçün çəkələk geyinmişəm.

– Axı zədəli ayaqla ağır işdə işləmək olmaz. Niyə bir neçə gün iş yerinə getməyib ayağınızın sağalmamasını gözləmirsiniz?

– Qardaş, mən gündəmuzd işləyirəm, işimə görə pul alıram.

– Bəlkə, buradakı kafelərin birində çörək yeyək, dərdləşək....

– Yox, qardaş, tələsirəm. Təklifiniz üçün çox sağ olun. Bu gün anamın ad günüdür, hər dəfə doğum günündə ona hədiyyə verirəm.

Bu sözləri eşidəndə Sahilin gözləri dolub. Kövrəldiyini hiss etdirməmək istəmədən söhbəti davam etdirib:

– Ayağınızın yarası fəsad verə bilərmi?

– Bir zədəli ayaq anamın zəhməti qarşısında nədir ki. Anamın hədiyyəsini almalıyam. Ona görə də bu gün mütləq işləməliydim. Anama nəinki bir ayağım, bütün canım qurbandır...

– Qardaş, sənin zədəli ayaqlarından öpərəm".

S.Hüseynov cibindən bir xeyli pul çıxarıb ayağı zədəli şəxsə uzadaraq deyib:

– Bu pula həm anana hədiyyə al, həm də bir neçə gün işə çıxma, ayağını müalicə elətdir!

Cavab çox gözlənilməz olub:

– Çox sağ olun! Mən bu zədəli ayaqla istənilən yükü qaldıra bilərəm, amma kimsənin verdiyi havayı pulun ağırlığını qaldıra bilmərəm.

**Düşünürəm ki, burada artıq şərhə, izaha ehtiyac yoxdur. Bu xalq, həqiqətən, ata-ananın qədir-qiymətini, torpağının, millətinin qeyrətini çəkən Böyük xalqdır!**

***Təqdim etdi:***
***Rizvan FİKRƏTOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№92 (30496) 5 may 2024-cü il, bazar

# Bir fotonun yaddaşı

## Bu da mənim ondan eşitdiyim, oxuduğum və gördüyümdür



**Təklik belədir – adam axşamlar çox darıxır. Yaxınların, dost, tanış zəng edəndə, qapını açanda sevinirsən. Eynin açılır, fikir-xəyaldan bir qədər uzaqlaşırsan. Sonra da Fb-yə girib gecəyarı çıxırsan... Hərdən də köhnə şəkilləri ortaya töküb bu gəlimli-gedimli dünyada ömür yoluna çıxan insanlarla "söhbətləşirsən". Səni sevindirən, yaxud dağ çəkən illəri, günləri təkrar xatırlamalı olursan. Axı foto-şəkil ötənlərin əksidir.**

Bəzən bunlar da işə yaramır, təkliyin əlindən bütün gecəni "aranı dağa, dağı arana daşıyırsan", evin daş-divarı üstünə gəlir...

Təkliyi tək qalsın görüm dünyada! Səhv etmirəmsə, Söhrab Tahirin sözüdür. Səhv edirəmsə, bağışlayın. Belə misralar onun poeziyasında hakimdir. Ruhu şad olsun!

Yenə köhnə foto-şəkilləri gözdən keçirirdim. Manaf müəllimin özünün mənə verdiyi şəkli keçdi əlimə. Doğma yurdu, hər daşı tarix olan Lahıcda çəkilib. Yazıçı-alim bu şəkli mənə ondan müsahibə alandan sonra bağışlayıb.

Gəlin o qış günü gördüklərimi və eşitdiklərimi sizlərə də nəql edim.

Azadlıq prospekti qara bürünmüşdü. İlk qar Bakıya yeni ildən əvvəl gəlmişdi. Nəqliyyat işləmirdi. Uşaqların səs-küyü həyəti başına götürmüşdü. Üçüncü mərtəbəyə qalxıb qapını astaca döydüm. Bir azdan qapının arxasından Manaf müəllimin səsi gəldi.

Qapını açıb: "Tez gir içəri, soyuq dolmasın", – dedi. Amma mənzilin havası da soyuq idi. Kişi yun adyala bürünmüşdü: "Gəl mətbəxdə oturaq, yenə ora havalıdı...Seyidin kürəkəni, yaxşı ki, gəldin, yaman darıxırdım". Sonra əlavə etdi ki, çaydanı qazın üstünə qoy, bir mürəbbəli çay içək.

Balaca, lakin xudmani mətbəxdəki servantın əl işi olduğu diqqətimi çəkdi. Qapıları üzərində milli naxışlardan ibarət oymalar gözəl işlənmişdi. Servantın üzərində ingilis dilində bir kitab vardı. Üzqabığına yazılanı nə illah elədimsə, tərcümə edə bilmədim. Ağlıma gələn bu oldu ki, yəqin, Manaf müəllim o kitabı tərcümə eləmək istəyir...

İstəyirdim ki, kişinin keyfi açılsın, darıxmasın. Amma bilmirdim ki, söhbətə nədən başlayım. Çəkinirdim ki, yersiz söz deyərəm, söhbəti korlayaram, kişi "acı" dilini işə salar. Yaxşı oldu ki, söhbətə özü başladı. Dedi ki, yəqin, indi Lahıcda qar dizə çıxır. Kaş orada olaydım, odun peçini qalayıb yaxşıca qızınardım. Hə, Lahıc haqda kitabı da bitirib verdim "Azərbaycan" jurnalına, hissə-hissə çap olunacaq, oxuyarsan.

O bu sözləri deyəndə mən servantın şüşəsinə keçirilmiş foto-şəkillərə baxırdım. Fotolar hansısa toyda çəkilmişdi.O şəkillərdə Manaf müəllim 55–60 yaşlarında olardı. Şəklin birində ayaq üstə danışır, elə bil şeir deyirdi. Başqa bir şəkildə cavanların əhatəsində idi. Şəkildəkiləri tanımırdım, ancaq anlamaq olurdu ki, onlar Manaf müəllimə yaxın, simsar adamlardır. Öz-özümə dedim ki, görəsən, həmin adamlar indi haradadırlar, heç Manaf müəllim haqda düşünürlərmi?

Manaf müəllimin şeir, sənət xiridarı olduğunu bilirdim. Bakıda yaşayan lahıclılar, özünün dostları, müəllim yoldaşları toy məclislərində çox vaxt onun çıxış etməsini istəyirdilər. Onun bəlağətlə danışığı çoxlarının ürəyincə olurdu. O, Tofiq Fikrətin, Hüseyn Cavıdın, Məhəmməd Hadinin, Mehmet Akifin şeirlərinin dəlisiydi. Mən də fürsət düşən kimi Əli bəy Hüseynzadənin "Halü-Vətən" şeirindən bir bənd söylədim:

**Ucundadır dilimin**
**Həqiqətin böyüyü.**
**Nə qoydular deyəlim,**
**Nə kəsdilər dilimi.**

Elə bil kişinin gözünə əlavə işıq gəldi. Şeirin ardını deməyimə imkan vermədi:

**Bilirmisən cühalə,**
**Nə etdilər Vətənə?**
**Nə qoydular uyuya,**
**Nə qoydular oyana.**

Sonra əlavə etdi ki, heyif sənə Əli bəy! Vətən haqqında, görəsən, bundan artıq, bundan mənalı şeir demək olar?

Manaf müəllimin iş otağında divarda tanınmış rəssamların müxtəlif səpkili əsərləri asılmışdı. Bu əsərləri ona rəssam dostları hədiyyə etmişdilər...

Bu söhbətimizdə yazıçı Manaf Süleymanov razılaşıb-razılaşmadığım çox mətləblərdən danışdı. Ancaq hərdən deyirdi ki, bunları qəzetə yazmaq üçün demirəm, ha, elə-belə söhbətdi eləyirik.

Yenə qar yağırdı. Qar dənələri pəncərə şüşəsinə dəyib əriyir, ömrünü başa vururdu… Manaf müəllim danışmırdı, çölə baxırdı.

Sağollaşıb evdən çıxmaq istəyirdim.

Dedi ki, bir dəqiqə otur. O gedib köhnə, vərəqləri qopmuş bir albom gətirdi və Lahıcda çəkilmiş şəkillərindən birinin arxasına ürək sözlərini yazıb mənə verdi. Dedi ki, qoy bu şəkil qarlı gündən sənə xatirə qalsın. Qapıdan çıxanda da tapşırdı ki, vaxtın olanda gəl, tək darıxıram.

Həyətə düşəndə özümü boşluqda hiss etdim.

Fikrim yenə Manaf müəllimin yanında idi. Ürəyimdə qəribə hisslər oyanmışdı. Onun tez-tez susması, danışanda bəzən "bunları qəzet üçün demirəm, ha" sözlərini işlətməsi mənə qəribə gəlirdi. Mənimlə söhbət edərkən, pəncərədən ağappaq dünyaya baxarkən Manaf müəllim nə düşünürdü? Gəncliyində neft mədənlərində keçirdiyi çağlarımı, 37-ci ilin qara yellərinin qurbanı olmuş sənət dostlarınımı, gizlı arxivlərdə keçirdiyi günlərimi? Bəlkə, qışın yox, illərlə keçirdiyi tənhalığın soyuqluğu üşüdürdü kişini...

Nədənsə, Manaf müəllimin o şəklinə baxanda hər dəfə elə bilirəm ki, qışdır, yenə qar yağır.

Gözəl alim və yazıçımız Manaf Süleymanovun mənə bağışladığı fotoya baxıb onu sevənlərə kiçik xatirə söyləmək istədim. O foto-şəkildə, deyəsən, mənim də ömür payımdan bir gün yaşayır.

Allah kimsəni tək qoymasın!

Ruhun şad olsun, Manaf müəllim!

**Səməd MƏLİKZADƏ**

İDMAN

## Gimnastlarımız bürünc medal qazanıblar




**Bədii gimnastika üzrə böyüklərdən ibarət milli komandamızın üzvləri Güllü Ağalarzadə, Kamilla Əliyeva, Yelizaveta Luzan, Darya Sorokina, Ləman Əlimuradova və Zeynəb Hümmətova paytaxt Bakıda keçirilən Avropa kubokunda çoxnövçülükdə yüksək nəticəyə nail olaraq bürünc medal qazanıblar.**

Hakimlər onların çıxışını 71 550 xalla qiymətləndiriblər.

Bu proqramda İsrail yığması birinci, İtaliya seçməsi isə ikinci yeri tutub.

Qeyd edək ki, Milli Gimnastika Arenasında təşkil edilən Avropa kuboku yarışında 37 ölkəni təmsil edən 160 idmançı iştirak edir. Yarışa mayın 5-də yekun vurulacaq.

## Avropa kuboku: İlk gündə 10 mükafat



**Göygöldə yeniyetmə cüdoçular arasında Avropa Kuboku yarışı start götürüb.**

Yarışa uğurla start verən Azərbaycan komandası yarışın ilk gününü 2 qızıl, 1 gümüş, 7 bürünc medalla başa vurub. Qızıl medalları oğlanlar arasında mübarizə aparan Məhəmməd Hüsiyev (50 kq) və Nihad Məmişov (55 kq) qazanıb. Fərid Qarayev (60 kq) gümüş, Özqan Quliyev (60 kq), Səlim Sultanov, Ramil Mahmudov (66 kq) bürünc mükafata sahib olublar.

Qızların yarışında isə Xədicə Abdullayeva (40 kq), Leyla Ələkbərova (44 kq), Aysun Məmmədova, Səmayə Yusifli (hər ikisi 52 kq) 3-cü yeri tutublar.

## İlk Tələbə Liqasının qalibləri




**Ölkədə ilk dəfə təşkil olunan futzal üzrə Azərbaycan Tələbə Liqası başa çatıb.**

Ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən turnirdə III yer uğrunda Azərbaycan Texniki Universitetinin komandası Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kollektivinə qalib gəlib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası isə Azərbaycan Memarlıq və İnşaat Universitetini məğlub edərək liqanın qalibi olub.

Qeyd edək ki, Tələbə Liqası Elm və Təhsil Nazirliyi ilə Azərbaycan Tələbə Futbol Federasiyası İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Komitəsi və AFFA-nın dəstəyi ilə keçirilib.

Ötən il noyabrın 17-də başlayan liqada 12 ali təhsil müəssisəsinin komandası mübarizə aparıb.

**Leyla QURBANOVA**
**XQ**




**ABŞ, Avstriya, Kanada və digər ölkələrin astronomlar qrupu Yerdən 280 işıq ili uzaqlıqda yerləşən WASP-43b ekzoplanetini kəşf edib. Bu barədə tədqiqat "Nature Astronomy" (NatAstro) elmi jurnalında dərc olunub. Ekzoplanetdəki ekstremal hava şəraiti alimlərin marağına səbəb olub.**

WASP-43b isti qaz nəhənginin bir növüdür. Planet ölçüsünə görə Yupiterlə müqayisə olunur, lakin kütləsi iki dəfə böyükdür. Ekzoplanetin bir tərəfi daim Günəşə baxır, digər tərəfində isə əbədi gecə hökm sürür. Ekzoplanetin Günəş tərəfi 1260 °C-ə qədər qızır.

Gecə olan hissədə küləyin sürəti saatda 9 min kilometrə çatır ki, bu da atmosferdəki səs sürətindən yeddi dəfə çoxdur.

Sonda xatırladaq ki, planetdəki iqlim şəraitini qiymətləndirmək üçün tədqiqatçılar "James Webb Kosmik Teleskopunda" (JWST) orta infraqırmızı alətdən istifadə ediblər.

***XQ***

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən mayın 5-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən, səhər və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var.**




Mülayim cənub küləyi əsəcək, gecəyə doğru arabir güclənən şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 11-14°, gündüz 17-21° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 761 mm civə sütununa enəcək, nisbi rütubət gecə 65-70 , gündüz 45-50 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə arabir leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 10-15°, gündüz 20-25°, dağlarda gecə 3-7°, gündüz 7-12° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

***✓ 2008-ci il iyunun 23-də Azərbaycan Kooperasiya Universiteti tərəfindən Məmmədova Nərmin Əlövsət qızının adına verilmiş B seriyalı 122251 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.***

Sosial şəbəkələrdən seçmələr

## "Dəli olmayanın heç ağlı yoxdur"

**Bu fotonu və misraları "fb"də dostum, tanınmış jurnalist Şəmsiyyə Kərimova paylaşıb. Onu yaxından tanıyanlar bilirlər ki, Şəmsiyyə xanım şən, nikbin və həyatsevər insandır. Görünür, qəlbindəki pozitiv hiss və duyğuları sosial şəbəkələrdə insanlarla paylaşmaq, hər kəsə, hamıya sevinc bəxş etmək istəyir. Gözəl arzudur, deyilmi?!**



İndi oxuyacağınız bənddə isə Şəmsiyyə xanım sevginin məhz kövrək, emosional bir hiss olduğunu qabartmaq istəyib. Bununla da, sevgiyə hədd qoymağın mümkünsüz olduğunu demək istəyib:

**Deyirsən dəliyəm, sən deyən olsun,**
**Mənsiz də dünyada ağıllı çoxdur,**
**Dünya belə gəlib, belə gedirsə,**
**Dəli olmayanın heç ağlı yoxdur.**

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Şirvan Apellyasiya Məhkəməsinin hakimi Cahid İmanova atası

**FEHRUZ MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3895
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00